# RAMAZAN BAYRAMIMIZ MÜBARƏK!

Hər kəs ədalətli olacaq
ƏDALƏT

## Türkiyədə təhsil alan azərbaycanlı tələbələrin Vətənə quru sərhədlə keçməsinə icazə verilib




**Azərbaycanın Türkiyədəki Səfirliyi Türkiyədə təhsil alan Azərbaycan Respublikası vətəndaşlarına müraciət edib.**

Səfirlikdən verilən məlumata görə, müraciətdə deyilir ki, Türkiyədə ikinci semestrdə təhsilin distant qaydada həyata keçirilməsi ilə bağlı qəbul edilmiş qərar səbəbindən hazırda həmin ölkədə subbakalavr, bakalavr, magistratura, doktorantura və rezidentura təhsili alan Azərbaycan vətəndaşları və onların birinci dərəcəli ailə üzvlərinin (ata/ana, ər/arvad, övladlar) tələbə biletini təqdim etməklə zəruri icazə olmadan 2023-cü ilin 10 may tarixinədək quru sərhədləri vasitəsilə Azərbaycan Respublikasına daxil olmalarına icazə verilib.

## Bayram namazının vaxtı açıqlandı



**Ramazan ayının bayramı namazının vaxtı açıqlanıb.**

Qafqaz Müsəlmanları İdarəsindən Adalet.az-a verilən məlumata görə, Təzə Pir Məscidində bayram namazı aprelin 21 və 22-də qılınacaq.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin Ramazan bayramı münasibətilə təbrikində isə qeyd olunub ki, Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının verdiyi məlumata görə, bu il Şəvval ayının 1-i Ramazan bayramı, inşallah, Miladi təqvimlə aprelin 21-nə təsadüf edir.

Orucun mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günü - Bayram axşamı şam namazından sonradır. Qazılar Şurasının Fətvasına görə adambaşına 10-15 manat fitrə zəkatının verilməsi tövsiyə olunur. Fitrə canın sədəqəsidir və imkanı olan müsəlmanın ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarması, imkansızlara, ehtiyacı olan ailələrə verməsi vacibdir. Bu, hər bir ailəyə bayram ovqatı yaşamağa imkan yaradır.

## Emin Əmrullayev: "Ali məktəblər üçün bunu tətbiq etmək düzgün deyil"



**"Ali məktəblər üçün MİQ-ə (Müəllimlərin İşə Qəbulu) bənzər model tətbiq etmək düzgün deyil".**

Adalet.az xəbər verir ki, bunu elm və təhsil naziri Emin Əmrullayev bazar ertəsi jurnalistlərə açıqlamasında deyib. "Elə sahələr var ki, orada yalnız bir mütəxəssis var. Siz həmin şəxsi MİQ-ə bənzər imtahanla necə işə götürə bilərsiniz? Bəzən fikirlər söylənilir, sadəcə onun arxasında dayanan proseslər nəzərə alınmır",- deyə nazir əlavə edib.

## Xüsusi karantin rejiminin müddəti uzadıldı

**Azərbaycanda xüsusi karantin rejiminin müddəti iyulun 1-dək uzadılıb.**

Adalet.az xəbər verir ki, bununla bağlı Baş nazir Əli əsədov qərar imzalayıb. Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2023-cü il 1 iyul saat 06:00-dək uzadılıb.

## DİN və DSX birgə əməliyyat keçirdi




**Daxili İşlər Nazirliyi (DİN) və Dövlət Sərhəd Xidməti (DSX) İmişlidə növbəti birgə əməliyyat keçirib, saxlanılan var.**

Bu barədə Adalet.az-a DİN-in Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, nazirliyin Baş Narkotiklərlə Mübarizə İdarəsi və DSX-nin əməkdaşları tərəfindən birgə keçirilən növbəti xüsusi əməliyyat nəticəsində qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə külli miqdarda narkotik maddələr keçirən daha bir nəfər saxlanılıb. Tədbir zamanı paytaxt sakini Elməddin Hüseynov İmişli rayonu ərazisində tutulub. Bu şəxsdən ümumilikdə 14 kiloqram narkotik maddə olan qurudulmuş marixuana aşkar edilib. İlkin sorğu zamanı Elməddin Hüseynov ondan aşkar olunmuş narkotik vasitəni İran İslam Respublikasının vətəndaşı "Baba" adı ilə tanıdığı şəxsin vasitəsilə İmişli rayonu ərazisində gizlədilən ünvandan müxtəlif yerlərə çatdırıb pul qazanmaq məqsədilə əldə etdiyini bildirib. Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, saxlanılan şəxslər barəsində həbs qətimkan tədbiri seçilib, əməliyyat-istintaq tədbirləri davam etdirilir.

Qeyd edək ki, son 1 ay ərazində DİN-in Baş Narkotiklərlə Mübarizə İdarəsi və DSX-nin əməkdaşlarının birgə həyata keçirdikləri xüsusi əməliyyatlar nəticəsində ümumilikdə 131 kiloqram müxtəlif növ güclü təsiredici xassəli narkotik vasitələr aşkar edilərək qanunsuz dövriyyədən çıxarılıb.

Hər kəs ədalətli olacaq

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 15 (6008) 21 aprel 2023-cü il | Qiyməti 40 qəpik

## Fazil Mustafa ifadə verdi



**Sui-qəsd cəhdinə məruz qalan Milli Məclisin deputatı Fazil Mustafa istintaqa ifadə verib.**

Adalet.az xəbər verir ki, bu barədə millət vəkilinin özü məlumat verib.

Ona qarşı törədilən terrorla bağlı hələlik heç bir yeniliyin olmadığını dilə gətirən F.Mustafa istintaqın gedişini gözlədiyini deyib: "Bu barədə bilgim yoxdur. Hələlik mənə heç bir açıqlama verilməyib. Zərərçəkmiş şəxs kimi mənim ifadəmi alıblar. Qalan məsələlərlə bağlı məlumatım yoxdur. İstintaqı gözləyirəm".

Qeyd edək ki, martın 28-i saat 21:51 radələrində Milli Məclisinin deputatı Mustafa Fazil Qəzənfər oğluna yaşadığı evin qarşısında "Kalaşnikov" avtomat silahından atəş açılaraq terror aktı törədilib. Nəticədə F.Mustafa bədənin sağ çiyin qurşağını və sağ budun aşağı üçdə birini dəlib keçən güllə yarası alıb. Ona zəruri tibbi xidmətlər göstərilib.

Hadisəni törətməkdə şübhəli bilinən bir neçə nəfər saxlanılıb.

**Lent.az**

# "Biz hər bir vəziyyətə hazır olmalıyıq"

**Müharibədən sonrakı iki il yarım ərzində də ordu quruculuğu məsələlərinə çox böyük diqqət göstərilib.**

**Adalet.az xəbər verir ki, bu barədə Prezident İlham Əliyev aprelin 18-də Salyan rayonunda Azərbaycan Televiziyasına müsahibəsində deyib.**

**Dövlətimizin başçısı tam əminliklə deyib ki, bugünkü Azərbaycan Ordusu 2020-ci ildə Zəfər çalmış eyni Azərbaycan Ordusundan qat-qat güclüdür. "Ancaq, eyni zamanda, yenə də demək istəyirəm, biz hər bir vəziyyətə hər an hazır olmalıyıq", - deyə Azərbaycan Prezidenti əlavə edib.**



## Ərdoğan: "Putin "Akkuyu" ilə bağlı mərasimə qatılacaq"



**"Aprelin 27-də "Akkuyu"da təzə yanacağın əldə olunması ilə bağlı mərasim keçiriləcək. Sahəyə təzə yanacağın tətbiqi ilə "Akkuyu" elektrik stansiyasına çevriləcək. Vladimir Putin də mərasimdə videokonfrans vasitəsilə iştirak edəcək".**

Bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qatıldığı proqramlardan birində gündəmlə bağlı açıqlama verərkən bildirib.

Türkiyə lideri qeyd edib:

"Sakarya qaz yatağı kəşfiyyatdan hasilata qədər ən sürətli inkişaf layihəsidir. Biz 3 il ərzində bu sahədə hasilatı 40 milyon kubmetrə çatdıracağıq. 2-ci mərhələ bitdikdə bütün yaşayış evlərinin qaz ehtiyacını ödəyəcək səviyyəyə çatacağıq. Mərkəzi Qara dənizdə seysmik tədqiqatlar tamamlanıb. Bundan sonra qazma işlərinə başlanılacaq. Bu, regionda potensialın yüksək olduğunu göstərir".

Ərdoğan vurğulayıb ki, Türkiyə Trakyadan qərbə təbii qaz nəqlini və paylanmasını həyata keçirəcək.

"Akkuyu" AES-in birinci blokunun təməli 3 aprel 2018-ci ildə Rəcəb Tayyib Ərdoğan və Rusiya Prezidenti Vladimir Putinin videokonfrans vasitəsilə qatıldığı mərasimlə qoyulub.

## Soylu: "Türkiyənin infrastrukturunun gücünü görən dünya təşvişə düşüb"



**"Son 300 ildə ilk dəfədir ki, bu torpaqlar bərpa olunur. İlk dəfə yüksəkliyə doğru sürət yığmağa başladıq. Ancaq Türkiyə yüksəldikcə dalğalar daha şiddətlə vurmağa başladı".**

Bunu Türkiyənin daxili işlər naziri Süleyman Soylu "Haber Global"a müsahibəsində bəyan edib. Nazirin sözlərinə görə, cümhuriyyəti qurduqdan sonra sanki bir slaloma daxil olublar.

"Düşmənlərin ilk cəhdi "Gezi" hadisələri oldu. İkinci cəhd dekabrın 17-25-i yaşandı. Sonra 6-8 oktyabr hadisələri gəldi - bu, 80 il əvvəlki hadisələrin eynidir, lakin törəmələri dəyişib. 6-8 oktyabr hadisələri də dövlətin nüfuzuna hücum idi. 15 iyul hadisəsini yaşadıq. Bu, dalğanın gəminin uzunluğunu aşmış halı idi. 15 iyulu kim etdisə, "Gezi" hadisələrini də o təhrik etdi".

Süleyman Soylu Türkiyənin müstəqilliyini genişləndirdikcə "dalğa"ların daha da sərtləşdiyini vurğulayıb:

"Onlar bu iqlimi çox pozublar. Burada kimlərsə kürd, ələvilik məsələlərindən sui-istifadə etməyə çalışırlar. Yəni burada zəmin hazırlayıblar. Mən bunu qırılma xətti adlandırıram".

DİN rəhbərinin sözlərinə görə, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bunun üçün 2002-ci ildə tədbirlər görüb.

"Rəcəb Tayyib Ərdoğan Türkiyənin ümid belə etmədiyi bir çox addımlar atdı. Türkiyənin infrastrukturunun gücünü, qapalı Maraşın açıq Maraşa çevrildiyini görən dünya təşvişə düşüb", - deyə Süleyman Soylu sözlərini yekunlaşdırıb.

## Bu sürücülər 800 manatadək cərimə oluna bilər




**Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi sürücülərə müraciət edib.**

Adalet.az xəbər verir ki, müraciətdə deyilir:

"Daxili İşlər Nazirliyinin Nəqliyyatı İntellektual İdarəetmə Mərkəzi tərəfindən paytaxt yollarında quraşdırılan kameralar vasitəsilə aparılan müşahidələrə əsasən müəyyən edilib ki, bəzi sürücülər dayanma və durma qaydalarını pozduqları halda cərimə olunmaqdan yayınmaq üçün müxtəlif üsul və vasitələrə əl atırlar.

Belə ki, bəzi hallarda nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanının görünüşünü məhdudlaşdıran müxtəlif örtüklər çəkməklə, avtomobilin yük yerinin qapısını açmaqla və ya kapotu açıb guya avtomobilin nasaz olmasını göstərməklə inzibati məsuliyyətdən yayınmağa çalışırlar. Təbii ki, bu və ya digər hallar araşdırılaraq bəzi sürücülərin məqsədyönlü davranışı üzə çıxarılır.

Xatırladaq ki, İnzibati Xətalar Məcəlləsinin 346.1-ci və 346.2-ci maddələrinə əsasən, dayanma və durma qaydalarının pozulmasına görə iyirmi və qırx manat məbləğində cərimə nəzərdə tutulubsa, Məcəllənin 342.9-cu maddəsinə əsasən, nəqliyyat vasitəsinin dövlət qeydiyyat nişanının görünüşünü çətinləşdirən örtüklərdən və ya qurğulardan istifadə edilməsinə görə beş yüz manatdan səkkiz yüz manatadək məbləğdə cərimə tətbiq edilir. Göründüyü kimi, məsuliyyətdən yayınmaq məqsədi ilə törədilən bu kimi əməllər daha ciddi inzibati tənbehin tətbiq edilməsinə əsas yaradır.

Odur ki, bir daha sürücüləri yol hərəkəti qaydalarına riayət etməyə və bu cür hallardan çəkinməyə çağırırıq".

## BQXK nümayəndələri əsir saxlanılan iki hərbçimizə baş çəkdi



**19 aprel tarixində BQXK nümayəndələri bu yaxınlarda saxlanılan iki Azərbaycan vətəndaşına Yerevanda baş çəkiblər. Onlarla təkbətək görüş keçirilmiş və ailələri ilə Qızıl Xaç Məktubu vasitəsilə əlaqə yaratmaq imkanı verilib.**

Bu barədə Adalet.az-a BQXK-nın Azərbaycan nümayəndəliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova məlumat verib.

Mandatına uyğun olaraq, BQXK başçəkmələr zamanı saxlanılan şəxslərlə rəftarı və saxlanma şəraitini qiymətləndirir və onların ailələri ilə əlaqələrini bərpa etmək və ya davam etdirmək üçün şərait yaradır. BQXK-nın prosedurlarına uyğun olaraq, başçəkmələrlə bağlı müşahidələr və tövsiyələr yalnız saxlayan tərəflə paylaşılır.

## Ermənistanda əsir saxlanılan əsgərimizə növbəti cinayət işi açıldı

**Ermənistanda əsir saxlanılan Azərbaycan hərbçisi Hüseyn Axundova qarşı növbəti cinayət işi açılıb.**

Adalet.az Ermənistan Baş Prokurorluğuna istinadən xəbər verir ki, o, "Zəngəzur mis-molibden kombinatının gözətçisini qətlə yetirməkdə" təqsirləndirilir. Qeyd edək ki, bir neçə gün əvvəl Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən Azərbaycan ordusunun itkin düşmüş əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu Ermənistan tərəfindən əsir götürülüb. Aqşin Bəbirov və Hüseyn Axundov "Ermənistanın dövlət sərhədini qanunsuz keçməkdə, odlu silah və döyüş sursatı daşımaqda" ittiham olunurlar, onlar həbs edilib.

## Rövşən Rzayev: «Şuşalıların 95 faizi doğma şəhərlərinə qayıdacaqlar»



**"Şuşadan olan keçmiş məcburi köçkünlərin 95 faizi bərpadan sonra doğma şəhərlərinə qayıdacaqlar. Onlar bununla bağlı öz mövqelərini bildiriblər və qayıdışa hazır olduqlarını söyləyiblər".**

Adalet.az xəbər verir ki, bunu Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Şamaxıda "İşğaldan azad edilmiş ərazilərin investisiya cəlbediciliyi" mövzusunda keçirilən elmi-praktik konfransda deyib. Onun sözlərinə görə, işğaldan azad olunan ərazilərin inkişafı və buraya köçəcək insanların təhlükəsizliyi ən vacib məsələlərdəndir.

R.Rzayev bildirib ki, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıdışı üçün bütün zəruri işlər görülür.

"Hazırda bizim ən böyük problemimiz minalardır. İnanırıq ki, tez bir zamanda bunun da öhdəsindən birlikdə gələ biləcəyik", - Dövlət Komitəsinin sədri vurğulayıb.

## Bakıda bütün köhnə binalar söküləcək

**"Bakıda bütün köhnə binalar söküləcək və hər birinin yerində yeniləri tikiləcək".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin rəhbəri Qurban Yetirmişli bu gün keçirilən mətbuat konfransında deyib.

Onun sözlərinə görə, həmin binalar tikilən zaman hər birinə dayanaqlılıq üçün 30-40 il zəmanət verilib: "Artıq onların sökülməsi üçün zaman yetişib. Bundan başqa, məndə qədimi binalarda isə bərkitmə və möhkəmləndirmə işləri aparılacağı barədə məlumatlar var".

## Türkiyə özünün raketdən müdafiə sistemini 6 ilə istehsal edəcək



**Türkiyə özünün uzun mənzilli və yüksək sürətli ballistik raketlərə qarşı hava hücumundan müdafiə sistemlərini 6 ildən sonra istehsal etməyə başlaya bilər.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyə Müdafiə Sənayesi İdarəsinin rəhbəri İsmayıl Dəmir "Haber Türk" kanalına müsahibəsində bildirib.

O qeyd edib ki, hazırda bu vəzifələrin icrası Rusiyadan alınan "S-400"lərlə həyata keçirilə bilər.

## GÜNÜN LƏTİFƏSİ



Bir gün Molla Nəsrəddin bir həkimin yanına gedib deyir:

**- Həkim, bir məni yoxla görüm dərdim nədirə**

Həkim Mollanın nəbzini yoxlayıb deyir:

**- Dərdiniz aclıqdır. əyləşin, bizimlə nahar eləyin, sovuşub gedər, qorxulu deyildir.**

Molla həkimin təklifini qəbul edərək oturub möhkəm yeyir, getmək istərkən həkimə deyir:

**- Həkimbaşı, bizim evdə bu xəstəliyə tutulmuş bir neçə adam vardır. İndi ki, siz belə tez mualicə edirsiniz, mən onları da sizin yanınıza göndərməyə məcburam.**

## İlham Əliyevdən Ramazan bayramı təbriki



**Prezident İlham Əliyev Ramazan bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib.**

Adalet.az xəbər verir ki, təbrikdə deyilir:

**”Hörmətli həmvətənlər!**

Sizi müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən xoş arzu və diləklərimi yetirirəm.

Bəşər övladını əxlaqi paklığa, humanizmə, birlik və bərabərliyə dəvət edən, insanların ruhunu və mənəviyyatını saflaşdıran mübarək Ramazan ayında müsəlmanlar Uca Yaradan qarşısında öz borcunu ləyaqətlə yerinə yetirmək fürsəti əldə edir, mənəvi kamilliyin və savab əməllərin sevincini yaşayırlar.

İslam sivilizasiyasının tarixi-mədəni mərkəzlərindən olan Azərbaycanda Ramazan bayramı hər il böyük təntənə ilə keçirilir, xalqımızın və dövlətimizin firavanlığı, əmin-amanlığı üçün dualar edilir, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının xatirəsi dərin ehtiramla yad olunur.

**Əziz bacı və qardaşlarım!**

Cəmiyyətimizdə vəhdəti və həmrəyliyi daha da gücləndirən, xeyirxahlığın, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevrilən on bir ayın sultanı Ramazan ayı başa çatır. Bu mübarək bayram münasibətilə bir daha hər birinizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət arzulayıram.

Allah orucunuzu, dua və niyyətlərinizi qəbul etsin.

Ramazan bayramınız mübarək olsun!”

## Prezident və birinci xanım “Cümə” məscidinin açılışında

**Aprelin 20-də Bakının Nərimanov rayonunda dövlətimizin başçısının təşəbbüsü ilə aparılan əsaslı təmirdən və rekonstruksiyadan sonra ”Cümə” məscidinin açılışı olub.**

Adalet.az xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

## Prezidentdən “YAŞAT” Fondu ilə bağlı Sərəncam

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fonduna (”YAŞAT” Fondu) maliyyə dəstəyi haqqında Sərəncam imzalayıb.**

Adalet.az xəbər verir ki, Sərəncamda deyilir:

”Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar şəhid olmuş şəxslərin ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün müvafiq platformanın yaradılması, bu sahədə şəffaflığın, hesabatlılığın və ictimai nəzarətin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 8 dekabr tarixli 1203 nömrəli Fərmanı ilə ”YAŞAT” Fondu yaradılmışdır. Ötən dövr ərzində Fond əsas missiyasını yerinə yetirmiş, bütün müraciət edən Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinə və əlilliyi müəyyən olunmuş şəxslərə dəstək göstərilmiş, 36.553 müraciət təmin edilmiş, bu məqsədlə Fondun büdcəsindən 75.575.943 manat vəsait təyinatı üzrə xərclənmişdir”. Sərəncamla Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçuların və şəhid olmuş şəxslərin ailə üzvlərinin və dövlət orqanlarının (qurumlarının) işğaldan azad edilmiş ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən, habelə hərbi əməliyyatlar bitdikdən sonra onların nəticələrinin aradan qaldırılmasında iştirak etməsi nəticəsində əlilliyi müəyyən olunmuş əməkdaşlarının və ya həlak olmuş əməkdaşların ailə üzvlərinin müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi üçün Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fonduna (”YAŞAT” Fondu) 5 milyon manat vəsait ayrılıb.

Maliyyə Nazirliyinə bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

## Azərbaycanda Nəqliyyatı Əlaqələndirmə Şurası yaradılır

**Azərbaycanda Nəqliyyatı Əlaqələndirmə Şurası yaradılır. Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.**

Sərəncamla nəqliyyatın ayrı-ayrı növlərinin koordinasiyalı fəaliyyətinin və əhalinin mobilliyinin təmin edilməsi, yol və nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, yol hərəkətinin təşkili, təhlükəsizliyi və tənzimlənməsi sahələrində fəaliyyətin əlaqələndirilməsi və təkmilləşdirilməsi məqsədilə aşağıdakı tərkibdə Nəqliyyatı Əlaqələndirmə Şurası (bundan sonra - Şura) yaradılır:

**Şuranın sədri**

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri

**Şuranın üzvləri:**

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinin müdiri

Azərbaycan Respublikası daxili işlər nazirinin müavini

Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini

Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyəti sədrinin müavini

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi İdarə Heyətinin sədri

”Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin sədri

”Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin sədri.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bir ay müddətində:

2.1.1. Şuranın Əsasnamə layihəsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. Şuranın yaradılması ilə bağlı nəqliyyat sahəsində tənzimləmənin təkmilləşdirilməsi ilə əlaqədar normativ hüquqi aktların layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

# İlham Əliyev: "Ölkəmiz dinamik şəkildə inkişaf edir"

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 18-də Salyan şəhərinə səfəri çərçivəsində Azərbaycan Televiziyasına müsahibə verib:**

2004-cü ildən başlayaraq Azərbaycanda regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları həyata keçirilir. Hazırda 4-cü proqram icra edilir. Bu proqramların icrası nəticəsində bölgələrdə çox böyük genişmiqyaslı quruculuq işləri aparılmışdır. Bu işlər davam etdirilir.

Azərbaycan bölgələrinin ümumi inkişafı həm sosial xarakter daşıyır, həm ölkəmizi gücləndirir. Bəyan olunmuş bütün hədəflər- insanların rifah halının yaxşılaşdırılması, infrastruktur obyektlərinin yaradılması, o cümlədən sosial infrastrukturla bağlı işlərin aparılması bölgələrdə təmin edilir.

Salyanda açılan ”ASAN xidmət” mərkəzi, sayca 25-ci mərkəzdir. ”ASAN xidmət” sistemi bu gün dünyada artıq Azərbaycan brendi kimi tanınır. ”ASAN xidmət” mərkəzlərində göstərilən xidmətlər əhali tərəfindən rəğbətlə qarşılanır və bəyənmə əmsalı 99,8 faizdir. Artıq ASAN modelini bir neçə ölkə tətbiq edir. Son 10 il ərzində 61 milyon müraciət olmuşdur. Bu xidmətin yaradılması faktiki olaraq ictimai xidmətlər sahəsində bir inqilab idi, bir dönüş nöqtəsi idi və hazırda 300-dən çox xidmət göstərilir. ”ASAN xidmət” Azərbaycanın intellektual məhsulunun bir nümunəsidir.

Ölkəmiz dinamik şəkildə inkişaf edir.Olimpiya İdman Kompleksi, uşaq xəstəxanası, doğum evi, elektrik təchizatı ilə bağlı rəqəmsal idarəetmə mərkəzi, digər tədbirlər, iş yerlərinin yaradılması ilə bağlı olan addımlar, o cümlədən Neftçala rayonunda böyük balıqçılıq təsərrüfatının açılışı - bütün bunlar onu göstərir ki, ölkəmiz dinamik şəkildə inkişaf edir, sosial siyasət uğurla icra olunur.

Bütün bərpa və quruculuq işləri plan üzrə gedir. Hazırda Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsi məsələsi bizim üçün əsas prioritetdir.

Otuz il ərzində Ermənistan işğal etdiyi torpaqları viran qoyub, daş-daş üstə qoymayıb, talançılıq və soyğunçuluqla məşğul olub, barbarlıqla məşğul olub. Biz- bu torpaqların sahibləri isə gəlmişik qurmaq üçün, yaratmaq üçün. Ona görə müharibə başa çatan kimi dərhal işə start verilmişdir.

Artıq icra olunmuş iki layihə bütün Azərbaycan əhalisinə və bütün dünyaya göstərir ki, gələcək Qarabağın və Şərqi Zəngəzurun siması necə olacaq.Hazırda artıq iki yaşayış məntəqəsində keçmiş köçkünlər yaşayır - Ağalı və Talış kəndlərində. Bu kəndlərin timsalında bütövlükdə gələcək Qarabağın və Şərqi Zəngəzurun simasını görürük-abad şəhərlər, kəndlər, ağıllı idarəetmə prinsipləri əsasında yaradılan infrastruktur. Cari ilin 3 ayında əldə edilmiş nailiyyətlər imkan verir ki, büdcəyə əlavələr edək. İlk növbədə Vergi Xidməti xətti ilə üç ay ərzində proqnozdan 1,1 milyard manat çox vəsait toplanmışdır. Gömrük sektorunda isə proqnozdan əlavə toplanan vəsait 400 milyon manatdan çoxdur. Hazırda gömrük sahəsində də aparılan islahatlar, əvvəlki dövrlərdə buraxılan nöqsanların aradan qaldırılması prosesi uğurla gedir. Təkcə 3 ay ərzində proqnozdan əlavə 1,5 milyard manat vəsait yığılıbdır.

Büdcəyə əlavələr ən azı 3 milyard manat səviyyəsində olacaq. Bunun əsas hissəsi Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasında istifadə ediləcək. İkinci yerdə bizim hərbi xərclərimiz olacaq.



Ermənistanda revanşist qüvvələr yenə baş qaldırır.Biz istənilən vəziyyətə hazır olmalıyıq və elə bir ordu yaratmalıyıq ki, dünya miqyasında nümunəvi olsun və ən güclü ordulardan biri olsun. Bu gün də Azərbaycan Ordusu güclüdür. Biz gücümüzü döyüş meydanında göstərmişik. Biz döyüş meydanında həm Azərbaycan xalqının gücünü, iradəsini, əyilməz ruhunu göstərdik, eyni zamanda, hərbçilərimizin peşəkarlığını və hərbi potensialımızı göstərdik.

Müharibədən sonrakı iki il yarım ərzində də ordu quruculuğu məsələlərinə çox böyük diqqət göstərilib. Bugünkü Azərbaycan Ordusu 2020-ci ildə Zəfər çalmış eyni Azərbaycan Ordusundan qat-qat güclüdür.

İndi dünya miqyasında bir çox yerlərdə iqtisadi böhranın, siyasi böhranın, hərbi böhranın hökm sürdüyü bir vaxtda Azərbaycan onsuz da rekord həddə olan dövlət büdcəsini daha da artırır və bizim büdcə xərclərimiz bu artımdan sonrayeni rekord qıracaq və ən azı 36 milyard manata çatacaqdır.Qarabağda və Şərqi Zəngəzurda gedən işlərlə bağlı müntəzəm olaraq ictimaiyyətə məlumat verilir. İnfrastruktur layihələrinin icrası, dəmir yolları, avtomobil yolları, elektrik enerjisi ilə bağlı olan təchizat, su təchizatı, meliorativ tədbirlərlə bağlı olan bütün layihələr plan üzrə gedir. İki hava limanı artıq fəaliyyətdədir, üçüncü hava limanının inşası davam edir.

Keçmiş köçkünlər bu ilin yay aylarında Laçın şəhərinə qayıdacaqlar. Son planlara görə, ancaq fərdi evlərin sayı 570 olacaq. 140-dan çox mənzil hazır olacaqdır. Beləliklə, 700-dən çox ailə bu ilin yay aylarında Laçın şəhərində yerləşdiriləcəkdir.

İşğaldan azad olunmuş ərazilərin bərpası sürətlə davam edir. Şuşa şəhərində birinci yaşayış kompleksi uğurla inşa edilir. İkinci böyük yaşayış kompleksinin, yəni, bir çox evlərdən ibarət layihənin təməli yaxın zamanlarda qoyulacaq. Ağdam, Füzuli, Zəngilan şəhərlərində yaşayış binalarının inşası plan üzrə gedir, Kəlbəcər və Cəbrayıl şəhərlərində isə buna hazırlıq işləri görülür. Bununla paralel olaraq məktəblər, xəstəxanalar, sosial obyektlər, məscidlər - 10-dan çox məscid yenidən tikilir və ya əsaslı şəkildə təmir edilir. Cəmi iki məscid təmir edilir. Çünki qalan məscidlərin hamısı ermənilər tərəfindən yerlə-yeksan edilmişdir.

Azərbaycan tərəfindən danışıqlarla bağlı irəli sürülmüş təşəbbüslər bu gün əsas amildir. Çünki işğala, erməni vəhşiliyinə, barbarlığına baxmayaraq, məhz Azərbaycan təklif etmişdir ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalansın və məhz Azərbaycan məlum beş prinsipi ortaya qoymuşdur. Bu prinsiplər beynəlxalq hüququn norma və prinsiplərinin təməl prinsipləridir.

Nəticə etibarilə Ermənistan bizim yanaşma ilə razıdır. Çünki başqa variant da yoxdur. Məhz buna görə keçən ilin oktyabr ayında Praqa və Soçi görüşlərində Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul edib. Qəbul edib ki, Azərbaycan ilə Ermənistan arasında sərhədlər - 1991-ci ilin Alma-Ata Bəyannaməsi əsasında həll olunmalıdır. Bu rəsmi addımı atmaqla Ermənistan rəsmən Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyıb.

Niyyətimiz ondan ibarətdir ki, tezliklə sülh müqaviləsi imzalansın, Azərbaycanla Ermənistan arasında bu qarşıdurmaya son qoyulsun.Azərbaycan dəfələrlə bəyan etmişdir ki, daxili işlərimizi heç bir ölkə ilə müzakirə etməyəcəyik. Qarabağ bizim daxili işimizdir. Qarabağda yaşayan ermənilər ya Azərbaycan vətəndaşlığını qəbul etməlidirlər, ya da ki, özləri üçün başqa yaşayış yeri tapmalıdırlar.

### Prinsipial mövqe

İkinci Qarabağ müharibəsindən keçən iki il yarım ərzində Ermənistan, onun havadarları və eyni zamanda, ona dəstək verən ölkələr və qüvvələr bizim iradəmizi, qətiyyətimizi, gücümüzü əyani şəkildə görüblər.

Separatçılar bilməlidirlər ki, onların iki seçimi var: ya Azərbaycan Bayrağı altında yaşayacaqlar, ya da ki, çıxıb gedəcəklər.Separatçıların əsas simalarından olan SerjikSarkisyanı, Robert Koçaryanı, Seyran Ohanyanı Qarabağdan qovmuşuq. Onlar qaçıblar, Xankəndiyə və başqa bir yerə gələ bilmirlər.

Hazırda özləri üçün qondarma adlar uyduran separatçılar-bilməlidir ki, bizim səbrimizlə oynamaq olmaz. Biz onlara müxtəlif yollarla dəfələrlə izah etməyə çalışmışıq ki, onlar ya bizim sözümüzlə oturub duracaqlar, ya da ki, oradan rədd olacaqlar və orada yaşayan, onların faktiki olaraq girovuna, əsirinə çevrilmiş erməniləri də rahat buraxacaqlar. Hazırda Qarabağda yaşayan erməni əhalisinin əksəriyyəti Azərbaycan vətəndaşlığını qəbul etməyə hazırdır. Sadəcə olaraq, separatçılar qoymurlar. Qoymurlar ki, bu insanlar rahat yaşasınlar, 30 il bunları girov kimi saxlayıblar. Ermənistanda keçirilən ağır atletika üzrə Avropa çempionatında Azərbaycanın Dövlət Bayrağınınyandırılmasıerməni hökumətinin növbəti çirkin əməlidir. Bu, təsadüfən baş vermiş, hansısa bir fərdin əməli deyil. Bu, Ermənistan hökumətinin növbəti çirkin əməlidir. Bunu deməyə əsas verən bir çox səbəblər var. Birincisi, bu hadisəni törədən insanabənzər məxluq Ermənistan hakim dairələrinin yüksəksəviyyəli şəxsləri ilə birbaşa təmasdadır. İkincisi, bu məxluqa heç bir cəza verilmədi, əksinə, Ermənistanda onu qəhrəmanlaşdırırlar.

Ermənilər bir gün gözlərini açıb Azərbaycan Bayrağını öz başları üzərində görə bilərlər.Bu gün Azərbaycan Bayrağı Qarabağda dalğalanır. Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Şuşada, Hadrutda, Talışda, Suqovuşanda və neçə-neçə kənddə, yüzlərlə kənddə Azərbaycan Bayrağı dalğalanır. Bu gün Azərbaycan Bayrağı Zəngəzur dağlarında dalğalanır.

Ermənilər bizim bayrağımızı yandırıblar, amma Türk Bayrağı orada dalğalanıb.Türk dünyasının hər bir övladıCansu və Qəmzə kimi olmalıdır. Türkiyənin idmançıları Ermənistanda - düşmən dövlətdə, həm Azərbaycana, həm də Türkiyəyə əzəli düşmən olan dövlətdə böyük qələbəni əldə etdilər. Bu qələbəni onlar Azərbaycana, Azərbaycan xalqına həsr etdilər. Türkiyə-Azərbaycan birliyi, qardaşlığı sarsılmazdır.

**Hazırladı:**
**Mehriban Cəfərova**

# ”MEDİAlab” layihəsi çərçivəsində tələbələr üçün seminar keçirilib

Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə gənclərin media sahəsində fəal iştirakına şərait yaratmaq, yaradıcı-innovativ potensialını stimullaşdırmaq, xarici təcrübəyə əsaslanan nəzəri biliklərini artırmaq və yerli mediada tətbiqini reallaşdırmaq, bu istiqamətdə təcrübə mübadiləsini həyata keçirmək üçün ”MEDİAlab” layihəsi çərçivəsində xarici mütəxəssislərin cəlb edilməsiylə silsilə seminarlara başlanılıb.




Adalet.az xəbər verir ki, Medianın İnkişafı Agentliyinin təşkilatçılığı və 4 ali təhsil müəssisəsinin - Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Slavyan Universiteti və Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tərəfdaşlığı ilə həyata keçirilən ”MEDİAlab” layihəsi çərçivəsində jurnalistika ixtisasında təhsil alan və jurnalistikaya marağı olan gənclər üçün kommunikasiya, marketinq və ictimai əlaqələr üzrə xarici ekspert Tatyana Ravalli tərəfindən ”Rəqəmsal ”storytelling”: Rəqəmsal məzmun yaratmaq üçün multimedia alətlərindən necə istifadə etmək olar?” mövzusunda ilk seminar təşkil olunub.

Seminar müddətində yeni informasiya- kommunikasiya texnologiyalarının inkişafının media mühitinə kompleks təsiri, yeni mediada kommunikasiya alətləri və formaları, rəqəmsal alətlərdən istifadə edərək məzmun yaratmaq, sosial medianın məlumat mənbəyi kimi aktuallaşması kimi mövzulara toxunulub. Sonda interaktiv müzakirə sessiyaları olub, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Medianın İnkişafı Agentliyi müxtəlif universitetlərdə jurnalistika ixtisası üzrə təhsil alan tələbələrin xarici mütəxəssislərin cəlb olunduğu silsilə seminarlarda mərhələli şəkildə iştirakı istiqamətində layihənin icrasını davam etdirəcəkdir.

## Paşinyan: “Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyır”



**”Ermənistan Respublikası Azərbaycanın ərazi bütövlüyünü tam şəkildə tanıyır”.**

Adalet.az xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdə çıxışı zamanı deyib.

O, Ermənistanla Azərbaycan arasında sülhün bərqərar olmasına toxunub: ”Mən indi bir daha təsdiq etmək istəyirəm ki, Ermənistan Respublikası Azərbaycanın ərazi bütövlüyünü tam şəkildə tanıyır və biz gözləyirik ki, Azərbaycan da Ermənistan SSR-in bütün ərazisini Ermənistan Respublikası kimi tanıyacaq”.

## “Çin və İranın Rusiyaya silah göndərməsinin qarşısı alınmalıdır”

**”Böyük yeddilik”ə daxil olan ölkələrin xarici işlər nazirləri, üçüncü ölkələrdən Rusiyaya silah-sursat göndərilməsinin qarşısının alınması üçün koordunasiyanın daha da gücləndirilməsi barədə bəyənat veriblər.**

Diplomatlar, Moskvanın tərəfdaşları olan ölkələri, əsasən də İran və Çini Rusiyaya silah-sursat göndərməkdən çəkinməyə çağırıblar. Əks halda onlara qarşı da ciddi tədbirlər görüləcəyi ilə hədələyiblər.

Bəyənatda bildirilir ki, G7 Rusiyaya silah-sursat göndərən, onlara maddi yardım edən ölkələrlə bağlı ciddi tədbirlər görüləcək.

G7 ölkələrinin xarici işlər nazirlərinin sediyasında Rusiyaya qarşı tədbiq edilən sanksitaların qüvvədə qadığını, sanksiyaların yerinə yetirilməsinə nəzarəti gücləndirməyi qərara alıblar.

**Rüstəm Hacıyev**

*Elxan Şükürlü*

## Pentaqondan sızan məlumatlar kimin başını yeyəcək?



***Ukraynanın Rusiyaya əks-hücumunun hazırlandığı bir ərəfədə Pentaqona aid məxfi məlumatların mediaya sızdırılması bütün planları və gözləntiləri alt-üst edib.***

***Məxfi məlumatların aşkarlanmasının Rusiyaya qarşı dezinformasiyalarla çaşdırıcı bir əməliyyat olduğu, yoxsa ABŞ xüsusi xidmət qurumlarının məsuliyyətsizliyinin nəticəsi kimi ortaya çıxdığı haqda hələ qəti fikir söyləmək mümkün deyil.***

***Qərb mətbuatında bu hadisə artıq ”II WikiLeaks” adlandırılır və ABŞ kəşfiyyatının növbəti böyük uğursuzluğu kimi qiymətləndirilir. Hadisəni Ukrayna mövzusunda Pentaqonla Dövlət Departamenti arasındakı məlum ziddiyyətin məhsulu sayanlar da az deyil.***

***Maraqlıdır ki, Rusiya tərəfi də qiymətləndirmədə tələsmir, ehtiyatlı mövqe tutub və çoxsaylı məxfi hərbi məlumatların yer aldığı sənədlərin hələ öyrənildiyini, bunun Rusiyaya qarşı aparılan hibrid savaşın bir hissəsi ola biləcəyini vurğulayır.***

***Yayılan bu məlumatların ilkin nəticəsi isə daha çox Ukraynada görünür, rəsmi Kiyevdə əks-səda verib. Ukrayna tərəfi artıq rəsmən elan edib ki, onlar xeyli vaxtdır hazırlaşdıqları hücum planlarına dəyişiklik etmək məcburiyyətində qalıblar. Bu isə o deməkdir ki, Ukraynanın aprelin sonuna, mayın əvvəlinə planlaşdırıldığı iddia olunan və təbliğ edilən əks-hücum əməliyyatları növbəti dəfə qeyri-müəyyən müddətə ertələnəcək.***

***İstənilən halda, Pentaqondan sızan məlumatların ən böyük zərbəsinin Ukrayna hakimiyyətinə, xüsusən də Zelenskiyə dəydiyi aşkar ortadadır. Çünki motivindən asılı olmayaraq, açıqlanan sənədlər Ukrayna hakimiyyətinin son 1 il ərzində apardığı bütün təbliğatı alt-üst edir, onun yalan üzərində qurulduğunu təsdiqləyir və Ukrayna cəmiyyətindən gizlədilən itkilərin dəhşətli miqyasını ortaya qoyur.***

***Şübhə yoxdur ki, əks-hücum öncəsi aşkarlanan bu faktlar Ukrayna Silahlı Qüvvələrinə və cəmiyyətinə çox böyük mənəvi-psixoloji zərbə olacaq.***

***Mümkündür ki, elə Ukraynanın əks-hücuma hələ hazır olmadığını və yeni əməliyyatlar zamanı daha böyük itkilərə məruz qalacağını hesablayan ABŞ indiki nəticələr üzərində artıq Rusiya ilə sövdələşmə masası arxasına keçməyin vaxtının çatdığı qənaətindədir, onunla razılaşmayacaq Zelenskini də neytrallaşdırmaq üçün məqsədli şəkildə sənədləri mediaya sızdırıb, bir növ, Ukrayna hakimiyyətini fakt qarşısında qoyur.***

***Üzərində dayanılacaq başqa bir ehtimal da Zelenskinin özünün əks-hücumdan yayınması, prosesləri bu tempdə 2024-cü ilədək uzatmaq istəyi və bu işdə də Çinin vasitəçiliyinə çox böyük maraq göstərməsi ilə bağlıdır.***

***Bəzi məlumatlara görə, Ordusunun imkanlarını dəqiq bilən və ”qəhrəman prezident” imicini qoruyub saxlamağa çalışan Zelenski Qərbin Ukraynanı Rusiya ilə yayda son bir döyüşə aparıb, bundan sonra masa arxasına keçmək planlarından yayınmağa can atır və bu işdə də Çin sədri Si Çinpinin vasitəçiliyinə çox böyük ümid bəsləyir. Bayden administrasiyası isə Zelenskinin Çinlə təmasa can atmasından bərk narazıdır. Ola bilsin, ABŞ adminstrasiyası bu sənədlər vasitəsi ilə Ukrayna hakimiyyətinə xəbərdarlıq edir ki, Zelenskinin aqibəti məhz onların əlindədir...***

***Hər halda, sızan sənədlər Ukrayna ordusunun Rusiya ilə təkbaşına vuruşduğu, Rusiyanın Ukraynada tezliklə məğlub olacağı və geri çəkiləcəyi haqda 14 aydır bütün dünya boyu aparılan Qərb təbliğatının əsas tezislərini tamamilə dağıdır.***

***Eyni zamanda, bu sənədlər bir daha bizim Ukrayna müharibəsi başlayan günlərdə irəli sürdüyümüz və üzərində durduğumuz mülahizələrin gerçəkliyi əks etdirdiyini də təkzibolunmaz faktlarla ortaya qoyur: Ukrayna ABŞ demokratlarının Putini yıxmaq üçün istifadə etdiyi bir ”yem”dir və əgər Qərb Putini yıxmağa nail olmasa, Zelenskini çox asanlıqla da qurban verəcəklər...***

***2024-ə isə elə də çox vaxt qalmayıb: 2024-cü ilin martında Rusiya, aprelində Ukrayna, noyabrında ABŞ özünə yeni prezident seçməlidir. Birində dəyişiklik bütün münasibətləri dəyişəcək, dünyanı yeni mərhələyə keçirəcək.***

***İndi görək, o vaxta kim sağ qalacaq?!***

## *Əsir düşən iki əsgərimizi necə azad edə bilərik?*

**Hərbi ekspert alternativ variantları təklif etdi**



”Daha əvvəl də mən təklif etmişdim ki, erməni tərəfinin əsgərlərimizi qaytarması üçün minimal müddət təyin edilsin. Bu müddət təyin edilməyincə, Azəraybaycan tərəfi Qarabağda qeyri-qanuni olaraq yerləşən təxminən beş min nəfərlik erməni kontingentindən bir neçə nəfərinin həbs edilməsi prosesinə başlasın”. Bunu Adalet.az-a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev deyib. Ekspert əsir düşən iki əsgərimizi azad etmək üçün Ermənistanı alternativ variantlarla məcbur etməyimizin vacibliyini vurğulayıb:

”Başqa sözlə desək, Azərbaycan Qarabağın rusların nəzarətində olan ərazilərdə mövcud olan Ermənistana aid silahlılardan bir neçə nəfəri həbs etməklə, onların da bizim ərazimizdə qeyri-qanuni olaraq silah keçirməsinə və bizə qarşı separatizm fəaliyyətlərində iştirakçına görə cinayət işi aça bilər. Ermənistan tərəfi bundan sonra bizim əsgərləri qaytarmaq məcburiyyətində qalacaq. Bu işin başqa yolu yoxdur. İstəsək, Şuşa-Xankəndi istiqamətindəki yolda müəyyən proflaktik tədbirlər məqsədilə yolun bir neçə günlük istifadəsini də dayandıra bilərik. Təminat və təchizatda yaranan problemlər Ermənistanın əsgərlərimizin qaytarılması üçün soyuqbaşlı qərarlar qəbul etməsinə kömək edə bilər”.

Qeyd edək ki, Ermənistan əsir düşən iki əsgərimiz Hüseyn Axundova və Aqşi Bəbirova cinayət işi açaraq onları həbs edib.

**Vasif Əlihüseyn**

## *Reznikov Türkiyədən üzr istədi*



**Ukraynanın müdafiə naziri Oliksiy Reznikov ölkəsindəki müharibədə həlak olanların sayı ilə Türkiyədə dağıdıcı zəlzələdə ölənlərin sayını müqayisə etdiyi fikirlərinə görə rəsmi Ankaradan üzr istəyib.**

Adalet.az xəbər verir ki, nazir tviterdə yazıb ki, ukraynalılar türk xalqına rəğbət bəsləyirlər.

”Biz minlərlə günahsız insanı dəfn etməyin nə olduğunu başa düşürük”, - o bildirib.

O.Reznikov həmçinin müharibənin ilk günündən Ukraynaya verdiyi dəstəyə görə Türkiyəyə təşəkkür edib.

Qeyd edək ki, O.Reznikov İspaniyanın ”La Razon” nəşrinə müsahibəsində deyib ki, müharibədə həlak olan ukraynalı hərbçilərin sayı Türkiyədəki zəlzələdə ölənlərin sayından azdır.

# Sahibə Qafarova Polşa Seyminin sədri ilə görüşdü

**Milli Məclisin sədri Sahibə Qafarova Polşaya rəsmi səfəri çərçivəsində bu ölkə Seyminin sədri Elzbieta Vitek ilə görüşüb.**

Bu barədə Adalet.az-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Azərbaycanın parlament rəhbərini səmimiyyətlə salamlayan Elzbieta Vitek ölkələr və qanunverici orqanlarımız arasında münasibətlərdən razılığını ifadə edib. O, Milli Məclis sədrinin bu səfərinin parlamentlər arasında əlaqələrin dərinləşməsinə töhfə verəcəyinə inamını ifadə edib.

Seymin sədri parlament diplomatiyasının beynəlxalq münasibətlərdə mühüm rolunu qeyd edərək, bu mənada qanunvericilik orqanları arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Elzbieta Vitek Azərbaycanın Polşa üçün dost ölkə olduğunu, müxtəlif sahələrdə əməkdaşlığın genişləndiyini bildirib. O, xalqlarımız arasında əlaqələrin yaxşı səviyyədə olduğunu, onları yaxınlaşdıran bir çox məqamların olduğunu söyləyib.

Polşa Seyminin sədri, həmçinin, ölkəsində mövcud olan vəziyyət, inkişaf göstəriciləri, multikultural mühit barədə də məlumat verib.

Səfərə dəvətə və göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Milli Məclisin sədri qeyd edib ki, ölkələrimiz arasında əlaqələr yüksək səviyyədədir. Bu da ikitərəfli əməkdaşlığın bütün sahələrdə daha da inkişafına imkan verir. Sahibə Qafarova xatırladıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin Polşaya, Polşa Respublikası dövlət başçılarının Azərbaycana səfərləri ölkələrimiz arasındakı əlaqələrin inkişafı baxımından xüsusi əhəmiyyətə malikdir.

Görüşdə regionda mövcud olan vəziyyət barədə məlumat verən Milli Məclisin sədri, 2020-ci ildə Azərbaycanın öz ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın davam edən işğalına son qoyduğunu, 44 günlük Vətən müharibəsində tarixi zəfər əldə edərək, öz ərazi bütövlüyünü bərpa etdiyini, ölkəmizin BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinin icrasını özü təmin etdiyini xatırladıb. Spikerin sözlərinə görə, bu gün Ermənistanla Azərbaycan arasında münaqişə artıq mövcud deyil və tarixin səhifələrində qalıb. Bu mənada, Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını şübhə altına alan hərəkət və bəyanatlar qəbuledilməzdir.

İşğal dövründə Ermənistanın bütün kənd və şəhərlərimizi tamamilə dağıtdığını, tarixi, mədəni və dini abidələrimizi vandalizmə məruz qoyduğunu, məscidlərimizin, müqəddəs ocaqlarımızın ermənilər tərəfindən təhqir olunduğunu söyləyən Milli Məclisin sədri bildirib ki, həmin ərazilərdə etnik təmizləmə siyasəti aparılıb, bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkünə çevrilib.

Sahibə Qafarova vurğulayıb ki, torpaqlarımız işğaldan azad olunduqdan dərhal sonra Azərbaycan öz vəsaiti hesabına həmin ərazilərdə genişmiqyaslı quruculuq işlərinə start verib. Hazırda işğal dövründə dağıdılmış bütün infrastruktur yenidən bərpa olunur, "yaşıl enerji" zonası elan edilmiş Qarabağ və Şərqi Zəngəzurda yeni şəhərlər və kəndlər inşa edilir. Artıq ötən ildən etibarən keçmiş məcburi köçkünlərin öz evlərinə geri qaytarılmasına başlanıb. Spikerin sözlərinə görə, həyata keçirilən işlərə ən böyük maneə işğaldan azad edilmiş torpaqlarda Ermənistan tərəfindən basdırılmış çoxsaylı minalardır. 10 noyabr 2020-ci il tarixindən etibarən, mina partlayışları nəticəsində 300-ə yaxın mülki şəxs və hərbçi həlak olub və yaralanıb.



Milli Məclisin sədri vurğulayıb ki, Azərbaycan Ermənistanla sərhədlərin müəyyən edilməsi və münasibətlərin normallaşması üzrə 5 prinsipdən ibarət təklif verib: "Biz gələcəyə baxmaq, sülh əldə etmək, normal qonşuluq münasibətləri yaratmaq istəyirik. Təəssüf ki, hələ də Ermənistan tərəfindən öhdəliklərinin pozulmasını, sərhəddə və Azərbaycanın suveren ərazilərində təxribatların, beynəlxalq ictimaiyyəti yalan məlumatlarla aldatmaq cəhdlərinin şahidi oluruq. Ermənistan anlamalıdır ki, öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməli, konstruktiv yanaşma nümayiş etdirməli və qeyd olunan prinsiplər əsasında münasibətlərin normallaşmasına getməlidir. Bu, regionda real sülhə və sabitliyə nail olmağın yeganə yoludur".

Ötən il Azərbaycanla Polşa arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğunu xatırladan Milli Məclisin sədri deyib ki, xalqlar arasında dostluq və əməkdaşlıq ənənələrinin tarixi isə daha genişdir: "Azərbaycanın Polşa ilə əlaqələri həm ikitərəfli qaydada, həm də Avropa İttifaqı çərçivəsində inkişaf edir. Aİ ilə əməkdaşlıq Azərbaycanın xarici siyasətinin prioritetlərindən biridir və Azərbaycan Avropa üçün etibarlı tərəfdaşdır".

Bu səfərin onun Milli Məclisin sədri kimi Polşaya ilk rəsmi səfəri olduğunu xatırladan spiker Sahibə Qafarova ümidvar olduğunu bildirib ki, bu səfər iki parlament arasında olan münasibətlərə daha bir təkan olacaq: "Ölkələr arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələr xüsusi əhəmiyyətə malikdir. İki dost və tərəfdaş ölkənin parlamentləri olaraq, beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığın və birgə fəaliyyətin gücləndirilməsi üçün yaxşı imkanlar mövcuddur. Dostluq qruplarının fəaliyyəti parlamentlərarası əlaqələrin inkişafında mühümdür və onlar müntəzəm təmaslarla, dialoqlarla parlamentlər arasında körpü rolunu oynayırlar".

Sahibə Qafarova görüşdə həmçinin, Azərbaycanda mövcud olan multikulturalizm mühiti, məscidlərlə yanaşı, kilsə və sinaqoqların mövcudluğu, onlara dövlət tərəfindən yaradılan şərait barədə məlumat verib. Spiker ölkəmizdə gender siyasəti barədə də danışıb. O, deyib ki, Azərbaycan müsəlman Şərqində qadınlara seçki hüququ verən ilk ölkədir.

**Görüşdə qarşılıqlı maraq kəsb edən digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.**

**Nicat Novruzoğlu**

## Anar Ələkbərov Çin XİN başçısının müavini ilə görüşdü

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Çin Xalq Respublikasının (ÇXR) xarici işlər nazirinin müavini Ma Caosyü ilə görüşüb.**

Adalet.az xəbər verir ki, Caosyü təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan-Çin əlaqələrinin hazırda hər iki dövlət başçıları sayəsində bütün sahələrdə inkişaf etdiyini, strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib. O, Azərbayan və Çin dövlət başçılarının Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin son sammiti çərçivəsində görüşünün gələcək əməkdaşlıq perspektivlərinin müəyyənləşməsi baxımından əhəmiyyətinə toxunub. İki ölkə arasındakı münasibətlərin genişlənməsində Heydər Əliyev Fondunun Çində həyata keçirdiyi humanitar və mədəni layihələrin, həmçinin Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasındakı əməkdaşlığın və hər iki ölkə səfirliklərinin fəaliyyətinin əhəmiyyəti vurğulanıb.



Azərbaycan nümayəndə heyətinin pandemiyadan sonra ÇXR-ə səfər edən ilk heyətlərdən olduğunu bildirən Ma Caösyü Azərbaycanın Çinin bütün təşəbbüslərinə daim müsbət reaksiya göstərdiyini, "Bir kəmər, bir yol" təşəbbüsünə verdiyi töhfələri qeyd edib.

O, əlaqələrin daha da genişlənməsi üçün bütün dövlət qurumları, qeyri-hökumət təşkilatları və özəl sektor arasında əlaqələrin qurulmasının əhəmiyyətindən danışıb. Nazir müavini ÇXR-in Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiyini diqqətə çatdıraraq ölkəmizə sülh arzulayıb.

Anar Ələkbərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Çin Xalq Respublikası ilə münasibətlərə hər zaman önəm və dəstək verdiyini, ikitərəfli əlaqələrin inkişafına çalışdığını bildirib.

Azərbaycanın turizm potensialı, işğaldan azad olunan ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri, o cümlədən digər bölgələrimizdəki layihələrdə Çin sərmayədarları və şirkətlər üçün imkanların mövcudluğu barədə məlumatlar verilib. Heydər Əliyev Fondunun Çində həyata keçirdiyi humanitar və mədəni layihələrin gələcəkdə də davam etdirəcəyini bildirən Anar Ələkbərov, dövlət qurumlarının da Çinlə əməkdaşlığa yüksək maraq göstərdiyini qeyd edib və Azərbaycan dövlətinin hər zaman "Vahid Çin" prinsipinə dəstək verdiyini vurğulayıb.

## Ərdoğan: "Bizi ittiham etməkdənsə, Qarabağda gördüyümüz işlərlə tanış olun"



**"Müxalifət bizi ittiham etməkdənsə, Qarabağda gördüyümüz işlərlə tanış olsun".**

Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Afyonkarahisardakı çıxışında deyib.

Onun sözlərinə görə, Türkiyə son 21 ildəki təşəbbüsləri nəticəsində əsrlik xəyallarını gerçəkləşdirə bilib: "Müxalifətin iddialarından fərqli olaraq, Türkiyə iqtisadiyyatını sabit saxlamaq üçün kimsədən borc almayıb".

Ərdoğan bildirib ki, rəsmi Ankara həmişə imperializmə qarşı mübarizə aparıb: "Biz bunu Suriya və İraqda keçirdiyimiz əməliyyatlarda, 15 iyul çevriliş cəhdində göstərdik. Biz regionumuzda sabitliyi qorumağa çalışmaqla imperialistlərin xəyallarını puç etdik. Suverenliyimizə göz dikən imperialistlər artıq peşman olublar".

Türkiyə Prezidenti vurğulayıb ki, indi Türkiyənin müdafiə sənayesinin 80 faizi yerli istehsaldır: "Biz hakimiyyətə gələnədək bu göstərici 20 faiz idi. İndi bizim pilotsuz uçuş aparatlarımız, "Qızıl alma"mız "TCG Anadolu"muz var".

Dövlət başçısı qeyd edib ki, Türkiyə həmişə məzlumların yanında olub: "BMT kürsüsündə, "Dünya 5-dən böyükdür" (BMT Təhlükəsizlik Şurasının üzvü olan beş ölkə - ABŞ, Böyük Britaniya, Çin, Fransa və Rusiya), deyən biz olmuşuq. Müxalifət iqtidarı ittiham etməzdən əvvəl Qarabağda gördüyü işlərlə tanış olmalıdır. Biz hanısa imperialistin qarşısında diz çökmərik".

Ərdoğan söyləyib ki, Türkiyənin ən böyük problemi hakimiyyəti inşa yox, dağıtmaq vədləri ilə gəlmək istəyənlərdir: "Halbuki biz hakimiyyətimiz dövründə bu ölkədə hansı işləri görməyin mümkün olduğunu əsərlərimizlə göstərdik".

# Erməni politoloq: "Qalib dövlətlər bayraq yandırmır, bu, çarəsizliyin addımıdır"

**Açıqlamalarının bir çoxunda "Ermənistanın siyasəti dilənçi siyasətidir, buna görə də məhvə məhkumuq" deyən erməni politoloq Yervand Bozoyan İrəvanda keçirilən ağır atletika üzrə Avropa Çempionatının açılış mərasimində Azərbaycanın Dövlət bayrağını yandırdıqdan sonra "populyar" olan təxribatçı dizayner Aram Nikolyanın hərəkətlərinə də münasibət bildirib.**

Adalet.az xəbər verir ki, Bozoyan "Hraparak" nəşrinin suallarına cavab verib.

Müxbirin "Cəmiyyət iki əks qrupa bölünüb: bir hissə Nikolyanın addımının ləyaqətli və məqsədəuyğun addım olduğunu iddia edir, bəziləri onu hətta qəhrəmana çevirir, digər hissəsi isə hesab edir ki, stilist Ermənistanı beynəlxalq ictimaiyyət qarşısında nüfuzdan salıb. Erməni olaraq öz xalqına və dövlətinə ziyan vurdu" sualına politoloq uzaqdan başlayıb: Dünyada, ümumiyyətlə, düşmənə uduzmuş ölkələr bayraq yandırır. Məsələn, ərəblər ABŞ və İsrailin bayrağını, Türkiyədə ABŞ-ın bayrağını, İranda gah ABŞ, gah da İsrail bayrağını yandırırlar. Ukrayna və Gürcüstanda da Rusiya bayrağı yandırılır. Biz ənənəvi olaraq aprelin 23-də Türkiyə bayrağını yandırırıq. Bayrağı yandırmaq o deməkdir ki, onu yandıran rəqibindən qisas ala bilmir və bayrağını yandırmaqla təsəlli tapır. Xatırlayırsınızsa, 2020-ci ildən əvvəl Bakıda da Ermənistan bayrağı yandırılmışdı. Onlar ona görə yanırdılar ki, Azərbaycan məğlub olan tərəf, Ermənistan qalib tərəfdir. Nikol Paşinyan beş il ərzində qalib gələn xalqı məğlublara çevirdi. Belə çıxır ki, erməni xalqı itirdiklərini geri qaytara bilmir və əsəbi halda belə addımlara əl atır.



Son günlərdə itkilərimiz, yaralılarımız oldu. Azərbaycan Ermənistanı qarğıdalı kimi gəmirir. Belə bir şəraitdə Ermənistan bu cür tədbirlər təşkil edəndə, Azərbaycan nümayəndələrini Ermənistana gətirəndə ictimai qəzəb yaranır. Təbii ki, bu hadisələr beynəlxalq platformalarda qəbuledilməzdir, lakin hakimiyyət günahkardır, çünki əslində baş verənləri dərk etmək istəmirlər. Ermənistanda bugünkü reallığa məhəl qoymamaq özünü aldatmaqdır. Xalqımız əvvəldən hər cür aldadılıb. Əvvəlcə dedilər ki, 2018-ci ildə sülh və tolerantlıq inqilabı baş verdi, amma əslində parçalanma və məhvetmə inqilabı oldu. Bu insanlar fırtına ilə qələbə qazanacaqlarını elan etdilər, lakin əldə etdikləri bütün qələbələri puç etdilər. Bizə sülh vəd olunur, amma sülh əvəzinə müharibə görürük" deyə sualı cavablandırıb.

"Aram Nikolyanın bu addımını necə qiymətləndirərdiniz?" sualına isə politoloq "Aram Nikolyanın addımı çarəsizlik addımı idi. Təbii ki, qəzəbin bu cür təzahürləri cəsarət sayılmamalıdır, bu, ümidsizliyin nəticəsi olduğu üçün faciədir. Güclü dövlətlər bayraq yandırmaz. Məsələn, ABŞ və Rusiyada heç vaxt bayraq yandırmayıblar. Biz bu iqtidarları tarixin zibilliyinə göndərməliyik ki, güclü dövlətimiz formalaşsın " -deyə bu sualı da belə cavablandırıb.

**Qeyd edək ki, 44 günlük müharibədə Ermənistanın məğlubiyyətindən sonra bunu Paşinyan hakimiyyətinin ayağına yazanlardandır. Bu səbəbdən hər əlinə fürsət düşdükdə hakimiyyəti ittiham etməkdən çəkinmir.**

**Əntiqə Rəşid**

## Bayden rus gəmilərini daha bir il limanlarına buraxmayacaq



**Ağ Evdən bildirilir ki, prezident Co Bayden Rusiya gəmilərinin amerikan limanlarına girişini qadağan edən qərarının müddətini daha bir il uzatdı.**

"Fövqəladə vəziyyət Qanunun 202D maddəsinə əsasən Rusiya Fedarasiyasına qarşı fövqqəladə vəziyyəti daha bir il müddətinə uzatdım. Rusiya gəmilərinin ABŞ limanlarına qəbul edilməsini qadağan edən fərmanın müddəti bir il də uzadıldı"- deyə amerikan lideri bəyan edib.

Qeyd olunur ki, bu qərar Rusiyanın Ukraynaya hücumlarının hələ də davam etməsi ilə bağlıdır.

Bununla yanaşı ABŞ-ın müdafiə naziri Lloyd Ostin bildirib ki, Vaşinqton Moskva ilə müharibə aparmır və gələcəkdə də aparmaq niyyətində deyil. Ukrayna hərbi qüvvələrinin əks hücum planlarının baş tutmaması sualını cavablandırmaqdan yayınan müdafiə naziri qeyd edib ki, "ABŞ əmin olmaq istəyir ki, Ukrayna hərbi qüvvələri nailiyyət əldə edəcəkdir"...

Lap o məsəldə deyildiyi kimi, "Şeytan oğlu ilə çay kənarı ilə gedirlər, şeytanın oğlu baxır ki, bir eşşək çayın ortasıda dayanıb, sahibi də "lənət şeytana" deyib nə qədər eşşəyi şallaqlasa da, eşşək yerindən tərpənmir. Şeytanın oğlu atasına: "Ata bax biz sakircə çayın kənarı ilə gedirik, bizim nə günahımız var ki, o kişi bizə lənət oxuyur." Şeytan oğluna deyir ki: "Oğul sakitcə çayın kənarı ilə getməyimizə baxma, barmağım eşşəyin dalındadı, ona görə tərpənmir".

**İndi ABŞ yaxasını kənara çəkməklə deyil. Bütün dünya bilir ki, Vaşinqtonun barmağı kimin dalındadı. Nə qədər ki, Sem dayı barmağını geri çəkməyəcək, Rusiya-Ukrayna müharibəsi də uzun müddət davam edəcək.**

**Rüstəm Hacıyev**

## G7 Rusiyanı yalan məlumatlar yaymaqda günahlandırır




**"Böyük yeddilik" (G7) ölkələrinin xarici işlər nazirlərinin görüş iştirakçıları, Rusiyanı Ukraynada apardığı müharibədə "hərəkətlərinin dəstəklənməsi ilə bağlı" yalan məlumatlar yaymaqda günahlandırıblar.**

Görüşün yekunları ilə bağlı hazırlanan sənəddə, G7 ölkələri, "demokratik prosseslərə və cəmiyyəti aldatmağa yönəlmiş" dezinformasiyaların yayılmasından narahatlıq keçirdikləri bildirilir.

Ölkələr, həmçinin Kiyevi ehtiyacı olduğu qədər, o cümlədən təhlükəsizliyi və iqtisadiyyatı da daxil olmaqla dəstəkləməyə davam edəcəklərini bəyan ediblər. Bundan başqa G7 klubuna daxil olan ölkələr Ukrayna prezidenti Volodimir Zelenskinin sülh planını bəyəndiklərini və eyni zamanda Rusiyanın nüvə ritorikasını tənqid etdiklərini bildiriblər. Bununla bağlı G7 ölkələri Moskvanı nüvə müharibəsindən çəkinməyi tələb ediblər.

# ABŞ konqresmenlərinin "aprel" səgüzəştləri: Saxta "erməni soyqırımı" ilə bağlı biabırçı layihə...

**Ermənilərin xeyrini güdən, erməni lobbisinin maliyələşdirdiyi amerikalı konqresmenlər missiyalarını yerinə yetirmək üçün hər zaman fəal olublar. Amma aprel ayı başlayan ilk gündən onların fəallığı birə beş yüksəlir.**

Adalet.az xəbər verir ki, 24 aprel ərəfəsində dünya erməniləri yenidən beynəlxalq ictimaiyyətin diqqətini qondarma "erməni soyqırımı"na yönəltməyə çalışırlar və bu işdə ermənipərəst amerikalı konqresmenlərin köməyindən istifadə edirlər . Beləki, qondarma erməni soyqırımının ildönümü ərəfəsində ABŞ Nümayəndələr Palatasının bir qrup ermənipərəst üzvü uydurma və yalandan ibarət olan "erməni soyqırımı"nı dərsliklərə salınması üçün birləşib. Erməni mediası yazır: "Erməni soyqırımı" haqqında Təhsil Aktının tətbiqi ABŞ Konqresinin və Prezident tərəfindən bu hadisənin rəsmi tanınmasına əsaslanır. Konqres Kitabxanasının "erməni soyqırımının tarixi, dərsləri, nəticələri və təzminatı haqqında təhsil proqramlarını maliyyələşdirmək fikrindədir.

"Erməni Soyqırımı Təhsil Aktına" təşəbbüsünün müəllifləri konqresmenlər Anna Eşu, David Valadao, Ted Lyu və Qus Bilirakisdir". Erməni mediası Amerika Erməni Milli Komitəsinin (ANCA) bu təşəbbüsü dəstəklədiyini yazır: ANCA tərəfindən güclü şəkildə dəstəklənən bu əlamətdar qanunvericilik, amerikalıları Osmanlı Türkiyəsinin sistematik və qəsdən dövlət tərəfindən dəstəklənən kütləvi qətliamları, milli mülklərindən məhrum edilməsi, mədəni silinməsi və milyonlarla insanın 1915-1923-cü illər arasında ermənilər, yunanlar, assuriyalılar, xaldeylilər, suriyalılar, aramilər, maronitlər və digər xristianların sürgün edilməsi haqqında maarifləndirmək üçün Konqres Kitabxanasına beş il ərzində 10 milyon dollar vəsait ayırmağa çalışır".



Qeyd edək ki, hələ 2014-cü ildə ABŞ-ın Kaliforniya ştatının parlamentinin təhsil komitəsi "erməni soyqırımı"nı təhsil proqramına daxil etmək haqqındakı qanun layihəsini yekdilliklə qəbul edib.

Kaliforniya Əyalət Məclisi üzvü Adri Nazaryan tərəfindən irəli sürülən "AB 659" adlı qanun layihəsi uzun müzakirələrdən sonra qüvvəyə minib. Qanuna görə, tədris proqramlarında qondarma genosid barədə məsələlərə yer ayrılıb. Ermənilər məhz bu uğurdan sonra digər ştatlarda da bu tip layihələrlə konqresmenləri ələ alaraq arzularına çatmağı hədəfləyirlər.

***P.S.* ABŞ dövləti ümumilikdə 50 ştatın hamısında qondarma "erməni soyqırımı" rəsmən tanındığı üçün "təhsil aktının da tanınacağına şübhəmiz yoxdu.**

**Ə. Rəşid**

## ABŞ Quterreşin telefonunu dinləyirmiş

**BMT təşkilatın baş katibi Antonio Quterreşin telefonlarının dinlənilməsi ilə bağlı ABŞ-a rəsmi narahatlığını bildirib.**



Adalet.az xəbər verir ki, bunu BMT baş katibinin rəsmi nümayəndəsi Stefan Düjarrik deyib.

"Biz baş katib və digər yüksək vəzifəli BMT rəsmilərinin danışıqlarının ABŞ hakimiyyəti tərəfindən dinlənilməsi ilə bağlı son xəbərlər barədə rəsmi şəkildə narahatlığımızı bildirdik", - BMT rəsmisi deyib.

"Biz açıq şəkildə bildirdik ki, bu cür hərəkətlər Birləşmiş Ştatların BMT Nizamnaməsində və BMT-nin İmtiyaz və İmmunitetləri haqqında Konvensiyasında qeyd olunan öhdəliklərinə uyğun gəlmir", - Baş katibin nümayəndəsi vurğulayıb.

## Fransa və Polşa arasında fikir ayrılığı yaranıb

**Politico mətbu orqanının məlumatına görə, Avropa İttifaqının Ukraynaya silah-sursat alınması ilə bağlı danışıqları zamanı Fransa və Polşa arasında fikir ayrılığı yaranıb.**



İki dövlət arasında yaranan mübahisə, Fransanın müqavilələrin yalnız Avropa İttifaqına daxil olan şirkətlərlə bağlanması təklifindən sonra tutduğu mövqedən yaranıb. Polşa tərəfi bu təklifi bəyənməyib və bildirib ki, silah-sursat eyni zamanda ABŞ və Böyük Britaniya şirkətlərindən də alınmalıdır. Qəzetin yazdığına görə, fransalı səfir polşalı həmkarının Fransanı yekun qərar qəbul edilməsinə açıq şəkildə əngəl törətməkdə günahlandırmasına görə ittiham edib. Ona cavab olaraq polşalı diplomat qeyd edib ki, Fransanın tutduğu mövqe danışıqlara maneçilik törədir.

Politiconun məlumatlarına görə, İsveç tərəfi mübahisəyə son qoymaq üçün təklif edib ki, "müqavilələr Norveç və ittifaq tərəfindən yaradılmış iqtisadi operatorlarla bağlanması ilə bağlı yenilənmiş razılaşmanın mətni əsasında həyata keçirilsin".

Xatırladırıq ki, ötən ay Avropa İttifaqına üzv dövlətlərin liderləri, Ukraynaya silah göndərilməsi vədlərini təsduq ediblər. Kiyevə, "yer-yer"raketləri, arteleriya mərmiləri və ehtiyac olarsa əlavə başqa raketlər də göndəriləcək.

**Rüstəm Hacıyev**

# Ermənilərin «Razdan» adlandırdığı Zəngi çay fəlakət durumda

**Ermənistan bölgədə sözün həqiqi mənasında hər zaman təhlükə mənbəyi olub.**

Adalet.az xəbər verir ki, erməni biologiya elmləri doktoru Samvel Pipoyan sosial şəbəkə hesabındakı paylaşımı erməni seqmentində ən çox müzakirə edilən mövzulardan biri olub. Beləki, Pipoyan paylaşıma əlavə etdiyi fotolarda Hrazdan çayının çirklənməsi ilə bağlı xəbərdarlıq edib. "Razdan (bəzən Hrazdan adından da istifadə edirlər) çayı bu gün...

Bu yerdən İrəvan gölünə qədər olan məsafə təxminən 800 metrdir. Çayın üzərinə qoyulan zibilyığanlara baxmayaraq, plastik çirklənmə yüksək səviyyədə qalmaqda davam edir... Daha ciddi bir şey düşünmək lazımdır...".

Məlumat üçün bildirək ki, ermənilərin Razdan dediyi çayın adı əvvəllər- yəni ermənilər Qafqaza köçməmişdən əvvəl də və burda dövlət qurana qədər də Zəngi çayı adlanıb.Azərbaycan Sovet Ensiklopediyasının (VIII cild, Bakı, 1984-cü il, səh. 75) məlumatlarına görə , "Təxti-Süleyman"dan əvvəl Zəngi çayına Çıldırçay deyilib. Qızıl Arslanın dövründə "İrəvan Çuxuruna" vassal təyin edilən Zəngi ibn Mədud Zəngi adını bu çaya verib özünü əbədiləşdirməyə nail olub.





Bəzi tədqiqatçıların gəldikləri qənaətə görə, Zəngi çayı başlanğıcını dəniz səviyyəsindən hündürlükdə yerləşən və qədim adı türk mənşəli "Çıldır" olan Göyçə gölündən götürüb aşağı axdıqca zəng səsi çıxarır. Elə bu çılğınlığına görə də ona "zəng" adı verilib. Deyilənə görə, bu çay Ağrı dağı düzənliyindəki yatağından çıxaraq aşıb-daşır, ətraf düzənliyi su basır.

Zəngibasar adının isə bununla bağlı olduğunu güman etmək olar. Tarixi mənbələrə görə, bu çay Ağrı dağı düzənliyindəki yatağından çıxaraq aşıb-daşır, ətraf düzənliyi su basır. Zəngibasar adının isə bununla bağlı olduğunu güman etmək olar. Zəngi çayının balıq sərvəti çox olub. Çaydakı ala balıq isə bu sərvətin tacı sayılırdı. İngilis yazıçısı Ceyms Moriyer yazırdı ki, bu balıq Xəzər dənizindən gətirilən qızıl balığa bərabər tutulur. Göründüyü kimi, çayın sərvəti elə bu torpağın sərvəti qədər zəngindir. Zəngi çayından xüsusi kanallar vasitəsilə Zəngibasar bölgəsinin Zəhmət, Qaraqışlaq, Dəmirçilər, Rəhimabad, Mehmandar, Çobankərə, Ağca Qışlaq, Hacıelyas, Aşağı və Yuxarı Nəcili, Zəngilər, Şollu, Dəmirçi və Sarvanlar kəndlərinin əkin sahələri su ilə təmin olunurdu.

**Əntiqə Rəşid**

## Hökm oxundu



**Bakı Ağır Cinayətlər Məhkəməsində tanışını qətlə yetirməkdə təqsirləndirilən Sahil Məmmədovun işi üzrə məhkəmə prosesi başa çatıb.**

Hakim Leyla Əsgərova ən sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsə hökm oxunub. Məhkəmənin hökmü ilə o, 16 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, hadisə ötən ilin iyulunda paytaxtın Suraxanı rayonunda qeydə alınıb. İttihama görə, 1978-ci il təvəllüdlü Sahil Məmmədov şəxsi münasibətlər zəminində aralarında yaranmış münaqişə zamanı bıçaqla çoxsaylı xəsarətlər yetirərək 1985-ci il təvəllüdlü Aynurə Əliyarovanı qətlə yetirib.

S.Məmmədova qarşı Cinayət Məcəlləsinin 120.2.4-cü (qəsdən adam öldürmə, xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla adam öldürmə) maddəsi ilə ittiham irəli sürülüb.

# AĞ SAÇLARIN İŞIĞI...

## Böyük ziyalı, böyük alim, böyük insan professor Firudin Hüseynovun xatirəsinə!

**... O, müəllim xoşbəxt insandır ki, həmişə tələbələrinin, şagirdlərinin yadında qalır. Əgər o müəllim tələbələrinin, şagirdlərinin yadında qalırsa, deməli, o, həm də Peyğəmbər kimi insandır. Düzdür, Peyğəmbəri Allah seçir, amma bizə dərs deyən, universitet müəllimlərini Allah çox istəyib. Ən azından ona görə ki, bu böyük Allah həmin ziyalılara nur bəxş edib, haqq-ədaləti qorumağı və sevməyi əxz eləyib...**

Bizə dərs demiş müəllimlər sözün həqiqi mənasında Peyğəmbər kimi insan olublar: Mir Cəlal Paşayev, Nəsir İmanquliyev, Şirməmməd Hüseynov, Şamil Qurbanov, Bəxtiyar Vahabzadə, Qulu Xəlilov, Firudin Hüseynov, Tofiq Hacıyev, Famil Mehdi, Fərhad Zeynalov, Nurəddin Babayev, Nəriman Zeynalov, Tofiq Rüstəmov, Əliş Nəbili, Cahangir Məmmədli, Kamil Vəliyev, Akif Rüstəmov... və digər böyük ziyalılar Peyğəmbər kimi insanlar idi. Biz onlardan həmişə sevgi görmüşdük, məhəbbət görmüşdük və ən nəhayət bilmədiyimiz, oxumadığımız nəsihətləri və elmi öyrənmişdik. Onlar sadəcə alim deyildilər, müəllim deyildilər, onlar həm də Allahın seçdiyi və sevdiyi ziyalılar idi. Və bu ziyalılardan Ulu Yaradan heç nəyi əsirgəməmişdi; onlara elmlə yanaşı vicdan, ədalət, yetimə-yesirə mərhəmət və eyni zamanda hər ziyalıda olmayan gözəlliklər bəxş eləmişdi.

Biz adını və soyadını çəkdiyimiz respublikamızın böyük ziyalılarının hər biri haqqında saatlarla danışarıq, amma yenə yorulmarıq. Çünki onlar bizə oxumağı, öyrənməyi və cəmiyyətdə insan kimi formalaşmağı öyrətdilər və onlar bizə həm də haqq-ədaləti, düz yolu və Allahın yolunu göstərdilər. Göstərdilər ki, heç vaxt haqqı nahaqqa verməyin və dedilər ki, dünyada insanı yaşadan onun var-dövləti deyil, elmi, mədəniyyəti, əxlaqı və vətənpərvərliyidir. Bu ideyaları o müəllimlərimiz hər mühazirələrində dönə-dönə xatırladırdı...

Həmin ideyaları bizə xatırladan və bizə Vətən sevgisi, haqq-ədalət duyğularını aşılayan müəllimlərimizdən biri də professor Firudin Hüseynov idi. Onun ağ saçları və nurlu çöhrəsi bu gün də yadımızdan çıxmır. Bu adam insandan çox Peyğəmbərə, mələyə bənzəyirdi. O, nəinki tələbəni incidər, hər bir tələbəni balası qədər, əzizi qədər və hətta biz deyərdik ki, nəvəsi qədər çox istəyərdi. Biz ona da inanırıq ki, Firudin müəllim bir qarışqanı belə tapdamazdı. Çünki onun çöhrəsindəki o nur, o işıq həm də ürəyində var idi və həmişə də çalışırdı ki, bu nuru, bu işığı tələbələrinə paylasın...

...İndiyə qədər yaxşı yadımızdadır, Azərbaycan Dövlət Universitetinin birinci kursunda olanda yanvar ayında ilk semestr imtahanı idi. Onda da biz "Ədəbiyyatşünaslığın əsasları" fənnindən imtahan verirdik. İmtahan Mir Cəlal Paşayevin kafedra müdiri olduğu otaqda keçirilirdi. Hamımız da yaxşı bilirdik ki, Mir Cəlal müəllim "tələbə kəsən" ziyalı deyil. İmtahan başladı və gördük ki, Mir Cəlal müəllimin yanında ağ saçlı, nurani çöhrəli bir müəllim də əyləşib. Bu professor Firudin Hüseynov idi. Bayırda qar yağırdı və möhkəm də soyuq idi. Amma Mir Cəlal müəllimin kafedrası çox isti idi. Bu istilik həm Mir Cəlal müəllimdən, həm də Firudin müəllimdən gəlirdi. Bileti çəkdik və fikirləşmədən danışmaq istədiyimizi bildirdik. Amma Mir Cəlal müəllim bununla razılaşmadı. Dedi ki, əyləşib fikirləşin, sonra gəlib danışarsınız. Beş dəqiqədən sonra Firudin müəllim bizi cavab verməyə çağırdı. Cavablarımız həm Mir Cəlal müəllimin, həm də Firudin müəllimin çox xoşuna gəldi. Və üstəlik də Firudin müəllim dedi ki, bunların çox gözəl məntiqi təfəkkürü və yaxşı nitqi var. Ona görə də, sizə "əla" qiymət yazırıq. Qiymət kitabçamıza ilk dəfə "əla" qiyməti Firudin müəllimin təklifilə Mir Cəlal müəllim yazdı və bizi də təbrik elədi və dedi ki, çalışın, o biri imtahanlardan da yüksək qiymət alıb, əlaçı çıxın! Biz də o biri imtahanlardan da yüksək qiymət aldıq və əlaçı olduq!

Sözümüzün canı odur ki, Firudin müəllimi bax ilk dəfə Mir Cəlal müəllimin assenti kimi tanıdıq. Amma sonra-



dan gördük ki, Firudin müləlim də çox böyük alim, çox böyük ziyalı və çox böyük insandı. Onun çoxlu sayda elmi məqalələrini, kitablarını və mühazirələrini oxuyub, dinlədik. İnanın, hər mühazirədə həmişə qeyri-adi fikirlər səsləndirir və bal kimi söhbətlər edirdi. 90 dəqiqənin necə gəlib keçdiyini hiss eləmirdik. Amma universitetdə elə müəllimlər var idi ki, 10 dəqiqə dərs keçən kimi bezirdik və mühazirəsinə qulaq asa bilmirdik. Çünki mühazirələri şablon, cansıxıcı və quru idi. Üstəlik də imtahanda tələbələri incidirdilər. Ancaq indi onların heç biri yadımızda qalmayıb. Yadımızda qalan yuxarıda adını çəkdiyimiz müəllimlər və professorlardır...

Filologiya fakültəsində dekan olmaq və orada sağlam mühit yaratmaq elə də asan deyildi. Ancaq Firudin Hüsyenov dekan seçiləndən sonra fakültədə elə bir mühit yaratmışdı ki, bundan nəinki tələbələr, həm də müəllimlər çox razı idi. Çünki o, böyük alim heç vaxt haqqı nahaqqa vermirdi. Nə tələbənin haqqını müəllimə, nə də müəllimin haqqını tələbəyə verərdi. Çünki hər hansı bir məsələ, narazılıq olanda onu axıra qədər araşdırar, dəqiqləşdirər və bundan sonra qərar qəbul edərdi. O vaxt da yaltaqlar olub, necə ki, indi var, amma onların heç birisi Firudin müəllimə yaxın dura bilməzdi. Ən azından ona görə ki, Firudin Hüseynov bütün müəllimləri və hətta labornatları belə beş barmağı kimi tanıyırdı. Və onu heç kim aldada bilməzdi!...

Bu böyük ziyalının tələbələrlə, xüsusilə də istedadlı, savadlı tələbərlə bir dostluğu da vardı və həmişə də görüşəndə deyərdi ki, savadlı tələbə, istedadlı tələbə mənə balam qədər əzizdir və gözümün işığıdır. Siz təsəvvür edirsiniz, bu fikirləri demək üçün insanda nə qədər böyük ürək, böyük qəlb və böyük sevgi olmalıdır. Bizim yadımızda qalan Firudin müəlimin Mir Cəlal müəllimə bənzər xasiyyətləri var idi. Bu da onunla bağlı idi ki, o, ömrünün müəyyən hissəsini Mir Cəlal müəllimin yanında keçirmiş, onunla bir yerdə işləmiş və onun gözəl, nəcib xüsusiyyətlərini mənimsəmişdir. Və o da Mir Cəlal müəllim kimi çox sadə, çox səmimi və çox da təvazökar bir ziyalı idi. Hətta dekan olanda belə heç dəyişmədi. Biz onu əvvəllər necə görmüşdüksə, elə də qaldı, əksinə bir qədər də sadə oldu, bir qədər də səmimiyyəti artdı və bizim yadımızda Firudin Hüseynov nurlu bir ziyalı kimi qalıb. Onun ağ saçları, çöhrəsindəki nur və işıq heç vaxt yadımızdan çıxmır.

Bizim qardaşlarımızdan biri 80-ci illərdə Bakı Dövlət Universittinin hüquq fakültəsinə qəbul imtahanı verib. Onda da Azərbaycan dili-ədəbiyyat fənnindən komissiyanın sədri Firudin müəllim imiş. Müəllimlər ona "4" yazmaq istəyirmiş, qardaşmız da razı olmayıb. Bu vaxt Firudin müəllimi çağırıblar. O, gəlib abituriyenti axıra qədər dinləyib və müəllimlərə göstəriş verib ki, yetim uşaqdır, amma çox savadlıdır, ona görə də "5" yazın. Əgər qardaşımız o "beş"i almasaydı, hüquq fakültəsinə qəbul ola bilməzdi. Qardaşımız uzun müddət hüquq-mühafizə orqanlarında işlədi və Firudin müəllimin də bu yaxşılığını unutmadı, həmişə də deyirdi ki, mənim tanımadığım Firudin müəllim olmasaydı, hüquq fakültəsinə girməzdim.

Bizim fikrimizcə, Firudin Hüyseynov kimi böyük ziyalılar, böyük alimlər, böyük insanlar və professorlar heç vaxt ölmürlər. Çünki onlar həmişə sağdırlar, ona görə də gördünüz, yazımızın əvvəlindən sonuna qədər bir dəfə də "rəhmətlik" sözü işlətmədik. Bilirsiniz niyə? Ən azından ona görə ki, Firudin müəllim kimi böyük ziyalılar bu xalqın tarixində, elmində və qəlbində özlərinə əbədi bir iz qoyublar. Universiteti bitirmiş minlərlə tələbələri onrları daimi yaşadır. Kimsə bir hadisəni xatırlayırsa, onun yaxşılığını yada salırsa və böyük ürəyinin sevgisini dilə gətirirsə, deməli, belə insanlar həmişə millətin, xalqın içindədir. Yəni, onlar ölü dirilərdən daha diridirlər, daha sağdırlar və daha işıqlıdırlar! Bilmirik, Firudin müəllimin neçə övladı, neçə nəvəsi var, amma bir onu bilirik ki, bundan sonra da neçə il keçsə də, onun əzizləri çox qürurla deyə bilərlər ki, biz Firudin müəllimin övladları və nəvələriyik!

**Allahın sevdiyi və Allahın seçdiyi bu böyük ziyalılar gün işığı kimi həmişə insanların qəlbini, varlığını, ruhunu işıqlanrıdırıb və bundan sonra da işıqlanrdıracaq. Ağ saçların işığı və Firudin müəllimin çöhrəsinin nuru sanki bir Günəşə bənzəyir. O Günəş bayaq dediyimiz kimi həmişə bizi isindirəcək!..**

**FAİQ QİSMƏTOĞLU**
**SƏMƏNDƏR MƏMMƏDOV**

---

*Rasim Müzəffərli*

## Yarımçıq bardağa iki cür baxmaq olur



***Yəqin bilirsiniz, yarımçıq bardağa iki cür baxmaq olur: yarısı boş vəya yarısı dolu. Mənim üçün doğma Füzulimdə 76 kəndin olmamasındansa, 27 kəndin olması yaxşıdır. Üstəlik, həm dövlət hesabına, həm də müasir, daha gözəl, abad, səliqəli, rahat və s.***

***Digər tərəfdən, şükür, hələ dünyanın axırı deyil, 27 kəndin salınması ilə həyat dayanmayacaq ki! Bəlkə, 10 ildən sonra Füzulidə 77-ci kənd salınacaq. 30 il heçnəsizdik, indi 4-5 ilə 76 kəndin hamısının tez-tələsik salınmasını tələb etmək nə dərəcədə düzgündür?***

***Odur ki, lütfən, yığışdırın bu "ixtisar" anlayışını. Bunun harası ixtisardır?! Bu, böyük quruculuqdur! Son 200 il ərzində Qarabağın tarixi bu gün yazıldığı kimi heç vaxt yazılmayıb.***

***P.S.** **Necə də ərinməyib hələ bir "kəndlərin ixtisar cədvəli" düzəldənlər də varmış!***

---

## *İspaniya mətbuatı: "Rusiyanın müdafiə xətti 800 kilometrə çatdı..."*



**İspaniyanın aparıcı qəzetlərindən olan "El Pais" Rusiyanın Ukrayna sərhəddindəki müdafiə xəttinin 800 kilometrə çatdığını yazıb.**

Adalet.az xəbər verir ki, xəbərdə Rusiyanın yaydan bəri qurduğu müdafiə xəttinin şimal-şərqdəki Luqansk şəhərindən başladığı, Donetsk və Zaporojyadan keçərək Dnepr çayına qədər uzandığını bildirilir.

ABŞ-ın düşüncə mərkəzi "American Entrepreneurship Institute" tərəfindən paylaşılan məlumatlara görə, Rusiya ordusu müdafiə xəttinin inşası üçün ən az 2 min 580 nöqtədə fərqli işlər həyata keçirib.

Bura tikanlı məftillərlə əhatə olunmuş ərazilər, xəndəklər, bunkerlər, həmçinin tankların qarşısını almaq üçün tikilmiş əjdaha dişləri və mina zonaları daxildir.

Bildirilir ki, Rusiya ordusu bu müdafiə xəttini Ukraynanın başlaya biləcəyi genişmiqyaslı əks-hücuma hazırlıq məqsədilə qurur.

Ruslar tərəfindən qurulan müdafiə xəttinə yerləşdirilmiş əjdaha dişlərindən isə ilk dəfə İkinci Dünya Müharibəsində istifadə edilib. Dəmir-beton bloklardan hazırlanan bu konstruksiyalar tankların və mexanikləşdirilmiş piyada hissələrinin keçidini bağlayır.

---

## *"Qardaşımdan hələ də heç bir məlumat ala bilməmişik..."*



**"Qardaşıma görə çox naratıq. Bizə hələ ki, heç nə demirlər. Ermənistan isə qardaşıma cinayət işi açdı. Elə hamının bildiyiniz biz də bilirik. Ataanam əlaqədar qurumlara gedirlər və onlara da deyirlər ki, narahat olmayın, yaxşı olacaq"**

Bunu Adalet.az-a açıqlamasında Ermənistanda əsir düşən əsgər Hüseyn Axundovun qardaşı Böyükağa Axundov deyib. B.Axundov qardaşından bu günə kimi məlumat ala bilmədiklərini bildirib: "Ancaq xəbər gözləyirik. Müdafiə Nazirliyindən bir nəfər gəlib qapımızı açıb deməyib ki, bu uşaqlar itkin düşüb. Biz də nazirliyə gedəndə qəbul etmirlər. Beynəlxalq Qırmızı Xaç Komitəsindən isə bizə deyirlər ki, Ermənistandakı nümayəndəliyimiz bizə hələ ki, məlumat verməyib".

Qeyd edək ki, Ermənistan əsir düşən iki əsgərimiz-Hüseyn Axundova və Aqşin Bəbirova cinayət işi açıb.

**Vasif Əlihüseyn**

---

## *Asan xidmət, yoxsa zülüm xidmət?!*




**Asan xidmət yaradılanda, onun çox böyük üstünlüklərini gördük. İnsaf naminə deyək ki, bu xidmətin çox işıqlı və nümunəvi tərəfləri var və biz bunu alqışlayırıq.**

Ən azından ona görə ki, gün ərzində bu xidmətdən vaxt itirmədən yararlanan minlərlə insanlar var. Bunlar aydındır! Amma aydın olmayan budur ki, bu yaxınlarda bizim başımıza 4 saylı Asan xidmətdə bir çətinlik gəldi. Bu çətinlik də ondan ibarət oldu ki, biz mənzilimizə qeydiyyata düşmək istəyirdik. Anam II dərəcəli əlildir, mənim özümün də müəyyən sıxıntım var. Biz bir neçə gün əvvəl 4 saylı Asan xidmətə getdik. Dedilər ki, yox, gec gəlmisiniz, gərək səhər saat 9-da gəlib növbə tutasınız. Anamın ayaqları xəstədir və bu yaxınlarda insulit keçirib. İndi biz nə etməliydik?! Çox təəssüf ki, yenidən məcbur olub, ora getməliyik, amma hansı ki, dünyanın hər yerində əlillərə şərait yaradılır və onlara növbədənkənar xidmət göstərilir. Biz oradan çıxanda rəyi öyrənmək istəyən bir xanım soruşdu ki, bizdən razı qaldınız, ya yox? Biz də dedik ki, razı qalmadıq, bu Asan xidmət deyil, zülm xidmətdir. Anam evə gələndən sonra vəziyyəti ağırlaşdı və təcili tibbi yardım çağırdıq. Onların köməkliyi ilə anamın vəziyyəti yaxşılaşdı. Bax, Asan xidmət bizə belə bir zərbə vurdu!

---

## *Pomidorun qiyməti niyə enmir?*



**Ötən il bu vaxtlar Bakının bazarlarında pomidorun 1 kiloqramının qiyməti 3 manatdan artıq deyildi. Amma indi bütün bazarlarda adını çəkdiyimiz məhsulun qiymətinin bir kiloqramı beş-altı manatdan aşağı düşmür.**

Bunu da onunla izah edirlər ki, məhsulun böyük bir hissəsi Rusiya bazarlarına aparılır, üstəlik də pomidorun becərilməsi üçün lazımi gübrələr və digər dərmanlar çox bahadır. Yaxşı, gübrənin və dərmanların bahalaşmasını qəbul eləyirik. Dünyanın hər yerində daxili bazarı qoruyurlar, yəni birinci ölkənin öz ehtiyacı ödənilir, artıq qalan məhsul da xaricə aparılır, amma təəssüf ki, Dövlət Gömrük Komitəsi daxili bazarı qorumaq istəmir və nəticədə istehsal olunan pomidorun böyük bir hissəsi Rusiya bazarlarına göndərilir. Deyilənlərə görə, Rusiyaya ən çox pomidor göndərən ölkə bizimkidir. Belə də iş olar? Biz burada pomidoru qızıl qiymətinə alırıq, ruslar da bizim məhsulumuzu yeyib kef eləyirlər. Bunun qarşısını alan tapılacaq, ya yox?!

**EMİL FAİQOĞLU**

---

## *Nazirlik 4-cü siniflərdə monitorinq keçirəcək*



**İyunun 10-da Elm və Təhsil Nazirliyi ölkə üzrə bütün dövlət ümumi təhsil müəssisələrinin 4-cü siniflərində monitorinq təşkil edəcək.**

Nazirlikdən Adalet.az-a verilən məlumata görə, monitorinq tədris dili və riyaziyyat fənləri üzrə aparılacaq.

Şagird nailiyyətlərinin yaxşılaşdırılması, IV sinfin sonunda şagirdlərdə müvafiq standartlar üzrə bilik və bacarıqların hansı səviyyədə formalaşdığının müəyyən edilməsi və ibtidai təhsil səviyyəsində keyfiyyətin artırılması istiqamətində tədbirlərin görülməsi monitorinqin əsas məqsədlərindəndir.

Monitorinqdə şagirdlərə təqdim olunacaq tapşırıqlar tədris dili fənnindən oxu və dil qaydaları məzmun xətlərini, riyaziyyat fənnindən isə ədədlər və əməllər, cəbr və funksiyalar, həndəsə, ölçmə, statistika və ehtimal məzmun xətlərini əhatə edəcək. Təhsilalanlara tədris dili fənni üzrə 30 qapalı, riyaziyyat fənni üzrə isə 27 qapalı və 3 açıq sual təqdim olunacaq. Monitorinqin müddəti 120 dəqiqədir.

Monitorinqin nəticəsi şagirdlərin summativ qiymətləndirmə nəticələrinə, eyni zamanda, onların sinifdən sinfə keçmələrinə təsir göstərmir.

Qeyd edək ki, ümumi təhsil müəssisələrində IV siniflər üzrə bütün təhsilalanların monitorinqdə iştirakı icbaridir. Yalnız üzrlü səbəblər (xəstəlik (tibbi arayış təqdim edildikdə), bədbəxt və fövqəladə hadisə) olduğu təqdirdə təhsilalanlar monitorinqdə iştirak etməyə bilərlər.

---

## *Çin səsdən yüksək sürətli PUA istehsal edib?*

**The Washington Post yazır ki, ABŞ Çində səs baryerini üç dəfə aşan səsdən yüksək sürətli pilotsuz uçan aparatlar hazırlandığı barədə məlumata malikdir.**

Məxfi məlumatlarda, Çinin şərqində yerləşən aviabazasının sputniklərdən çəkilən şəkillərində hərbi bazada WZ-8 reaktiv mühərrikli iki kəşfiyyat PUA-sı görüntülənir. Pentaqonun qiymətləndirməsinə görə, səsdən yüksək sürətli pilotsuz uçan aparatlar Çinə "ABŞ-ın Tayvan yaxınlığında və həmin regionda yerləşən Hərbi dəniz qüvvələrinin hərbi bazalarına" nəzarət etməsinə hesablana bilər.

Materiallarda deyilir ki, Çinin Milli azadlıq ordusunun birinci bölməsi səsdən yüksək sürətli PUA-rı, Tayvandakı vəziyyətə uyğun olaraq Pekinin tələblərini yerinə yetirmək üçün Şərq birləşmiş komandanlığın nəzarətində olan bazaya yerləşdirib.

Hələ 5 fevral tarixində Çinin ABŞ səmasında ölkənin hava məkanlarına daxil olmuş hava şarı vurulmuşdu. NBC News-in məlumatlarına görə, hava şarı Birləşmiş Ştatların bir neçə hərbi bazası barədə kəşfiyyat məlumatlarını toplamağa müvəffəq olmuşdur.

Son vaxtlar müəmmalı şəkildə Pentaqonun yayılmağa başlamış yüzdən çox məxfi sənədlərindən görünür ki, ABŞ Ukrayna hərbi qüvvələrinin vəziyyəti barədə və NATO ilə birlikdə Ukrayna ordusunun gücləndirilməsi üçün hansı addımları atıb. Bu günlərdə məxfi sənədlərin yayılmasında şübhəli bilinən 21 yaşlı hərbi qulluqçu Cek Tayşer həbs olunub. Tayşer bu sənədləri hələ bir il bundan öncə sosial şəbəkələrdə paylaşdığını, lakin buna kimsə tərəfindən heç bir əhəmiyyət verilmədiyini bildirib.

**Rüstəm Hacıyev**

---


### ELAN

**12.10.1994-cü il tarixdə 21 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış Azərbaycan Milli Dövlətçilik Partiyası ləğv olunduğunu elan edir.**

**Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, H.Zərdabi küçəsi, 88a.**


---

## Kütləvi məzarlıqlarla bağlı istintaq-əməliyyat tədbirləri davam etdirilir

**"Kütləvi məzarlıqlarla bağlı istintaq-əməliyyat tədbirləri davam etdirilir".**

Adalet.az xəbər verir ki, bunu hərbi prokurorun böyük köməkçisi - Hərbi Prokurorluğun Mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev deyib. O xatırladıb ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərbi və siyasi-diplomatik yolla 30 ilə yaxın müddətdə işğal altında olan tarixi torpaqlarımız azad olunub:

"Azərbaycan Prezidentinin rəhbərliyi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyi və xalqımızın əzmkarlığı ilə həmin ərazilərdə yüksək intensivliklə abadlıq-quruculuq işləri həyata keçirilir. Hərbi Prokurorluq tərəfindən, Dövlət Təhlükəsizliyi Xidmətinin, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının, Beynəlxalq Qızıl Xaç Komitəsinin və digər müvafiq qurumların nümayəndələri ilə birlikdə Şuşa rayonunun Daşaltı kəndi, Xocavənd rayonunun Edilli kəndi, Ağdam rayonunun Sırxavənd kəndi, eləcə də Xocalı rayonunun Fərrux kəndi və digər ərazilərdə aparılmış müvafiq axtarış tədbirləri nəticəsində aşkarlanan kütləvi məzarlıqlardan Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərə məxsus olması ehtimal olunan xeyli sayda insan meyitinin qalıqları ekshumasiya edilib, həmin meyit qalıqları ilə bağlı məhkəmə-tibbi kriminalistik və məhkəmə molekulyar-genetik ekspertizaları təyin edilərək icraya yönəldilib və digər zəruri hərəkətlər yerinə yetirilib.

Qeyd etmək lazımdır ki, Baş prokurorun müavini-Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev 2022-ci il oktyabrın 26-da qeyd olunan ərazilərə gedərək həmin cinayət işinin istintaqının gedişatı ilə yerində maraqlanıb, müvafiq tövsiyələr və tapşırıqlar verib".

Hərbi prokurorun böyük köməkçisi bildirib ki, Ermənistanın silahlı qüvvələri və qanunsuz erməni silahlı birləşmələri tərəfindən xalqımıza qarşı törədilmiş sülh və insanlıq əleyhinə olan, müharibə, terrorçuluq, qəsdən adam öldürmə və digər cinayət faktları ilə bağlı Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda Cinayət Məcəlləsinin 103-cü (Soyqırımı), 120.2.12-ci (Milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürmə) və digər maddələri ilə istintaq olunan cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri Baş prokuror, birinci dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevin nəzarəti və Baş prokurorun müavini- Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyevin ibtidai araşdırmaya prosessual rəhbərliyi ilə davam etdirilir: "Qanunvericiliyin və beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsiplərinin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi təmin ediləcək.

Qeyd edək ki, aprelin 18-i Başlıbel qətliamının 30 illiyidir. 2021-ci ildə Başlıbeldə kütləvi məzarlıq, Edilli və digər yerlərdə insan sümükləri tapılıb. Ermənistan dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi bütün cinayətlərə görə məsuliyyətdən qaça bilməyəcək. Hər bir fakt Azərbaycan dövləti tərəfindən qeydə alınır, ciddi araşdırılır, cinayət işləri qaldırılır. Vətən müharibəsi dövründə də Gəncədə dinc əhaliyə qarşı Ermənistanın raket hücumları olub. Prezident İlham Əliyev 2021-ci ilin sentyabrında BMT Baş Assambleyasının 76-cı sessiyasının illik ümumi müzakirələrində çıxışı zamanı Başlıbel qırğınını xüsusi vurğulayıb, kütləvi məzarlıqlar mövzusunu BMT səviyyəsinə qaldırıb, Xocalı soyqırımının 30-cu ildönümü haqqında 2022-ci il 28 yanvar tarixli Sərəncamında da Başlıbel qətliamını xatırladıb. Başlıbel hadisəsində düşmənə qarşı güclü müqavimət, doğma yurda bağlılıq və fədakarlıq göstərilib.

1993-cü ildə Kəlbəcər milli xəyanət nəticəsində işğal olunub və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin mahir diplomatiyası sayəsində 2020-ci ildə sərt iqlimə və mürəkkəb coğrafi relyefə, hündür dağlara malik Kəlbəcər şəhid vermədən azad edilib".

---

## Ermənilərin Teğ dediyi Qərbi Azərbaycan kəndi Dığ: Qarabağ məliklərinin kəndlə nə əlaqəsi?

**Ermənilərin Teğ, Teqi, Teg adlandırdığı , amma Azərbaycan torpaqlarında yerləşməmişdən çox əvvəl adı Dığ olmuş bir Qərbi Azərbaycan kəndi haqda oxucularımıza məlumat vermək istəyirik.**

**Azərbaycan dilində bu kənd haqqında 2-3 cümləlik məlumat var ki, bunu da çox yetərsiz hesab etmək olar. Əslində alimlərimizin və araşdırmaçı, tarixçi və arxeoloqların bu kənd haqqında geniş məlumatı olmaması təəccüb doğurur.**

**Odur ki, məlumatları erməni mənbələrdən götürmək qərarına gəlirik.**

### *Teğ, yoxsa Dığ?*

Teğ - Ermənistanın Sünik Zəngəzur vilayətində, Ermənistan-Azərbaycan təmas xəttində kənddir. Kənd Gorus rayonuna aiddir. Gorus isə Laçın rayonu ilə sərhəddir . Teğ kəndi Laçın şəhərindən 12 km cənub-qərbdə, Gorusun mərkəzindən isə 21 km məsafədə yerləşir. Toponim fars dilində "kənd, qışlaq" mənasında işlənən dex ( tex) sözü[ əsasında əmələ gəlmişdir. Relyef əsasında yaranan sadə quruluşlu toponimdir. Keçmiş Gorus- Xankəndi magistral yolunun üzərində, dəniz səviyyəsindən təxminən 1350-1400 m yüksəklikdə yerləşən bu kənd haqqında ermənilərin gülünc "tarixi faktlar"ı var. Qafqaza 1828 -ci ildən başlayaraq köçürülən ermənilər iddia edirlər ki, Teğ kəndi X əsrdə Sünik kraliçası II Şahanduxt tərəfindən salınıb. Ermənilərin "tarixi araşdırmaları" bildirir ki, kəndin ərazisində mağara yaşayış yeri var idi, onun yaxınlığında IV-V əsrlərdə Müqəddəs Gevorq kilsəsi tikilmişdir. Orta əsrlərin sonlarında Tegi məliklər (erməni hökmdar və şahları ) idarə edib.

Burada ermənilərin yalanınına nəzər salaq . Qərbi Azərbaycanın yetişdirdiyi ziyalılardan biri olan Musa Urudun araşdırmalarında deyilir ki, Qarabağ xanları Gorus ermənilərinə qarşı həmişə xoş münasibət bəsləmişlər:" Pənahəli xan Qarabağ məliyi Şahnəzərin təqdimatı ilə Gorus ermənisi Ohana məlik rütbəsi vermiş və bu bölgənin idarəçiliyini ona tapşırmışdır. Qarabağ xanının icazəsi və dəstəyi ilə 1765-ci ildə Gorus kilsəsi tikilmişdir. Gorus bölgəsini 200 ilə yaxın bir müddətdə (XVII-XVIII əsrlərdə) Məlik Hüseynlilər tayfası idarə etmiş və bu nəslin Qarabağ xanlığı ilə yaxın əlaqələri olmuşdur. 1805-ci ildə Qarabağa daxil olan rus qoşunları Gorus şəhərini Rusiyanın hərbi qərargahına çevirmişdir. 1826-cı ilin iyul ayında Rusiya-İran müharibəsi Zəngəzurda şiddətlənir və Q.Nazimkanın komandanlığı altında rus ordusu 42-ci polkunun üç alayı (2 topu) Gorusda yerləşdirilir.

Köhnə Gorus qəsəbəsi 1868-ci ildən Yelizavetpol quberniyasının Zəngəzur qəzasının mərkəzi ol-



muşdur. Lakin qəsəbənin yerləşdiyi dərənin məhdud sahəsi onun genişlənməsinə imkan vermədiyinə görə Məlik Hüseynin məsləhəti ilə 1870-ci ildə köhnə Gorusdan bir qədər qərbdə, kəndin qarşısındakı düzənlikdə, çayın sağ sahilində Gorus şəhərinin əsası qoyulmuşdur. Bu şəhər 1868-1918-ci illərdə Yelizavetpol quberniyası Zəngəzur qəzasının mərkəzi, 1921-1930-cu illərdə Ermənistan SSR Zəngəzur qəzasının, daha sonra isə Gorus rayonunun mərkəzi olmuşdur.

Erməni mənbələri həyasızlıqlarına davam edir:"Rusiya imperiyası dövründə Teğ kəndi Yelizavetpol quberniyasının Zəngəzur quberniyasına daxil edilmişdir . Sovet İttifaqı illərində Sovet Ermənistanının Zəngəzur quberniyasının, 1930-cu ildən isə Qoris rayonunun tərkibində olmuşdur . Ermənistan Respublikası müstəqilliyini elan etdikdən sonra 1995-ci ildə yeni inzibati ərazi bölgüsü ilə Sünik marzına daxil edilmişdir. 2016-cı ildən bu, genişləndirilmiş Teğ icma mərkəzidir. Qədim oğuzların vətəni olan Dığ- Teğ tarix və mədəniyyət abidələri ilə zəngindir. 2002-ci ildə Ermənistan hökuməti onların sayı, ümumilikdə 72-dir, 18- qorunur . Həmin abidələr arasında e.ə. II-I minilliyə aid Qarakal qalası və qəbiristanlığı, IV-V əsrlərə aid Müqəddəs Gevorq kilsəsi, 5-6-cı əsrlərə aid "Sregetsi" kilsəsi kilsəsi (yəqin ki Albanlara məxsus olub), 14-15-ci əsrlərə aid Kotrats Eqtsi kilsəsi, 10-cu m. 10-17-ci əsrlərə, X-XVII əsrlərə aid xaçkarlar, 17-19-cu əsrlərə aid qalalar, 14-18-ci əsrlərə aid yaşayış evləri, müxtəlif əsrlərə aid körpülər, su dəyirmanları və s.

Qeyd edək ki, Ermənistan parlamentinin müxalif deputatı Qarnik Danielyan deyib ki, Azərbaycanlılar Teğ kəndində 400 hektara yaxın ərazini götürüblər. Biz hər gün onların "ərazi"lərimizə necə daxil olduqlarının şahidi oluruq: Azərbaycanlılar hər gün irəliləyir, mövqe tutur, kök salır. Biz səlahiyyətli orqanlar tərəfindən heç bir adekvat addım görmürük.

Günahkar cavab verməlidir. Sərhədlərimiz açıqdır. Hakimiyyət hər gün yalan danışır və insanları manipulyasiya edir. Səhər bir şey deyirlər, günorta başqa deyirlər".

Aprelin 11-i saat 16:20 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini müxtəlif çaplı silahlardan istifadə etməklə atəşə tutub.

Azərbaycan Respublikasının Prezident İlham Əliyev isə "Zəngəzur dəhlizini biz icra edəcəyik. Ermənistan istəsə də, istəməsə də. İstəməsə, zorla həll edəcəyik!" bəyanatı ilə qərarını verib.

***P.S.** Dığda 1926-cı ildə 7 nəfər azərbaycanlı yaşayıb. 1926-1929-cu illərdə onlar kənddən sıxışdırılıb çıxarlıblar. İndi ermənilər yaşayır.*

**Əntiqə Rəşid**

# Yazıçı: "Əgər bu faciələr bizə lazımdırsa, ermənilərlə dost olaq..."

**”Demək olar ki, son iki yüz ildə ermənilər bu faciələri törətmək üçün ardıcıl şəkildə, çox nizam-intizamla məşğul olublar. Mən dəfələrlə demişəm ki, bizim xalq böyük xalqdır, amma yaddaş problemi var”**

Bunu Adalet.az-a açıqlamasında yazıçı Seyran Səxavət Başlıbel faciəsi haqda danışarkən deyib. Yazıçı ermənilərdən bizə nə qonşu, nə də dost olacağını bildirib:

”Biz hər şeyi çox tez unuduruq. Neçə yüz il bundan qabaq atalarımız deyib ki, ”yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq nər kişinin işidir”. Hələ bizim Azərbaycan xalqı neçə illərdir başa düşmür ki, bu tərsinə olmalıdır. İndi yaxşılıq eləyənə yaxşılıq, pislik edənə isə pislik etmək lazımdır. Bu adi pislik deyil, söhbət genosiddən, genetik fondu məhv etməkdən, nifrətdən, sənin haqqında bütün dünyaya yalan məlumatlar çatdırmaqdan, siyasi anti-sanitariyadan və siyasi həyasızlıqdan gedir. Nə qədər ki, bizim yaddaşımız belə zəif olacaq həmişə başımıza bu cür oyunlar gələcək. Özü də bəşər tarixində, yer üzündə müxtəlif xalqların, müxtəlif dövrlərdə, zaman kəsiyində başına bəlalar gəlib. Amma ən çox qonşusu tərəfindən başına bəla gələn bizik, Azərbaycan xalqıdır. Ona görə də biz bu mənada gərək dünyanın bütün xalqlarından tez ayılaydıq. Başa düşəydik ki, keçən əsrin əvvəlində olan faciələrdən sonra biz ”Kür-Araz, Ararat, Gözəldir bu həyat. Qardaş olub Hayastan, Azərbaycan” mahnısı oxumalı deyilsən sən, ay bədbəxt millət! Bir ayıl da, silkələn də, bir bərkdən silkələn ki, yaddaşının qırışlarındakı o tozlar sökülsün. Nə qədər ki, belə olacaq həmişə başımız bəla çəkəcək.



Amma bütün bunlara baxmayaraq yenə mən ümidimi itirmirəm. İnanıram ki, ermənidən adama nə qonşu, nə dost, heç nə və heç kim olmaz. Düzdü, qonşuyuq bizim başqa əlacımız yoxdur. Atalar deyir ki, ”itlə dostluq elə, amma çomağını əldən yerə qoyma”. İndi onu belə demək olar ki, ermənilə qonşuluq elə, amma çomağını əldən yerə qoyma. Bunlar xalq, millət deyil. O vaxt camaat Marksdan, Engelsdən sitat gətirirdi, indi Drayzerdən, Albert Kamyudan sitat gətirir. Allah ölənlərinizi rəhmət eləsin mən nənəmdən sitat gətirirəm. Biz qarabağlıyıq, həmişə orda erməni tanışlarımız, qonaqlarımız olub. Nənəm deyirdi ki, ”erməni murdardı”. Bu bir kəlmə sözün içində siz dediyiniz faciələrin hamısı gedir. Hərdən olurdu ermənilər bizdə çay da içirdi. Nənəm Şuşalı qızıydı, o, erməninin çay içdiyi stəkanı və nəlbəkini sındırıb tullayırdı ki, evdə qalmasın. Ona görə sındırırdı ki, birdən azərbaycanlının, türkün əlinə düşər və murdar erməninin murdarladığı stəkanda çay içər və o da çevrilib murdar olar. Əgər yadınızdadırsa, murdar şeylərin hamısını suya çəkirdilər. Ermənilər isə yer üzündə Allahın yaratdıqlarının və çatdırıb yarada bilmədiklərinin içində yeganə varlıqdır ki, onu bütün bəşəriyyət yığışsa, suya çəkib o murdarlığı onun canından təmizləyə bilməz. Onu pak etmək, safa çıxarmaq qeyri-mümkündür.

Axırda demək istəyirəm ki, hörmətli Azərbaycan xalqı, bərk silkələn ki, o beyninin qırışlarını basan toz-torpaq tökülsün və düşmənini birdəfəlik tanı. Heç bir barışıqdan söhbət gedə bilməz. Bunlarla barışan kimi sabah sənə bir namərdlik edəcək. Bu soyqırım, körpələrimizin ölümü, qocalarımızın, qadınlarımızın diri-diri yandırılması əgər bizə lazımdırsa, yenə ermənilərlə dost olaq, mahnı sifariş edək və on milyon adam bu mahnını oxusun ki, bizim çıxış yolumuz var”.

**Qeyd edək ki, bu gün Başlıbel faciəsindən 30 il ötür.**

**Vasif Əlihüseyn**

Əbülfət MƏDƏTOĞLU

# Köhnəlik nişanəsi və yaxud SİRLİ OTAQ



**Mənə görə sözü eşitmək, onu qavramaq artıq elə onun mahiyyətinə varmaqdı. Yəni qəzetin hansı gün çap olunmasından söhbət getmir, onun oxunmasından söhbət gedir. Yəni beş il, on il bundan öncə çap olunmuş qəzeti mən bu gün oxuyuramsa, deməli, o mənim üçün təzədi. Bax, bu mənada hər gün səslənən söz nə qədər ətrafımda gəzib dolansa da, o, əgər mənə ünvanlanmayıbsa mən onun ardınca getmirəm. Amma söz qapımı döyəndə ona ürəyimin qapısın açıram ...**

Bax, bu mənada mənim bu yazımın da işıq üzü görməsində bir sözün qığılcım kimi alışması kifayət etdi. Yəni iş otağıma daxil olan bir Allah bəndəsi vurğuladı ki, bu otaq mənə keçmişi xatırladır - həm aurası ilə, həm içərisindəki mənzərə ilə, həm də burada tez-tez səslənən retro musiqilərlə...

Doğrusu, mən özüm də bu barədə düşünmüşdüm və hətta ən yaxın dostlarım, mənə ərki keçən doğmalarım məni köhnəliyin qalığı kimi bir az qınasalar da, nədənsə mən köhnədən qaldığıma heç vaxt təəssüflənməmişəm, üzülməmişəm. Hətta zaman-zaman düşünüb belə bir məntiqi nəticəyə gəlmişəm ki, baş verənlərin heç biri təsadüf deyil. Onların hamısının mayasında bir zərurət var. O zərurət ilk anda təsadüf formasında ortaya çıxır. Elə ki, sular axıb durulur, elə ki, hər şey öz yerini tutur, bax, ondan sonra sakit bir tərzdə olanı, olmuşu vərəqləyəndə,saf-çürük edəndə və yaxud da düşünəndə adamın qarşısına təsadüfün mayasındakı zərurət çıxır. Elə səhər-səhər eşitdiyim iş otağımla bağlı fikrin də arxasında sən deməbir zərurət dayanırmış. O zərurət bu yazının doğulması imiş. mən də həmin zərurəti ürək açıqlığı ilə qəbul edib bu otaqda dünyaya gələn fikirlərin, duyğuların,misraların axarına düşürəm...

*Özü özündən bezib,*
*Küsmüş adam, kimiyəm...*
*Əlin ümiddən üzüb -*
*Kəsmiş, adam kimiyəm...*

*Yıxılıb əsən yelə,*
*Özün axıdıb selə...*
*Hətta ruhunu belə -*
*Əzmiş , adam kimiyəm!..*

*Sevgi adlı sənəti -*
*Məram etdim, mən qəti!*
*Sevinirəm, Cənnəti -*
*Gəzmiş, Adəm kimiyəm!*

***

Arxada bir zaman kəsiyi qaldı. Elə bir zaman kəsiyi ki, mən o zamanın içərisində təkcə özümünyox, həm də doğmalarımın, ailəmin ömrünə yazılan məqamların sevincini yaşamışam. Bu gün də həmin o sevinc mənim və doğmalarımın həyatını bəzəyir. Deməli,insan yaşa dolduqca onu iki məqam daha çox özünə çəkir. Biri torpaq, biri də ətrafında böyüyən körpələr, yəni nəvələr. Mən torpaq həsrətinin bütün acısını, bütün yanğısını artıq 30 ilə yaxın çəkdim... Yəni 1991-ci il oktyabrayının 30-dan bu acının, bu nisgilin nə demək olduğunu varlığımda hiss edim və elə o hiss etdiyim ağrının içərisində də özüm də özümüçün ikinci bir ağrıya çevrildim... Ona görə də yazanda ki, ”torpaq çəkir adamı” mənə heç kim etiraz etmir. Ən azından bu şeirə görə oxucular məni qınamır. İnsanı çəkən, təbiiki, yaşlı insanı çəkən ikinci məqam nəvələrdi. Mən zaman-zaman qonşuda, qohumda”dövlətdə dəvə, övladda nəvə” deyən yaşlıların fikirlərini çox dinləmişəm.Amma etiraf edim ki, onların nəvə ilə bağlı söylədikləri mənə bütünlüklə hopmamışdı. Elə ki, mənim də boynuma baba misiyası düşdü, onda anladım ki, sən demə yaşlı kişilər ağızlarının dadını bilirmiş. Baba sözünün şirinliyini , təravətini qiymətləndirmək və onun işığında yaşamaq sən demə ayrı bir dünya imiş.

Mən bu doğmalığın, yəni bu mühitin içərisində anladığım həmin o torpağın və nəvənin, yəni uşağın yaşlı insanı özünə çəkməsinin nə qədər böyük bir mənanın, nə qədər tutumlu bir həyat sirrinin gücü qarşısında, ağırlığı altında susuram. Və düşünürəm ki, bu həm də onlara qoşulub əylənəndə məni uşaqlaşdırır, məni uşaqlığıma qaytarır. Necə deyərlər, mən də uşaq oluram. Bax, İlahi güc, İlahi sevgi, həm də gözə görünmədən öz əhatə dairəsində insanı yaşadan, hərəkət etdirən qüvvə məncə elə budu. Bu qüvvənin, bu gücün adı və həm də dadı yəqin ki, böyük hərflərdə yazıla bilən bağlılıqdı. Qan, hiss, duyğu və bütövlükdə sevgi bağlılığı! Ailəyə, dünəninə, bugününə və sabahına olan bubağlılıq bəlkə də elə biz dünyaya gələn andan bizimlə birgə doğulur, bizimlə birlikdə günləri, illəri, ayları başa vurur. Mən də öncədən dediyim kimi, bax bu sirli, həm də köhnəliyi özündə ifadə edən iş otağımdan kağıza köçürdüyüm duyğularımı sizə anladanda bu təzə sözü də, yəni nəvələrlə bağıl fikirləri də fadə etimş oldum. Bu fikirləri bir tala çiçəyə bənzətsək, onun üzərindəki şeh damlalarının da yəqin ki, öz yeri olar.

*Vəd vermişdim -vədimi*
*Özüm unutdum,özüm...*
*Su səpdiyimocağın -*
*Közün unutdum,közün...*

*Bəllidi neylədiyi*
*Yaramın göynədiyi*
*Ucadan söylədiyi-*
*Sözün unutdum,sözün...*

*Bir dəli məhəbbətin*
*İçmək üçün şərbətin...*
*Bu yazıq Əbülfətin-*
*Özün unutdun,özün!*

***

Hər kəs durduğu yerdə, daha doğrusu, doğulduğu yerdə özünü güclü sayır, özünü güvəncli, arxalı,həm də bir az başqalarından səlahiyyətli hesab edir. Bu mənada götürəndə mənim doğulduğum kəndlə paytaxt arasında çox böyük bir məsafə var. Mən o məsafəni hərgün xəyalən azı iki-üç dəfə gedib qayıdıram. Gedəndə də nəfəsim kəsilir,qayıdanda da. Gedəndə də gözlərim dolur, kirpiklərim nəmlənir, qayıdanda da yanaqlarımdakı şırımları silmək, qurutmaq yadımdan çıxır...

... Və yaxşı bilirəm ki, inamsız yaşamaq qeyri-mümkündü. Ona görə içimdəki inamın ətəyini əldən buraxmıram.Əksinə, onun daha da möhkəmlənməsi, ayağının yer tutması üçün özümü hər gün təkrar-təkra kökləyirəm. Necə deyərlər, hazırlıqlı bir duruma gətirirəm.Və yaxşı ki, hər kəs özünə, öz içinin havasına köklənir...

**Bəli, bu gün köhnəliyi xatırladan bir otaqda köhnəliyin nişanəsi olan bir Allah bəndəsi düşüncələrini,yaşantılarını və bir az da duyğularını araya-ərsəyə qoydu. İndi necə ifadə olundu, necə alındı, bu tamam başqa söhbətdi. Əsas odur ki, dünən bugünün bünövrəsidi. Köhnəlik yeniliyin alt qatıdı. Bunlarsız ayaqda durmaq,mübarizə aparmaq zənnimcə çətindir, hətta bəlkə mümkün də deyil. Çünki özülsüz,köksüz, köməksiz evi də, ağacı da külək daha tez yıxır, daha tez uçurur. Mən daxilən, həm də inamıma görə, özülü üst qatdan daha gərəkli saymışam.**

# Şəhid atası: "Yaralı vəziyyətdə düşmənin ona yaxınlaşmasını gözləyib və qumbarayla..."

**Xəbər verdiyimiz kimi bu gün Vətən müharibəsi şəhidi, çavuş Şəhriyar İsa oğlu Əsgərovun doğum günüdür. Şəhriyar Əsgərov 1991-ci il aprelin 17-də anadan olub. Bu gün şəhidimizi 32 yaşı tamam olur. Bu münasibətlə şəhidimizin ailəsi tərəfindən məclis təşkil edilib.**

Adalet.az-ın əməkdaşı Cəlilabadın Göytəpə qəsəbəsində şəhidimizin ata evində qonaq olub və ailəsiylə Şəhriyar haqda söhbət edib.

Şəhidimizin atası İsa Əsgərov oğlu Şəhid olarkən Rusiyada xəstəxanada yatdığını bildirib:

”Şəhriyargil ailədə iki qardaş və bir bacıdırlar. Şəhriyar evin ortancıl övladıdı. Doqquz il idi ki, müddətdən artıq hərbçi kimi orduda xidmət edirdi. Vətən müharibəsi zamanı isə mən Rusiyada xəstəxanada müalicə olunurdum. Daha sonra isə əməliyyat olundum. Şəhriyarın mənə yaralı olduğunu xəbər verdilər və xəstəxanadan çıxıb evə gəldim. Amma mən gələndə gördüm ki, Şəhriyar artıq beş gündür ki, dəfn edilib”.

Şəhid atası Şəhriyar şəhid olan gecə dəhşətli yuxu gördüyünü deyib:

”Noyabrın 3-də mən xəstənada əməliyyat olundum, sən demə Şəhriyar da şəhid olub. Həmin gecə yuxuda gördüm ki, bədənim darmadağın olub, çalatım çölə tökülüb. Yuxudan oyandım və bu yuxunun mənasını Şəhriyarın şəhid olduğunu biləndə anladım”.

Şəhid atası Şəhriyarın yaralı halda düşmənə əsir düşməmək üçün özünü qumbarayla partlatdığını bildirib:

”Şəhriyar Xocavənddə döyüşdə olub. İki dəfə yaralanıb və ermənilər ona yaxınlaşaraq yaralı vəziyyətdə əsir götürmək istəyiblər. Bu zaman o düşmənin ona yaxınlaşmasını gözləyib və həmin məqamda üstündə olan qumbaranı partladım. Partlayış zamanı özüylə birlikdə 4-dən çox düşmən əsgəri də həlak olub”.

Qardaşı Emin Əsgərov 15 gün Şəhriyarın meyitinin neytral ərazidə qaldığını bildirib:

”Həmişə Şəhriyarla telefonla danışırdıq. Amma döyüşdə olduğunu demirdi. Sonuncu dəfə mənimlə telefonla danışanda dedi ki, ”qardaş, yaralıyam, inşallah cənnətdə görüşərik”. Ondan sonra Şəhriyar döyüşdə şəhid oldu. Telefonla danışanda səsini yazmışam, döyüşün də səsi ora düşüb. Onun nəşini yalnız noyabrın 17-də rayona gətirdilər və 18 noyabrda dəfn etdik”.

Şəhriyarın dayısı Fəzail Adıgözəlov bacısı oğlunu 15 gün axtardıqlarını bildirib:

”O hadisədən sonra biz Şəhriyarı axtarmağa başladıq. Əsgərləri ilə söhbəti zamanı dedilər ki, ”əgər Şəhriyar mühasirəyə düşübsə, özünü partladım. O, sağ düşmən əlinə keçməz. Biz onu yaxşı tanıyırıq”. Noyabrın 17-də Füzulidə xəstəxanada Şəhriyarın meyitinə baxdım. Əlinin biri sinəsinin üstündə idi, əlində əlcək də var idi. Paltarını soyunduranda şəxsi əşyalarını bizə verdilər və orda yazıdığı məktubu da aldıq”.

Şəhriyar şəhid olmamışdan öncə ailəsi üçün bu məktubu yazıb:

”Əziz atam və anam, siz bu məktubu oxuyursunuzsa artıq mən axirət dünyasındayam. Biz uşaq olarkən bizlərə İmam Hüseyndən və onun şəhadətindən danışırdınız. Elə uşaq ikən o danışdığınız şəhidlik zirvəsinin arzusunda olmuşam. Şükürlər olsun ki, Rəbbim məni də o zirvəyə çatdırdı. Bilirəm, anacan övlad itkisi sənə ağır gələcək , amma səndən xahişim odur ki, ağlayıb düşməni sevindirməyəsən. Üç rəngli bayraqda məni gətirəndə, xanım Zeynəbin müsibətini düşün ki, balasını qurban verdi və Xeymətdən (çadr) çölə çıxmadı. Sən də elə dözümlü ol! Sevin ki, şəhid anasısan. Sevin ki, övladın Ağamız Hüseynə müsafirdir. Gözəl bacım və qardaşım sizləri də çox istəyirəm, başınızı hər zaman dik tutun. Sizləri öncə Allaha daha sonra bir-birinizə



əmanət edirəm. Yazmağa çox sözlər var, amma sizləri daha çox kövrəltmək istəmirəm. Haqqınızı halal edin. Hə, bir də anacan söz vermişdim sənə ki, torpaqlarımız azad olunduqdan sonra Şuşaya istirahətə göndərəcəkdim. Üzrlü say anacan, ilk dəfə sənə verdiyim sözü tuta bilmədim. Öpürəm sizləri. İsa və Xədicəni hər gün mənim əvəzimdən öpün! İnşAllah cənnətdə görüşərik. Haqqınızı halal edin! Oğlunuz Şəhriyar”...

Qeyd edək ki, şəhid Şəhriyar Əsgərov ölümündən sonra ölkə başçısı tərəfindən ”Vətən uğrunda”, ”Xocavəndin azad olunmasına görə” medallarıyla və 3-cü dərəcəli ”Vətənə xidmətə görə” ordeniylə təltif edilib. Ailəsi Şəhriyara qullu etdiyi hərbi hissə tərəfindən ”Cəsur döyüşçü” və ”İgidliyə görə” medalların da verdildiyini, lakin Müdafiə Nazirliyinin bunu təsdiq etmədiyini deyib. Şəhid ailəsi sonuncu iki medalın da təsdiq edilməsini istəyib. Xatırladaq ki, Göytəpə şəhərində küçələrdən biri Şəhriyar Əsgərovun adını daşıyır.

**Vasif Əlihüseyn**

# Keçmiş hərbi hissə komandiri: «Sürücüm minaya düşdü, ona kömək etmək istəyəndə özüm də..."

***Adalet.az Vətən müharibəsi qazisi, keçmiş hərbi hissə komandiri, polkovnik-leytenant Kamil Düniyevlə müsahibəni təqdim edir.***

***Düniyev Kamil Əlibala oğlu 1974-cü il mayın 24-də Cəlilabad rayon Əliabad kəndində anadan olub. İki qızı və bir oğlu var.***

**- Kamil müəllim, sizin hərbçi həyatınız necə başladı?**

- 1993-cü ildə hərbi xidmətə getmişəm və əsgər kimi birinci Qarabağ savaşında iştirak etmişəm. İki il altı ay xidmətdən sonra o zaman məni hərbi hissə komandirinin göstərişinə əsasən nümunəvi əsgər kimi Bakı Ali Birləşmiş Komandanlığı məktəbinə göndərdilər. 1995-ci ildə motoatıcı ixtisası üzrə ora qəbul oldum. 1999-cu ildə məktəbi bitirib zabit kimi Azərbaycan Ordusunda xidmətə başladım. Ondan sonra müxtəlif hərbi hissələrdə tağım, bölük komandiri vəzifələrində işləmişəm.

**- Bəs Vətən müharibəsinə necə qatıldınız?**

- Vətən müharibəsi zamanı N saylı hərbi hissənin qərargah rəisi vəzifəsini icra edən şəxs kimi işləyirdim. Müharibə zamanı hərbi hissə komandirinin vəzifələrini icra etdim, çünki komandir yaralanıb döyüş meydanından təxliyə edildi. Müharibə qurtarandan sonra isə hərbi hissə komandiri təyin edildim.

Vətən müharibəsi zamanı bizim tapşırığımız Murovdağ, Suqovuşan, Talış kəndi istiqamətində idi. Orda aktiv müdafiə və digər döyüş planlarının istiqamətləndirilməsi üzrə tapşırıqları həyata keçirirdik. Döyüş zamanı tabor komandiri kimi əlavə olaraq Suqovuşan istiqamətində müdafiə xəttini təşkil etdik. Digər bölmələrimiz isə Murovdağ, Gülüstan kəndinin və Barambat yüksəkliyinin müdafiəsi kimi tapşırıqları yerinə yetirirdi.

**- Orda maraqlı, yadınızdan çıxmayan hansı döyüş səhnələrini xatırlayırsınız?**

- Ümumiyyətlə, Vətən müharibəsindən əvvəl hazırlıqların getməsi, şəxsiyyətin əhval-ruhiyyəsinin yüksək olması hərbçi olaraq gündəlik fəaliyyətlərimiz yadda qalan hissəsi olub. Ən yaddaqalan günlərdən biri Suqovuşanın azad olunması xəbər idi. Həmin gün biz təcili olaraq əməliyyat tapşırıqlarını almaq üçün qərargaha toplaşmışdıq. Vətən müharibəsi zamanı ilk olaraq Suqovuşan azad edildi.

Yəni düşmənin ön xəttinin yarılması birinci Suqovuşan istiqamətindən oldu. Uğurlu əməliyyat nəticəsində Suqovuşan kəndi tamamilə azad olundu. 2020-ci il 3 oktyabr tarixində Müzəffər Ali Baş Komandanın o zaman 1-ci Ordu Korpusunun komandiri olan Cənab general Hikmət Həsənova zəngi oldu. General Hikmət Həsənov Ali Baş Komandan İlham Əliyevlə qırx dəqiqəyə yaxın telefonla danışdı və sonra yanımıza gələrək Ali Baş Komandanın bizə salamını çatdırdı. Ali Baş Komandanın salamlarını eşitmək isə bizə daha da ruh yüksəkliyi verdi.



**- Biz eşitdiyimizə görə Vətən müharibəsində oğlunuzla birlikdə döyüşmüsünüz...**

- Düzdü, oğlum Səfər Düniyev o zaman hərbi xidmətdə idi. Səfər də Suqovuşan istiqamətində döyüşlərdə fəal iştirak etdi. Minaatan batareyasında baş tuşlayıcı vəzifəsini icra edirdi. Vətən müharibəsində xidmətlərinə görə Müzəffər Ali Baş Komandan tərəfindən ”Suqovuşan azad olunmasına görə” və ”Müharibə iştirakçısı” medallarıyla təltif edilib.

**- Sizin minaya düşərək sol ayağınızı itirməyiniz necə baş verdi?**

- Minaya düşməyin döyüş əməliyyatlarından sonra baş verdi. 2022-ci ildə Talış kəndində ”1350” yüksəkliyində təminat və döyüş yollarını minalardan təmizləyərkən sürücüm etiyatsızlıq ucbatından minaya düşdü və mən də ona kömək etməyə çalışanda minaya düşdüm. Hadisə nəticəsində sürücümün sağ ayağı, mənim isə sol ayağım amputasiya olundu.

**-Bir döyüşçü kimi hansı qürur hisslərini keçirirsiniz?**

- Vətən müharibəsindəki xidmətlərimə görə Müzəffər Ali Baş Komandan tərəfindən ”Cəsur döyüşçü” və ”Suqovuşanın azad olunmasına görə” medallarıyla təltif edildim. Eyni zamanda, xidmətim dövründə bir çox medallarla təltif edilmişəm. Azərbaycan Ordusunda fəxr hissi ilə deyə bilərəm ki, qüsursuz olaraq 29 il xidmət etmişəm. Təsəvvür edin ki, əsgəri olduğum hərbi hissənin komandiri vəzifəsinə qədər yüksəlmişəm. Bir şeyi də qeyd edim ki, müharibədən öncə Ağdam istiqamətində hərbi hissə komandirinin müavini vəzifəsini icra etmişəm. Ondan əvvəl hərbi hissədə əlahiddə taborun komandiri idim. Müharibə başlayanda Ağdam istiqamətində hərbi hissə komandirinin maddi-texniki təminat üzrə müavini olaraq bütün bölmələrin təminatını yüksək səviyyədə yerinə yetirməyə çalışırdım. Müharibədən üç gün sonra, yəni sentyabrın 29-da N saylı hərbi hissənin komandiri yaralandı və döyüş meydanından təxliyə olundu. O zaman məni genral Hikmət Həsənov qəbul edib hərbi hissənin qərargah rəisi və komandiri vəzifələrini icra etmək göstərişini verdi. Mən də bu vəzifəni sevərək icra etdim. 1993-cü ildə əsgər kimi də Talış, Suqovuşan, Murovdağ istiqamətlərində fəaliyyətlərimiz olmuşdu. O döyüşləri əsgər kimi də görmüşdüm. Praktiki olaraq təcrübə var idi, hərbçi olaraq o yerləri tanıyırdım. Eyni zamanda da biz bu müharibəni, ”Dəmir yumruq” əməliyyatını çoxdan gözləyirdik. Bizim missiyamız, tapşırığımız ancaq qalibiyyət idi.

**- Ayağınız amputasiya olunandan sonra artıq ordu sıralarından tərxis olundunuz?**

- Minaya düşərkən sol ayağımı mina aparmışdı. Sağ ayağım da ağır yaralanmışdı. Həkimlərimizin səyi nəticəsində sağ ayağım bərpa edildi. O hadisə zamanı iki litrə qədər qan itirmişdim. Sonra ”YAŞAT” Fondunun xəttiylə Türkiyədə müalicə olundum. Sol ayağımda pratezləşmə həyata keçirildi. Ümumi olaraq səhhətim normaldı. Bu gün tək mənə yox, bütün şəhid ailələrimizə, qazilərimizə dövlətimiz qayğı göstərir.

**- Müharibədən sonra müşahidə edirik ki, siz şəhid ailələrinin yanında olursunuz, gənclərimizlə görüşürsünüz...**

- Bu gün hamımızın gördüyü bir məntiq var. Məntiq ondan ibarətdir ki, biz hər zaman bütün Azərbaycanımızın müdafiəsi uğrunda canlarını fəda edən şəhidlərimizə borcluyuq. Çünki belə bir deyim var ki, ”torpaq əgər uğrunda ölən varsa, vətəndir”. Yəni bu həqiqətən də belədir. Şəhidlərimizin qanı bahasına bayrağımızı intizarında olduğumuz torpaqlarımıza sancdıq və bayrağımızın orda dalğalanmasından” böyük qürur duyduq. Şəhidlərimizi hər zaman ziyarət etmək, anım və ad günlərini keçirmək ölənə qədər borcumuzdur. Şəhidlər ölməz, vətən bölünməz”. Onların ruhu hər zaman bizimlədir, bizim də ruhumuz onların yanındadır.

## *“29 il ərzində çox döyüşçü qardaşları tanımışam...”*

**Cəlilabad rayonunda da Şəhidlər Xiyabanının tikilməsi hörmətli icra başçımız Rafiq Cəlilovun göstərişi əsasında həyata keçirilib. Şəhidlərimizi ziyarət etmək, onların qarşısında baş əymək borcumuzdur. Harda şəhid adı varsa, ora bizim müqəddəs yerimizdir, qibləgahımızdır, andımızdır. Şəhidlərimizdən şəxsən tanıdıqlarım çoxdur. 29 il ərzində çox döyüşçü qardaşları tanımışam. Onlardan biri polkovnik Babək Səmidli olub. Suqovuşan istiqamətində minaya düşdü. Cəlilabadın Uzuntəpə kəndindən kapitan Rəşad qardaşımızı şəxsən tanıyırdım. Rəşad da Suqovuşanda şəhid oldu, ruhu qarşısında baş əyirik. Lənkəran şəhərindən polkovnik-leytenant Orucov Naillə bir yerdə oxumuşduq. Şəhidlərimiz çoxdur. Allah hamısına rəhmət eləsin.**

**Vasif Əlihüseyn**

## *Boşanmaların sayı niyə artır?*

"Evliliklərdə bitiş nöqtəsinə tez gəlinmə, bunun daha tez yaşanması, problemli bir həddə çatmasının səbəbləri var. Bunun səbəbi odur ki, evlənənən cütlüklər bir-birini tanımır, ailədaxili hədəfləri yoxdur, bir-biri ilə normal münasibət qura bilmirlər"

Bunu Adalet.az-a açıqlamasında psixoloq Zeynəb Eyyubova deyib. Psixoloq buna görə tez-tez ailələrdə boşanma hallarının baş verdiyini bildirib: "İndi evlənən cütlüklər "bir-birinizi tanıyırsınızmı?" sualına belə cavab verirlər: "Tanıyarıq və əgər problem olsa, boşanarıq". Daha bir məsələ valideynlərin də artıq bu cür fikirləşməsidir. Əvvəllər deyilirdi ki, "bu evdən ağ gəlinliklə çıxdın, ağ kəfənlə qayıt". Amma indi gəlini "sən çağır, atan hazır" devizi ilə ər evinə göndərirlər. Ona görə də qurulan ailələrdə xırda problemdən dolayı da ailədaxili ayrılıqlara zəmin yaradılıb".

Qeyd edək ki, Azərbaycanda boşanmaların sayı artıb. Statistika Komitəsinin yaydığı məlumata görə bu ilin yanvar-fevral aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 7541 nigah və 3014 boşanma halı qeydə alınıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nigahların sayı azalaraq 5,9-dan 4,6-ya düşüb, boşanmaların sayı isə 1,5-dən 1,8-ə qədər artıb.

**Vasif Əlihüseyn**

# Ekspert həyəcan təbili çaldı: "Payızlıq kartofu yuyucu tozuyla yuyub təzə adıyla əhaliyə satırlar..."

**Adalet.az-ın əməkdaşı bu gün bazarlarda təzə kartof adıyla satılan məhsulun mənbəyini araşdırıb. Bunun üçün də o ölkənin cənub rayonlarından olan Cəlilabada yollanıb. Bildiyiniz kimi bu gün Cəlilabad rayonu geniş kartofçuluq təsərrüfatıyla məşğuldur.**

Əməkdaşımızın fermerlərlə apardığı söhbət zamanı ilginc faktlar ortaya çıxıb. Fermerlər bildirib ki, bu gün bazarlarda təzə adıyla satılan kartof təzə yox, payızlıq kartofdur. Sadəcə rayonda olan işbazlar noyabr ayında torpaqdan çıxan kartofu bu gün vətəndaşlardan ucuz qiymətə alıb istehlakçıları aldadırlar.

Beləki bu gün həmin kartofu iran məhsulları olan yuyucu tozlarıyla xüsusi ”kartofyuyan” aparatlarda yuyub ağardırlar. Belə olanda da onun təzə kartofdan fərqi bilinmir. Ondan sonra həmin kartofu şəffaf torbalara doldurub ”Meyvəli” bazarına daşıyıb və orda təzə kartof adıyla satırlar.

Onların bu ”oyunu” isə indi bazara çıxarılacaq təzə ”parnik” kartofunun qiymətini həm aşağı salır, həm də yuyucu tozuyla yuyulan kartofu alıb yemək insan səhhəti üçün təhlükəlidir.

Fermerlər əməkdaşımıza müraciət edərək Azad İstehlakçılar Birliyinin və Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin bu məsələyə nəzarət etməsinin vacibliyini vurğulayıb.

Məsələylə bağlı Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov Adalet.az-a bunları deyib:



”Təəssüflər olsun ki, belə hallar mövcuddur. Çox yaxşıdır ki, bu ən nəhayət ictimaiyyətə çatdırılır. Bu barədə Azad İstehlakçılar Birliyinə telefon zəngləri də daxil olub, lakin biz bu araşdırmanı aparmamışıq. Düşünürəm ki, bu məsələni ciddi olaraq Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi mütləq araşdırmalıdır. Ona görə yox ki, qiymət burda səs-küy yaradır, həmin yuyucu kimyəvi maddə insanların sağlamlığında ciddi mənfi təsirlərini göstərə bilər.

Təəssüflər olsun ki, Azərbaycan Qida Təhlükəsizliyinin nizamnaməsinə görə o yalnız qidanın təhlükəsizliyi ilə məşğuldur, keyfiyyət məsələsi ortalıqda qalıb.

Ona görə də bu məsələyə eyni zamanda İqtisadiyyat Nazirliyi yanında Standart İnstitutu da nəzər salmalıdır.

Yəni o yuyucu tozlarla kartofu ağartmaq artıq zəhərli maddələrin evlərə daşınmasıyla nəticələnə bilər. Ona görə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinə müraciət edirəm ki, mütləq bu məsələni araşdırsınlar və o cür istehlakçı hüquqlarını pozan biznes qurumları ifşa olunmalıdır. Azad bazar iqtisadiyyatı o demək deyil ki, təhlükəli malları istehlakçılara sırısınlar.

Bunun qarşısı alınmalıdır və AQTA elə bir iş aparmalıdır ki, əhali bu cür kartofları tanıya bilsin.

Eləcə də bu, çox böyük əziyyətlə qış fəslində istixanalarda kartof yetişdirən insanların əməyinə bir təcavüzdür.

Həmçinin əhalinin daha keyfiyyətli kartofla təminatının qarşısını alan və onları hətta zəhərləyə bilən qeyri-qanuni hərəkətdir. Mütləq dövlət orqanları bunun qarşısını almalıdır”.

**Vasif Əlihüseyn**

# "KAFKASLARDAKİ KIYIM ve SÜRGÜNLER"



*Sona Çərkəz,*
*Şair-publisist*

**Öncə kitabın müəllifi haqqında oxuculara bilgi vermək istəyirəm. Belə ki, Sevil Abbasoğlu İrəvanlı 1962-ci ildə Qərbi Azərbaycanda doğulub. İlk təhsilini Naxçıvanda liseydə alan Sevil xanım sonra paytaxt Bakıya üz tutub. O, arzusuna uyğun olaraq Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinə daxil olub. Universiteti yüksək qiymətlərlə bitirən Sevil xanım hələ təhsil aldığı illərdə artıq öz həyatını, gələcəyini qurmaq üçün əmək fəaliyyətinə başlamışdı. Belə ki, 1988-ci ildə o, tələbə ola-ola Azərbaycan Elmlər Akademiyasında, 1993-cü ildə isə Prezident Kitabxanasında və "Azadlıq" qəzetində çalışmağa başlamışdı. Bütün yaradıcılığını, yəni əmək fəaliyyətini Qərbi Azərbaycanla, erməni vandalizmi ilə, didərgin düşdüyü yurd-yuva ilə bağlayan və həm də Qərbi Azərbaycandakı tarixi gerçəklikləri üzə çıxarmağa həsr edən Sevil xanım özü də bir azadlıq aşiqi, yurdsevər olduğundan, demək olar ki, heç bir çətinliklərdən qorxmur, necə deyərlər, zamanın üzərinə cəsarətlə gedirdi.**

Sevil xanımın bu əzmkarlığı onu həm də türk dünyası ilə əlaqələr qurmağa, bütövlükdə türk tarixini, həmçinin Azərbaycan tarixini geniş şəkildə öyrənməyə həvəsləndirirdi. Ona görə də o, hələ 1992-ci ildə professor, doktor Turan Yazqanın təşkil etdiyi, yəni qurucusu olduğu Türk Dünyası Araşdırmaları Vəqfinin Kitab Evində çalışmağa başladı. Məhz bu ünvanda çalışmaq ona istəklərini gerçəkləşdirməkdə yaşıl işıq yandırdı.

Həyat fəaliyyətində ikinci və ən önəmli zaman kəsiyi isə onun Azərbaycanın sərhədlərindən kənarda, yəni Finlandiyada, Türkiyədə köçüb yaşaması ilə bağlıdır. Belə ki, o artıq Finlandiyanın Turku Universitetində fin və macar dillərini öyrəndi. Bu da ona imkan verdi ki, tarixi mənbələrlə daha sıx təmas qursun. Təbii ki, bu təmaslar da ona həm türk tarixini, həm də onun bir qolu olan Azərbaycan tarixini öyrənməkdə yardımçı oldu. Sevil xanımın araya-ərsəyə gətirdiyi elmi məqalələrə, onun sizə təqdim etdiyim kitabına diqqət yetirəndə görülən işin keyfiyyət və məzmunu ilə yanaşı, onun tariximiz üçün nə qədər önəmli olduğunu xüsusi qeyd etmək yerinə düşər.

Yeri gəlmişkən vurğulamaq istərdim ki, Sevil xanım mənim yaxın əqrəbamdır. Onun təhsil illəri, Azərbaycanda çalışdığı zaman kəsiyi, necə deyərlər, gözümün önündə olub. Bu mənada həm əqrəba, həm də Azərbaycanlı xanım kimi Sevil Abbasoğlu İrəvanlının qazandığı elmi uğurlar, onun tariximizlə bağlı ortaya qoyduğu araşdırmalar mənə qürur verir. Bu gün fəxarət hissi ilə deyə bilərəm ki, 13 bölümdən ibarət olan kitabında Sevil xanım həqiqətən Qərbi Azərbaycanın 1988-ci il işğalına qədər erməni van-




dalizminin izlərini, onun tariximizə vurduğu ağır zərbələrin izlərini açıb ortaya qoya bilib. Kitabı oxucuya təqdim edən dəyərli alimimiz Kamil Nərimanoğlu yazır ki, "Rusiyanın və güclü Avropa dövlətlərinin əlində bir oyuncaq olan ermənilərin ruslar tərəfindən qədim türk torpaqlarında, xüsusilə İrəvanda yerləşdirilməsi və Sovetlər Birliyi dönəmində Ermənistan adlı dövlətə çevrilərək İrəvanın onun paytaxtı edilməsi Cənubi Qafqazda böyük dövlətlərin həyata keçirdikləri siyasətin nəticəsidir". Bununla da Kamil Vəli Nərimanoğlu xatırladır ki, Sevil Abbasoğlu İrəvanlı məhz həmin o böyük dövlətlərin siyasətinin acısını yaşayan Qərbi Azərbaycanın, bütövlükdə Türk dünyasının yaşadıqlarını, yəni tarixin acılarını böyük zəhmət hesabına faktlarla, elmi əsaslarla oxucuya təqdim edir. Onun bu kitabında Moskvanın, Sankt-Peterburqun, Tiflisin, Bakının, Ankaranın, İstanbulun və digər paytaxtların arxivlərindən yararlanaraq oxucu qarşısına çıxarılan dəqiq tarixi faktlar məhz ermənilərin soyqırım törətdiyini bir daha təsdiq edir. Oxucu əmin olur ki, türklərə qarşı bu gün də iddialarından əl çəkməyən ermənilər "Böyük Ermənistan" xəstəliyinin həm qurbanlarıdır, həm də soyqırımın təşkilatçıları.

Kitabın hər bir fəslində Qərbi Azərbaycan tarixi Böyük Türk Tarixinin bir hissəsi kimi əlaqəli şəkildə araşdırılmış və xalqımızın başına gətirilən münasibətlərin günahkarları barəsində bilgilər həm elmi, həm də oxunaqlı bir şəkildə qələmə alınmışdır. Burada onu da qeyd etmək yerinə düşər ki, müəllif Rusiya-İran müharibəsi və "Gülüstan" sülh müqaviləsi fonunda ermənilərin Azərbaycan torpaqlarında yerləşdirilməsi faktına daha geniş prizmadan baxmaqla bu gün də İranın bizə qarşı yürütdüyü siyasətin mahiyyətini aça bilib.

Bəli Qərbi Azərbaycanda doğulan, öz ata ocağına, doğma yurduna son dərəcə bağlı olan Sevil Abbasoğlu İrəvanlı




bu kitabın ilk səhifəsində belə bir fikri xüsusi vurğulayıb ki, o, oxuculara təqdim olunan bu monumental əsəri Vətənini itirən, qürbətdə yaşayan bütün yurddaşlarına və sevimli qızı Nebahat Ayturana ithaf edib. Bu isə zənnimcə o deməkdir ki, Sevil xanım dünən də, bu gün də, sabah da ruhən, qəlbən doğulduğu yurda bağlıdır və onun mütləq öz sahiblərinə qayıdacağına inanır. O əmindir ki, biz Qarabağa qayıtdığımız kimi, Qərbi Azərbaycana da qayıdacağıq. Son olaraq dəyərlim Sevil Abbasoğlu İrəvanlıya bu mükəmməl əsərə və yaradıcılığına görə minnətdarlığımı bildirir, uğurlar diləyirəm.

**Son olaraq onu da əlavə etmək istəyirəm ki, mənim ata qohumlarım arasında çox sevdiyim Nabat bibimin qızı Sevil bugünkü bütün uğurlarına öz əzmkarlığı və zəhmətsevərliyi sayəsində nail olub. O, həyatının mənasını araşdırmalarda, təhsildə, kitablarda arayıb-axtarıb tapan fədakarlardandır. Sevil həm də öz ailəsinə, həyat yoldaşına və övladına dəyər verməyi bacaran haqqı-sayı itirməyən bir xanımdır. O, hal-hazırda İstanbul Universiteti Sosial Bilimlər İnstitutu Tarix bölümü doktora öğrencisidir. Həyat yoldaşı filologiya üzrə fəlsəfə doktoru Atilla Jorma Quzey Makedonya Uluslararası Vizyon Universitetinin dosentidir. Əsas ixtisası isə türkoloqdur. Onlara həm ailədə, həm də işlərində uğurlar diləyirəm.**

# Ədəbi tənqidimizdə Vaqif Yusiflinin yeri...

***Ədəbiyyatımızın cəfakeşi, "Ədalət" qəzetinin dostu və daimi yazarı, görkəmli filoloq-alim Vaqif Yusiflinin 75 yaşı tamam oldu. Bu münasibətlə qəzetimizin kollektivi və oxucuları adından dəyərlimiz Vaqif müəllimi ürəkdən təbrik edir, ona can sağlığı və ədəbiyyatımız yolunda gördüyü böyük işlərdə uğurlar diləyirik. Oxucularımıza isə Vaqif müəllim barəsində tanınmış ədəbiyyatşünasımız İradə Musayevanın bütün zamanlar üçün təqdirəlayiq olan məqaləsini təqdim edirik.***

***

Azərbaycan ədəbi tənqidi haqqında düşünəndə ilk növbədə hamımızın yadına M.F.Axundov düşür. Bu təbiidir... Modern mədəniyyət, ədəbiyyat, sənət haqqında təsəvvür yaratmaq, azərbaycanlılar üçün dramaturgiyanın, teatrın, qərb nəsrinin mühüm janrlarından biri olan povestin mahiyyətini açıb göstərmək və daha aydın təsəvvür yaratmaq məqsədilə təkcə nəzəri deyil, həm də praktik nümunələr ortaya qoymaq da M.F.Axundov maarifçiliyinin missiyasına aid idi. Ədəbi tənqid anlayışını da ilk dəfə Axundov gətirdi mədəniyyətimizə. Necə ki millətin gözünü açmaq, onları öz obrazları ilə üz-üzə qoymaq üçün teatrı bir güzgü kimi xəyal etdi və hətta Avropa teatr estetikasının bütün incəliklərini şərh etmək məqsədilə səhnədən, səhnənin pərdəsindən, tamaşaçı zalının bütün detallarından tutmuş teatr mədəniyyətinin ən xırda məqam və nüanslarınadək nəzəri məlumatlarını rəsm edirdi, eləcə də "kritika" elminin də incəlikləri, mahiyyəti və ədəbiyyatdakı funksiyasını şərh edə-edə ona dair də nümunələr yazırdı...

Biz Axundova nə qədər yaxınlaşa və ya ondan nə qədər uzaqlaşa bildik, bu başqa bir yazının mövzusudur. Həqiqət isə odur ki, Axundov ədəbi tənqid məktəbinin tələbələri (yaxşı, ya pis - bu da başqa bir yazının mövzusudur) öz ədəbi obrazı, yaradıcılığı ilə bu məktəbin 150 ildən çox bir zaman müddətində mövcud olması reallığında əsas rol oynamışdır.

Bu ədəbi məktəbin tələbələrindən biri filologiya elmləri doktoru Vaqif Yusiflidir ki, o bu gün artıq Azərbaycan ədəbi tənqidində, müasir həmkarları arasında müəllim funksiyasını yerinə yetirməkdədir. "Müasir Azərbaycan nəsrində konflikt və xarakter" mövzusunda namizədlik dissertasiyası yazmış tənqidçinin elə öz yaradıcılıq yolu, ədəbi taleyi də hardasa, "konflikt və xarakter" dilemması, dramatizmi kontekstində tarixləşdi, müəllifin "tənqidçi kitabı" ədəbi tənqid səhifəsində maraqlı bir müəllif obrazı kimi yazıldı...

Müharibədən sonrakı ağır illərin məktəblisi (1948-ci ildə anadan olub), sovet dövrünün tələbəsi (1967-1972), aspirantı (1975-1979) və müstəqillik illərində ədəbi tribunalarda adı daha çox eşidilən tənqidçi... Vaqif Yusifli 1979-cu ildən etibarən "Azərbaycan" jurnalında "Tənqid və ədəbiyyatşünaslıq" şöbəsinin müdiri vəzifəsində işləməyə başlamışdır. Ciddi ədəbi meyarlara dayanaraq fəaliyyət göstərən və prinsipial, obyektiv mövqeli, elmi-nəzəri tədqiqat yenilikləri ilə ədəbi-intellektual camiənin hörmətini qazanmış bu jurnaldakı fəaliyyətinin 1997-ci il dönəmi isə mənim yaxşı yadımdadır. Həmin ildən etibarən Vaqif Yusifli baş redaktor müavini kimi fəaliyyət göstərmişdir. Mən aspirant idim və jurnalın bir ildə təkəm-seyrək çıxan, bəzən də iki sayın bir topluda çap olunmuş variantlarını görəndə təəssüf hissi keçirirdim. Cəmiyyətin ictimai-siyasi həyatında olduğu kimi, elmi-mədəni düşüncə sistemində, yaşam və yaradıcılıq ideologiyasında da çatlar yaranmışdır. Ədəbiyyat, sənət, hətta elm adamlarının böyük əksəriyyəti reallığın - sanki "şeir vaxtı deyil!" - diktəsinin təsiri altında maddi firavanlıq, rahatlıq mücadiləsinə qalxmışdı. Hətta elm və ədəbiyyat kimi intellektual-mənəvi sahələrin zəhmətkeşlərini çox vaxt "fanatlar", "elmin fanatikləri" - deyə işarə edirdilər. "Keçid mərhələsi xaosu"nun yeni "dəyərlər", meyarlar ortaya qoyduğu həmin illərdə bir çox sahələrdə olduğu kimi ədəbi tənqid sahəsində də durğunluq yaranmışdı. Ola bilər ki, həmin illərdə tənqid adına imzalardan çox bəhs olunsun, lakin konkret bu sahənin zəhmətkeşləri, prosesi canlandırmağa çalışan "fanatiklər" barmaqla sayılacaq qədər az idi. Ədəbi tənqidin o illərdə ən zəhmətkeş imzası isə, sözsüz ki, Vaqif Yusifli idi.

Vaqif Yusifli ədəbi gənclik, onların ədəbi kimliyi, yaradıcı obrazı ilə bir müəllim kimi davranmağı bacardı. Şeir və nəsr müəlliflərinin ilk qələm təcrübələrini, ədəbi görüş və "izm" estetikasını diqqət və həssaslıqla təhlil edir, onların çap olunması üçün şərait yaradırdı. Mənim Vaqif Səmədoğlu poeziyasından bəhs olunan "Ölüm, səni çox yaşadım..." adlı məqaləmi (30 səhifəyə yaxın) "Azərbaycan" jurnalının "Gənc tənqidçinin tribunası" rubrikasında çap etmişdi. Və ədəbiyyatşünas kimi fəaliyyətimdə məhz həmin "ədəbi kimlik" məsələsi də elə o təqdimatdan sonra mənim üçün aydın oldu. Sözsüz ki, bu yanaşma, dəqiq təyinat təkcə mənə deyil, onlarla başqa müəlliflərə də aid idi. Həmin illərdə elmi rəhbərim professor Cəlal Abdullayevin yarızarafat, yarıciddi dediyi "Hal-hazırda ədəbi tənqid Vaqif Yusiflinin o zəif çiyinlərində dayanıb" - fikrini də unutmuram. Onu da diqqətə çatdırmaq istəyirəm ki, "ədəbi tənqid lazım deyil" - tezislərinin çox səsləndiyi bir dövrdə bu cür ciddi-cəhdlə ədəbi tənqid, eləcə də ədəbiyyatşünaslıq sahəsində fəaliyyəti gücləndirmək və daha istedadlı imzaları ədəbi ictimaiyyətə təqdim etmək işində "Azərbaycan" jurnalının xidmətləri də danılmazdır.

Vaqif Yusiflinin tədqiqat obyektləri ədəbiyyat tarixinin müxtəlif zamanlarına, müxtəlif ədəbi cərəyanlarına, müxtəlif ədəbi növ və janrlarına aid olub həmişə. O, M.Füzulidən də yazıb, öz müasirlərindən, həmyaşıdlarından da, ən gənc, ilk şeirlərini, hekayələrini, bəlkə də tək şeirini, tək hekayəsini yazan müəlliflərdən də... Bu cür yanaşması mənə aydındır, yəni, tənqidçinin borcudur ki, ədəbi hadisə olan əsərlə yanaşı, bəlkə də heç kimin diqqətini çəkməyən bir kiçik bədii nümunəyə də münasibət bildirsin. Bu mənada, V.Yusifli qədər ikinci məhsuldar tənqidçi təsəvvür etmək mümkün deyil. Amma onun artıq yaşı 60-ı, 70-i keçmiş, özünü yaradıcı adam kimi təsdiq edə bilməmiş və daha şair və ya nasir, dramaturq kimi ədəbiyyata fayda verəcəyinə ümid etmədiyimiz adamlar haqqında belə məqalələr yazması həmişə təəccübləndirib məni...

Tənqidi-publisistik məqalələrinin yer aldığı "Sındır qəfəsi" adlı kitabında şeirdə Füzuli olmaq missiyası qabardılır. Daha doğrusu, poeziyada Füzuli ruhunu yaşadan müəlliflərin yaradıcılığı (Əli Kərim, Ramiz Rövşən, Salam, Nisəbəyim və başqaları) təhlil edilir. V.Yusiflinin müqayisəli tənqidi təhlilləri həm klassika və müasirlik, həm də qərb və şərəq, milli və bəşəri ampluada özünüifadə kontekstdə ortaya çıxır. Üslub, dil və vəzn, ədəbi cərəyan, məktəb məsələləri də çox zaman bu uzlaşdırmalar, tutuşdurma və elmi-nəzəri müqayisə paralellikləri vasitəsilə aydınlaşır.

"Poeziyanın yolları və illəri (1961-2000-ci illər)" monoqrafiyasında tənqidçi neçə onilliklərin Azərbaycan şeiri haqqında yazır. Və bu şeirin yaradıcılarını təkcə ədəbi portret kimi təqdim etmir. Hər bir poetik obrazın (şairin) yaratdığında şeirimiz üçün əhəmiyyətli olan yenilikləri, fərqlilikləri ortaya qoyur. "Əruz", "heca", "sərbəst" kimi nəzəri terminləri praktik olaraq şairlərin mətnində analizdən keçirir. XX əsrin əvvələrində daha çox M.Rəfilinin eksperiment kimi yazdığı sərbəst şeirlərin davamı elə həmin əsrin ortalarında R.Rza yaradıcılığında sənət estetikası kimi dəyərləndirilməyə başladı. V.Yusifli bu istiqamətdəki təhlillərini ən cavan sərbəst şeir yazan müəllifə qədər gətirə bilir öz təhlillərində... Müstəqillik dövrü poeziyasını zaman, dövr qəlibində deyil, ədəbi meyar, estetik keyfiyyət, ənənə və yeniliklər kontekstində araşdırır. Yəni, hansısa bir kitab müstəqillik zamanında yazılıbsa daha çox modern və azad sənət nümunəsidir, - deyə yanaşma onun üslubuna yaddır.

V.Yusiflinin ədəbiyyata vurğunluğu həm də onun əsil ədəbiyyat, söz adamlarına səmimi sevgisi ilə təsdiqlənir. Onun bu cür yazılarında bəzən elmi-nəzəri üslubdan kənara çıxaraq, bədii-publisistik üslubda özünüifadəsini müşahidə edirik. Məsələn, Əliağa Kürçaylının 80 illik yubileyi ilə bağlı yazdığı "Gecələr ay olmaq istəyirəm mən" adlı məqaləsində oxuyuruq: "Təəssüf edirəm və özümə bağışlamıram. Niyə mən gözəl şairimiz Əliağa Kürçaylı ilə tanış ola bilməmişəm? Axı, mən tələbə ikən onu Yazıçılar İttifaqında, ədəbi məclislərdə, şeir gecələrində, küçədə, yolda



dəfələrlə görmüşdüm. Bir dəfə Filarmoniyanın Yay zalında onun "Poeziya gecəsi" keçirilirdi və düz iki saat öz dilindən şeirlərini eşitdim. "Azərbaycan" jurnalında təzəcə işə götürülmüşdüm. Kürçaylı bu jurnalın redaksiya heyətinin üzvü idi. 1980-ci ilin soyuq yanvar günlərinin birində jurnalın baş redaktoru Əkrəm Əylisli redaksiya heyəti üzvləri ilə söhbət keçirirdi. Kürçaylı da gəlmişdi. Özü də eşitmişdim ki, xəstədir və bu, onun üzündən də oxunurdu. O, içəri girdi, hamımıza başı ilə salam verdi, sonra Əkrəmin otağına keçdi. Bu, mənim Kürçaylı ilə sonuncu "görüşüm" oldu. Fevral ayında Əliağa Kürçaylı dünyadan köçdü".

Vaqif Yusiflinin haqqında məqalə yazdığı adamların ədəbi portreti, ictimai-siyasi mövqeyi bəzən oxucunun qəbul etmədiyi imzalarla da əlaqəli olur. Və hətta mənə elə gəlir ki, Vaqif Yusifliyə ən çətin bir işi sifariş edir, tapşırırlar çox zaman. İstəsək də, istəməsək də ədəbi portretlərin yubileyi, ölüm, doğum tarixləri ilə bağlı xatırlanması, yada salınması, yeni zaman bucağından təhlil edilməsi zərurəti var. Məsələn. M.Rahimin az-çox ədəbi xidməti, bioqrafiyası haqqında hansı tənqidçi nəsə yazmağı boynuna götürər, bilmirəm. Lakin V.Yusifli onun barəsində səmimi bir yazı yazır. 100 illik yubileyi münasibəti ilə onun yaradıcılığını diqqətlə vərəqləyir... Onun xidmətlərini, daha çox müsbət planda göstərməyə cəhd edərək yazır məqaləsini... Yazını maraqla oxuyuruq, çünki tənqidçinin məqsədi mübaliğəli təqdimetmə yox, sovet ədəbiyyatı müəlliflərindən birinin, xüsusilə daha ziddiyyətli yaradıcılıq yolu keçmiş bir şairin neçə on illər sonrakı xatırlanmasının şəklini, xarakter və mahiyyətini cızır. V.Yusifli təhlilə başlayarkən ilk işlətdiyi cümlələrdən biri belə olur: "Məmməd Rahim dövran şairi idi".

V.Yusifli M.Rahimin "37-ci il" repressiyasındakı mövqeyini və fəaliyyətini gözardına almır. Və onun sovet şairi kimi yazdıqlarını da danmır, təhlildə onun bizdə mənfi fikir formalaşdıran siyasiləşmiş yanaşma tərzini müəyyən ştrixlərlə xatırladır da. Lakin hiss olunur ki, tənqidçi müəyyən güzəştlə M.Rahimi sanki ədəbiyyatımız üçün faydası olan tərcümələrinə (N.Gəncəvinin "Yeddi gözəl" poeması-nı, Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərinin bir hissəsini, A.S.Puşkinin "Ruslan və Lyudmila" poeması və bir sıra digər şeirləri, Y.M.Lermontovun bir çox şeir və poemalarını, A.Blokun "On ikilər" poemasını M.Rahim tərcümə etmişdir), yaxşı sevgi şeirlərinə, mahnı mətni kimi dilləri dolaşan lirik parçalarına və vaxtilə dillərdən düşməyən "Leninqrad göylərində" poemasına, "Cənub şeirləri"nə görə bağışlatmaq istəyir. "Məmməd Rahimi bu gün sırf sovet şairi, yaxud sovet dövrünün şairi kimi təhlil edənlər çoxdur. Burada həqiqət bundan ibarətdir ki, doğrudan da Məmməd Rahim bir çox şeir və poemalarında sovet quruluşunun tərənnümçüsü olmuşdur, ilk şeirini yazdığı 1926-cı ildən ömrünün sonuna qədər o, öz məsləkindən dönməmişdir. Buna görə isə nə Məmməd Rahimi, nə də digər şairləri qınamaq olmaz. Heç şübhəsiz, Məmməd Rahimin vaxtilə partiyaya, Leninə, Stalinə, komsomola həsr elədiyi şeirlərin, S.M.Kirova ithaf etdiyi "Ölməz qəhrəman" poemasının indi heç üzünə baxan da yoxdur, necə ki, o dövrdə yaşamış digər şairlərin eyni mövzuda yazdıqları şeirləri, poemaları kimi.

Ancaq bir həqiqət var ki, şairlərin yaradıcılığını təhlil edərkən ictimai-siyasi münasibəti və mövqeyi mütləqləşdirmək olmaz".

V.Yusifli mövzu aktuallığı prinsiplərini də incələməyə, izləməyə vaxt tapır. Qarabağ mövzusu, cəmiyyət həyatında baş verən deqredasiyaların fəsadları, mənəvi tənhalığın xarakter və şəxsiyyət obrazında inikası, cəmiyyət və fərd dramatizminin kontrastı və s. bu kimi problemlər onun nəzəri yanaşma, araşdırma mahiyyətli yazılarında həm poeziya, həm də nəsr kitablarına yazdığı rəy və resenziyalarda da diqqəti cəlb edir. "Bölgə ədəbiyyatı" adlı istilahı böyük ədəbiyyat söhbətləri müqabilində həmişə qüsur hesab etmişəm. Məncə, bu ifadəni işlətmək doğru deyil. Lakin V.Yusiflidə xüsusilə müşahidə etdiyim bir humanist yanaşma da onun bizlərdən fərqli qayğıkeşliklə ucqar kəndlərdə belə bədii mətn yaradan və yazdıqları haqqında ədəbi qiymət gözləyən müəlliflərə qarşı həssas davranışıdır. Onun kitablarını vərəqləyəndə ədəbi mənzərənin bu qədər geniş olduğuna təəccüblənirsən. Sanki Azərbaycanda hamı yazır və hamının yazmasında da bir fayda var ədəbiyyatımız üçün... Yəni, yaxşı bir şeiri, hətta bir bəndi, beyti, misrası olan adamı da dəyərləndirməyə çalışır. Məncə, biz ədəbi meyarlardan təkcə ədəbiyyatın qapısını hamının üzünə açmaq statusu kimi istifadə etməməliyik. Bəlkə ədəbi-nəzəri, bədii-estetik qanun və qaydaları daha sərt şəkildə tətbiq edərək sözün müqəddəs qapısını çox-çox istedadsızların üzünə bağlamalıyıq? Bəzən V.Yusiflinin ürəyiyumşaqlıqla "içəri" - ədəbiyyata dəvət etdiyi adamın ədəbi fiqur kimi istedadsız və lazımsız olduğunu sübut etmək mümkün olmur...

**Amma razılaşaq ki, biz hamımız işıq axtarırıq, kimimiz projektor effektli, kimimiz isə qaranlığı bir şam şöləsinin saçdığı, aydınlatdığı işartı ümidli işıq! V.Yusifli ədəbiyyata gəlmək istəyən və gələn, hətta ədəbiyyat tarixindən zamanın özünün dəst-xətti ilə çıxarıb atdığı imzaların da simasında, ruhunda, qələmində işıq və ədəbi istedad axtaran tənqidçidir... Aristotel deyirdi ki, "yalnız həyəcanlanan həyəcanlandıra, qəzəblənən qəzəbləndirə bilər". Bu mənada ədəbiyyatı bu qədər dərindən sevən və onun inkişafına bu qədər səmimiyyətlə xidmət edən adam onu sevdirə bilər. Vaqif Yusiflinin 70 yaşı tamam olur. Bu ömrün böyük hissəsi Azərbaycan ədəbiyyatı, publisistikası və ümumilikdə mədəniyyətinə xidmətdə ötüb keçib... Arzu edirik ki, sağlamlığı möhkəmlənsin, qələmi tutarlı yazar olsun daima. Qaldı, ürəyiyumşaqlığa, bilirəm ki, Vaqif müəllimin bu xasiyyətini dəyişmək olmaz. Onun xislət və fəaliyyətində, şəxsində hörmətə layiq çox keyfiyyətlər var. Mən bir həmkar kimi bütün bunlara görə ona daima sayğı ilə yanaşmaqda davam etməkdəyəm...**

# Almaniyanın Münxen şəhərində Azərbaycan musiqisi təqdim olunub



**Azərbaycanın Almaniyadakı səfirliyi tərəfindən Münxen şəhərinin tanınmış Sənətkarlar Evində (Münchener Künstlerhaus) konsert təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Bavariya Lantaqının (əyalət parlamenti) deputatları, əyalətin hökumət qurumlarının təmsilçiləri, Münxendə akkreditə olunmuş konsullar, KİV nümayəndələri, elm və mədəniyyət xadimləri, eləcə də Bavariyada yaşayan Azərbaycan, türk, yəhudi və digər icmaların fəalları iştirak ediblər.

Tədbirin başlanğıcında səfirlik tərəfindən hazırlanmış "Azərbaycanda alman irsi" adlı qısa film nümayiş olunub.

Azərbaycanın Almaniyadakı səfiri Nəsimi Ağayev çıxışında ölkələrimizin münasibətlərinin qədim tarixə malik olduğunu, Azərbaycanda ilk alman məskənlərinin təxminən 200 əvvəl qurulduğunu, o zamandan etibarən almanlar və azərbaycanlılar arasında xoş və mehriban dostluq münasibətlərinin təşəkkül tapdığını qeyd edib. Azərbaycan-Almaniya münasibətlərinin müasir vəziyyətinə toxunan səfir, qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin dərinləşməsində mühüm rol oynadığını vurğulayıb. Bu xüsusda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin cari ilin mart ayında Almaniyaya uğurlu səfər etdiyini bildirən diplomat, sözügedən səfərin ikitərəfli münasibətlərin inkişafında yeni səhifə açdığını söyləyib.

N.Ağayev ikitərəfli iqtisadi münasibətlərdən də bəhs edərək, Bavariya əyalətindən olan şirkətlərin bu münasibətlərdə xüsusi yerinin olduğunu, Almaniya ilə həyata keçirilən ticarət dövriyyəsinin təxminən üçdəbirinin bu əyalətin payına düşdüyünü və Bavariyanın 177 şirkətinin Azərbaycanla əməkdaşlıq etdiyini deyib. Səfir əyalətlə olan iqtisadi əlaqələrin yaxın gələcəkdə daha da inkişaf edəcəyinə ümid etdiyini diqqətə çatdırıb.

Bavariya Landtaqının CSU (Xristian Sosialistlər İttifaqı) fraksiyasının sədr müavini Aleksandr Köniq qeyd edib ki, Bavariya ilə Azərbaycan arasında münasibətlərin, o cümlədən iqtisadi əlaqələrin böyük potensialı var. Deputat, həmçinin son dövrlər Azərbaycanın Avropa, o cümlədən Almaniya üçün enerji təchizatçısı kimi rolunun artdığını vurğulayıb. O, əməkdaşlığın bundan sonra yüksələn xətlə inkişaf edəcəyinə əminliyini bildirib.



**Çıxışlardan sonra Almaniyada yaşayan və fəaliyyət göstərən gənc azərbaycanlı musiqiçilər - pianoçu Nərmin Nəcəfli və opera müğənnisi Mərziyə Hüseynova Azərbaycan və Avropa bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı ilə çıxış ediblər. Sənətçilər tərəfindən ifa olunan dahi Azərbaycan bəstəkarları Qara Qarayev, Fikrət Əmirov, Asəf Zeynallı, Vaqif Mustafazadə, Niyazi və Adil Bəbirovun, eləcə də avropalı bəstəkarlar Frederik Şopin, Robert Şuman və Çarls Qunodun əsərləri tamaşaçılar tərəfindən böyük rəğbətlə qarşılanıb.**

## *Vaqif Yusifli: "Aptek müdiri deyiləm ki, dərman yazam o şair də..."*

**Xəbər verdiyimiz kimi bu gün filologiya elmləri doktoru, ədəbi tənqidçi Vaqif Yusiflinin doğum günüdür. Vaqif Yusifli Adalet.az-a açıqlamasında bu gün bir çox tanınmış şəxslərin dünyaya gəldiyini bildirib:**

"Təbrikiniz üçün çox sağ olun. Bu gün 75 yaşım tamam olur. 20 apreldə Napoleon, Hitler, Rza Təhmasib, Məmməd Rahim, Çingiz Hüseynov,, Qulu Ağsəs, Zenfira Nərimanova, Nəsibə Zeynalova kimi məşhurlar doğulublar. Mən də bu gün dünyaya gəlmişəm".

V.Yusifli ömrünü şərəflə yaşadığını və heç kimə pislik etmədiyini bildirib:

"Gəncliyimdə qocalığımı arzulayırdım. Deyirdim ki, görən o yaşa çatanda necə olacaq, tanınacağammı? Əlbəttə, bu arzuma çatdım, az-çox məni tanıyırlar. Amma yenidən gəncliyimə qayıtmaq istəyirəm, çünki qocalıq xəstəliklər gətirdi. Yenə də sevinirəm ki, bu yaşıma qədər yaşamışam və heç kimə pislik etməmişəm. Həmişə də xeyirxahlıq mövqeyində dayanmışam. Ədəbiyyata xidmət etmişəm.

Heç vaxt fikirləşməmişəm ki, villam, pulum olsun. Onların heç biri olmayıb. Amma kişi kimi yaşamışam".

V.Yusifli tərifi sevmədiyini bildirib:

"75 illik yubileyimlə bağlı Azərbaycan Yazıçılar Birliyində tədbir keçirmək istədilər. Amma razılıq verməmişəm. Çünki salon dolacaq, hamı durub məni tərifləyəcək. Mənim də tərifdən o qədər xoşum gəlmir. Məni tərifləyənlər olur, ürəyimdən keçən tərifləri o adamlardan gözləyirəm kimdən gözləyirəmsə, hamısı deyib. Amma mənim isə təriflərim kompilimentar tərif deyil, təhlil edə-edə orta səviyyəli şairin beş şeiri varsa, ondan yapışıram. Düşünürəm ki, bəlkə bu tərifim, təhlilim onu qaldıracam. Bəzən görürəm ki, köməyim dəyir. Amma mən aptek müdiri deyiləm ki, dərman yazam və o da yaxşı şair olsun. Hər kəsin öz yolu var, amma tənqid də lazımdır".

**Vasif Əlihüseyn**

# "Nə o - yelkən, nə bu - gəmi"




***Heç dəniz də o dəniz, sahil də o sahil deyil...***
***Belə yaşamaq olmur;***
***Pərdəni çək,***
***Bir az qaranlıq düşsün evə...***

***Biz də o biz deyilik heç...***
***"Dünya haçan azad olar?" - dedin,***
***Bilmirəm, ana...***
***Ancaq biz azad olacağıq dünyadan!***

"Nə o - yelkən, nə bu - gəmi" Qardaşxan Haqqararın "Elm və təhsil" nəşriyyatında çap olunan yeni kitabıdır. "Dualar" bölməsində:

***"Göy şeiridi mənim şerim***
***Göydə işarələr olmur" -***

deyən müəllif burada durğu işarələrindən istifadə etmədiyinə haqq qazandırmağımızı istəyir.

Qardaşxan "İmza yerinə rəmzi qılınc" bölməsində ədəbi cəsarət simvolu yazar Rafiq Tağının xatirəsinə həsr etdiyi poetik nümunələrin qələmə, sözə terrora qarşı etiraz şeirləri olduğunu xüsusi vurğulayır.

Kitabda "Nə o -yelkən, nə bu - gəmi" və "Qafiyəsiz poeziya" adlı daha iki bölmə var.

***Bu başsız külək də lap eyləyib ağ,***
***dənizə dağ çəkir,***
***hər dalğa - bir dağ.***
***Bir tufan qaldırıb ya xilas olmaq,***
***ya da öz içində batmaq istəyir, -***

misraları bütövlükdə bu nəfis nəşrdəki şeirlərin azadlıq ruhunu yaxşı ifadə edir.

Kitabın redaktoru filologiya üzrə fəlsəfə doktoru Ülvi Babasoydur.

# İşğaldan azad olunmuş ərazilərə “Böyük Qayıdış”

№ 15 (2339) 21 aprel 2023-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# COCUQ MƏRCANLIYA DÖNÜŞ

**Dünyada şirin şey çoxdu. Məsələn, bal şirindi, bəhməz şirindi, övlad şirindi, amma onlardan da şirin Vətəndir! Bəlkə də balsız, bəhməzsiz keçinmək olar və buna görə heç kəs xəstələnməz, amma övladsız və Vətənsiz keçinmək çox çətindir və bəzən də insanlar bu dərdə, bu həsrətə, bu kədərə dözməyib, dünyalarını dəyişirlər. Axı, dedik, Vətənin şirinliyini heç bir şeylə əvəz eləmək mümkün deyil. Nahaq yerə deməyiblər ki, ”Gəzməyə qərib ölkə, ölməyə Vətən yaxşıdır!”. Ancaq buna bir əlavə eləmək istəyirik. Elə gəzməyə də, yaşamağa da, ölməyə də Vətən yaxşıdır. Və bir də ki, niyə ölürük ki, gül kimi Vətənimiz, yurdumuz, elimiz-obamız var?! Onu qoruyub, onu müdafiə eləyib, onu tikib, elə o yurdda yaşamalıyıq!**

Cocuq Mərcanlılar da uzun müddət yurda həsrət qalıblar. Düzdür, 1994-cü ildə Füzulinin 22 kəndi və bir şəhəri işğaldan azad olunanda Cocuq Mərcanlı da ermənilərdən geri qaytarılmışdı. Ancaq buna baxmayaraq, orada tikinti işləri aparmaq, abadlıq-quruculuq işləri görmək elə də asan deyildi. Çünki ”Lələtəpə” yüksəkliyində yerləşmiş ermənilər o mövqedən tez-tez Cocuq Mərcanlını və hətta Horadiz şəhərini ağır artilleriyadan və digər silahlardan atəşə tuturdular. Belə ki, 2016-cı ilin aprelində ağır döyüşlər başlayanda, ”Lələtəpə” yüksəkliyi və eləcə də, Cəbrayılın, Füzulinin 100 hektarlarla torpaq sahəsi yenidən erməni işğalından azad edildi. Demək olar ki, həmin yüksəkliyin Azərbaycan Ordusunun əlinə keçməsi erməniləri yaxınlıqdakı mövqelərdən xeyli uzaqlaşdırmağa şərait yaratdı.

Qısa müddətdə Cocuq Mərcanlıda abadlıq-quruculuq işləri görüldü. Hətta qarşı tərəfdən atılacaq atəşin qarşısını almaq üçün torpaqdan istinad mövqeləri də tikildi. Bu zaman kəsiyində kənddə çox böyük inşaat işlərinə start verildi. 200-ə qədər müasir tələblərə cavab verən mənzilin tikintisi bir il müddətində başa çatdırıldı. Eyni zamanda kəndə müasir standartlara cavab verən asfalt yol, su, işıq və qaz xətti çəkildi. Əhalinin rahat yaşaması, işləməsi və burada məskunlaşması üçün sosial obyektlər - məktəb, xəstəxana, uşaq bağçası və eləcə də bir çox idarə və müəssisələrinin inzibati binaları tikildi. Ən möhtəşəm iş isə Cocuq Mərcanlıda Şuşa məscidinin bənzəri olan məscidin inşa edilməsi idi.




İlk dəfə kəndə köç edənlərdən olan Cavanşir Əhməd oğlu Məmmədov deyir ki, kəndimizdə tikinti işləri başlayan kimi tez-tez yolumu ora salırdım. Tozlu, palçıqlı kəndimizin hər qarış torpağından öpmək istəyirdim. İnanın, tikinti başlayanda onların yanına gəlmişdim, inşaatçılar dedilər ki, müəllim, burada çox durmayın, toz-torpaq udarsınız. Mən də dedim ki, mən bu günü uzun illər həsrətlə gözləmişəm, bu kəndin tozu da, torpağı da mənim üçün bal kimi şirindi. Tək mən yox ey, o vaxt tikinti işlərinə Cocuq Mərcanlıya kimin yolu düşürdüsə, elə mənim keçirdiyim hissləri yaşayırdı. Kəndimizə ilk dəfə gələndə tək gəlmədim. Həyat yoldaşımı, uşaqlarımı, evimizin əşyalarını götürüb, birlikdə bu ocağa qayıtdıq. İnanırsınız, nə qədər sevinirdik. Təzə tikilmiş və bizə verilmiş 3 otaqlı mənzilin daşından, divarından, hətta döşəməsindən belə öpdük. Oğlum dedi ki, ata, nə yaxşı kəndimizə qayıtdıq. Mən bu kəndi uşaq vaxtı görmüşdüm. İndi 40-a yaxın yaşım var. Balaca oğlumsa, ayaqqablarını soyundu. Həyətdə ayaqyalın o yana qaçdı, bu yana qaçdı. Həmin vaxtı bir yağış yağdı ki, tut ucundan göyə çıx! Amma oğlumu nə qədər çağırdıq, qayıtmadı, yağışın altında yenə o yana qaçırdı, bu yana qaçırdı. Axırda cumculuq su olub otağa girdi və sevincindən hönkür-hönkür ağladı. Mən də dedim ki, bala, ağlama, şükür ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Ordumuzun köməkliyi ilə kəndimizə qayıtdıq. İşnaatçılar da çox sağ olsun ki, kəndimizi yenidən tikib bizə verdilər. Yağış da ki, ruzi deməkdir. Yağış yağırsa, deməli ruzumuz bol olacaq!

Cocuq Mərcanlıya qayıtmış onlarla sakinlə söhbət elədik, onların hamısı dedilər ki, qardaş, ev-eşiyin, Vətənin yerini heç nə verə bilməz. Bax, mən 80 yaşın içindəyəm, məcburi köçkünlük dövründə İmişlidə yaşamışıq, onları da çox sağ olsun, bizə qucaq açdılar, uzun müddət şərait yaratdılar. Amma mənim ölən vaxtımdır, Allaha dua eləyirdim ki, İlahi, mənə ömür yox, möhlət ver, Cəbrayıla qayıdaq, ondan sonra öldürərsən! Biz Cəbrayıla qayıtdıq, Cocuq Mərcanlıda 3 otaqlı ev aldıq və indi də rahat yaşayırıq. Yaşım 80-i keçməyinə baxmayaraq, Vətənə gələndən sonra ağrım-acım azalıb, özümü də gümrah hiss eləyirəm, 5-10 da qyoun-quzum var, oğlum alıb verib ki, get başını qat! Mən də səhər saat 5-də yuxudan dururam, qoyun-quzunu götürüb örüşə aparıram, orada təmiz hava uduram və özümü daha yaxşı hiss edirəm. Əvvəllər 10 qoyun idi, indi maşallah, qoyunlar doğub, 5 də quzum var. Bir sözlə, bu yurda, bu Vətənə, kəndimizə qayıdandan sonra dolanışığımız və yaşayışımız daha yaxşılaşıb.



Nəsir Əhmədov adlı kənd sakini deyir ki, bizə həyətani sahə ilə bərabər əlavə torpaq da verilib. Elə həyətimizin özündə də tərəvəz məhsulları əkirik, nə soğana, nə pamidora, nə də digər göy-göyərtiyə pul veririk. Üstəlik də toyuq-cücə saxlayırıq. Onların da yumurtasından və özündən istifadə eləyirik. Artıq qalanısa bazara çaxırab satırıq. Fikrimiz var ki, bir inək, bir camış alaq. Çünki o heyvanlar daha bərəkətlidir, qatığını, südünü yemək olur, özünüsə yeri gələndə baha qiymətə satmaq da mümkündür. Bizdə elə fərasətli, işgüzar adamlar var ki, əkin sahələrində taxıl, kartof əkir, bostan-tərəvəz məhsulalrı yetişdirir. Məsələn, qonşumuz Kərim kişinin uşaqları çox bacarıqlıdır. Həm sahədə taxıl əkirlər, həm də bostan-tərəvəz məhsulları.

Ötən il onların əkdiyi və yetişdirdikləri qarpızın, yemişin dadından doymaq olmurdu. Satdıqlarını satıb, yaxşı pul qazandılar. Hələ qonşulara da pay-pürüşt verirdilər. Kartofu demirsən, kartof elə bil bal dadırdı, sapsarı idi. Başqa yerdə kartoflar belə dadlı deytl. **Görünür, Qarabağın torpağı bərəkətli olduğu üçün hər məhsulu daha dadlı və şirin olur. Həyətimizdə gilas, alma, gilanar, ərik, şaftalı və alça ağacları əkmişik. Heç bir il keçmədi ki, hamısı bar verdi. Heç yerdə ərik olmayanda bizim kənddə ərik də oldu. Sözümüzün canı odur ki, yurda qayıtdığımıza görə, Ulu Öndər Heydər Əliyevə, Prezident İlham Əliyevə və Azərbaycan Ordusuna öz minnətdarılğımızı bildiririk. 2020-ci ildə İkinci Qarabağ savaşında ermənilər Cocuq Mərcanlını da atəşə tutmuşudlar. Orada bir çox yaşayış binalarına və infrastuktura ciddi ziyan dəymişdi. Amma sonradan qısa zaman kəsiyində həmin tikililər yenidən inşa edildi, yollar bərpa olundu, insanlar üçün bütün lazıımi şəraitlər yaradıldı. İndi aprel ayıdı, bu yurd, bu ocaq daha da gözəlləşib. Cocuq Mərcanlılar deyir ki, yurda qayıdışın sevincini bundan sonra da ömrümüz boyu yaşayacağıq və bu kəndin, bu ocağın yerini heç bir şey verə bilməz. Kəndin bütün ağacları yaşıllaşıb, insanlar bir qədər də rahatlaşıb. Çünki Cocuq Mərcanlılar yurda qayıdışdan sonra neçənci yazı belə qarşılayır və rahat ömür yaşayırlar!!!**

**FAİQ QİSMƏTOĞLU**


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ


# Görsən üşüyürsən…yandır özünü...



*Qulu Ağsəs*

"Ulduz" jurnalının baş redaktoru, tanınmış şair Qulu Ağsəsin şeirlərini təqdim edirik:

***

Görsən ki, qaranlıq çökür aləmə,
Görsən ki, axşamdı...fikir eləmə.
Bir uçuq yuxudu gecənin boyu
Nə qədər imkan var rahatlan, uyu...

Qəflətən bir çağa salar hay-həşir
Səhər - körpəsidi doğan Günəşin.
Onu ovutmağa tələsər hamı,
Beləcə, salarlar yenə axşamı.

Təzədən qaramat basar dünyanı,
Hanı doğan Günəş?körpəsi hanı?
... Görsən hər tərəfdən əlin üzülür,
Görsən üşüyürsən...yandır özünü...

***

Özün dağ başına qoyan şəhərin
ayağın xan kəndi yuyurdu
kürəyinin təri
cıdırda soyuyurdu.
Girməzdi
dumanına gün işığı,
havasına çay qaşığı.
Qayaları sərxoş idi,
adamları tay-tuş idi,
küçələri tay-keş idi.
Qəbirüstü yazıları
nəğmə kimi oxunurdu,
kolda-kosda tələf olan
qurd-quşu gül qoxuyurdu.
Kim idi qalxan o boyda dağı? -
yağışdan sallanıb enirdi qonağı.
... Dağın dizləri əsdi bir may səhəri
gözünün yaşı
ayağının suyuna qarışdı şəhərin...

***

Canım-gözüm,şükür de ki,
Ölsən də başın üstdəki -
Pəmbə buluddu, daş deyil...

Sevməyi var, sancmağı var
Baxma hərdən uçmağı var -
Ürək yuvadı, quş deyil...

Neynəyərəm görən sənsiz?!
Ha istədim öləm sənsiz -
Baxdım ki, mənlik iş deyil...
Bu da mənim baxtımdandı,
Gözüm Tanrı taxtındadı -
Onun da yeri boş deyil...

### *Müharibə əlili*

Üzdü ayaqlarımı Vətən yolu
qayıtdım üzüqoylu...
qayıtdım
qurşağımın yuxarı qatıyla,
qayıtdım
əlil arabasının atıyla...
İki balam gözüyaşlı
arvadım başıdaşlı...
Yazıq hər əmrə müntəzir:
həm məni gəzdirir,
həm ... özü gəzir...
Süfrəmdə haram var -
dinmirəm,
İki ac balam var -
dinmirəm.
Dinmirəm
gül ağzı açılanda heyrətin:
"Vətəni qorudun, bəs öz qeyrətin?!"
... Üzdü ayaqlarımı Vətən yolu
bu da mənə "sağ ol"u...

***

Dan yeri - gecənin göydə od tutan
bağrıdı.
Xəbərin varmı? -
Bilmirəm.
Bir də yarpaq salma külək poçtuna.
Bağlıdı.
Xəbərin varmı? -
Bilmirəm.
Ürəyin - içəri qapındı Sənin,
Aç görək, nəyin var
qabında Sənin?!
Ömür-gün bölünüb... qalıqda
Səni Saxladı.
Xəbərin varmı? -
Bilmirəm.
Hərəmiz borcludu
bir can ölümə,
Ölsək də, tapmarıq
əncam ölümə.
Tanrı qırmır bizi... Ancaq
ölümə yoxladır.
Xəbərin varmı? -
Bilmirəm...

***

Allaha baxmasaydım,
girməzdin yuxuma da!
Torpaq kimi soyuyur -
ən isti, yaxın adam...

Harda itib - batmısan,
hayına çağır gəlim.
Toyuna çağırmadın,
vayına çağır gəlim...

De, necə tapım səni,
nə mərdəm, nə ov iti.
Sənin izin, ünvanın
mənim axırım itib.

Bəlkə veriblər səni
Tanrının yaddaşına?
Mən sənə söz tapşırım,
sən də öz adaşına:

Nə olar, ayırmasın
de, ikimizdən məni!
Getdin?.. sənə yaxşı yol,
gəlməsən, gözlə məni...

***

Bu şaxtada daş da töksə,
Elə bil ki, qar yağır.
Yanvar ayına göylərdən
Ötənilki qar yagır.
Ha qar yağsın, bağlanarmı
Sevənlərin iş yeri?-
Qar altdakı ağacların
Altdakı görüş yeri.
... Bircə mənəm qardan qorxan
Başıma dəyər azıb:-
Çiynimdəki mələklərin
Atdığı qar topası...

***

Bu dünyada heç kəsə demədim...
O dünyada soruşsalar:
sən kimsən? -
gözümü yumub, ağzımı açacam!
Deyəcəm ki:
altındakı skamyada
bir yol özü oturmayan
yorğun ağacam...

***

Dilimdən düşmür bir ad
nöqtələr
Tanrıdan gözəl cəllad
nöqtələr
Dərdidi dərmanımın
nöqtələr
Arasında qanımın
nöqtələr
Yel vurduqca tökülür
nöqtələr
"Göy" suala bükülü
nöqtələr
Qələm-varaqdı, bir də
nöqtələr
Göydə Allahdı, yerdə
nöqtələr

***

Qələt eləyərəm desəm:
Hamı qələt eləyir...
Allah bizi xəlq eyləyib,
Yoxsa lənət eləyib?!

Qaç bu xain yuvasından
Əri, yox ol havada.
Qorx ki, yenə yerdən çıxa
Buluddan dama adam...

Baş açmazsan:
yaşdı, ya da daş?! -
Damarında qan durar.
Gözündən düşən nədisə,
Ayağını sındırar...

Bu da axır...
bu da xilas...
Son gecə...
səhər ertə...
Qoşulub göyün quşuna
Üstündən saat ötər...

***

Anam
bu dünya evində
tumanı qırışanacan oturdu.
Dan atdı-
gün batdı,
şər qarışanacan oturdu.
Axşam
qonşu arvad
çay süzdü,
yemək çəkdi ərinə.
Anam
başımız üstdən
yollandı atamın iş yerinə.
Bilirəm,
tapıb onu-
lap qır qazanında olsa.
Hər yer
cənnətdi kişiyə-
arvad yanında olsa!
Görən nə deyib məndən
anam orda atama?!
Bircə "yetim" deməsin-
kişi utanar...

***

Yorulub oturdum
varağın bir küncündə,
ürəyim it kimi ulayır
it kimi...
at gücündə.
Qışa bir taya şeir yığmışam
sözü misraya vura - vura.
Günəş - müqəvva görünsəydi
gecəni quş kimi qorxuzub uçura...
Düşünürəm:
Yaşamaq!
- dünyanın ən zor işi!
Yaşamaq!
- irəli qovaraq keçmişi!
Fəqət...
istəyirəm əcəl gələndə
qarşımda heç nə dayanmasın.
Məni elə çağırsın ki,
sevgilim yuxudan oyanmasın...

***

Yastıq qoyub başımıza
əcəb yatırdın bizi.
Aç gözünü, qaranlığın
Qırıb batırdı bizi.

Milyon illərdi yeyirik
Süfrənin qırağından.
Çörək bizi tutar deyin,
Dinmirik qabağından.

Nə boydasan görən heylə?
Bir ölçüyə gəlmirsən?
Baş çəkmirsən qullarına
Bizə niyə gəlmirsən?

...Özünü görməsək də,
Xofun yamandı, Allah!
Bizi qırıb qurtarmamış,
Ölmə, amandı, Allah!..

***

Kimsən, nəçisən, ay Allah -
Heç səndən baş tapammadıq.
Özün qurduğun dünyada
Sənə bir iş tapammadıq.

Günün necə keçir barı,
Can verib can almağınan?..
Səni nəynən bəndə salaq,
Tutaq hansı qarmağnan?!

Görsək, heç nə eləmərik,
Bir üzünü göstər bizə!
Yaxşı günün əgər busa,
Yaman günü göstər bizə!..

Neyləsən, sevirəm səni,
Qulunam, gəl min boynuma!..
Bu şeiri də sən yazmısan,
Babalı mənim boynuma...

***

Bir yol yatağından qalxmayan bu çay
Qoluna döyməni nə vaxt yazdırıb?
Qış günü soyuqdan ölən ağacın
Yasına mart ayı yarpaq yazdırıb...

Başını yelləsən, külü közərir,
İşıq vermir, amma işıq söz verir.
Bircə eybi var ki, dünya gözəlin
Məni qucağına qonaq yazdırıb...

Şükür o göydəki ismin halına,
Şükür yağışına, şükür qarına.
Şükür adımızı öz jurnalına
Əcəl adqoydudan qabaq yazdırıb...

***

Başının ağrısı
alnında şırım açan
kotandandı...
köçəri quşlara vətən - dəndi;

Narı sümürürsənsə,
süddən yanıqsan...
Gözünlə qaşının arasındakı
qapı açılan gün...
o yanlıqsan...

Meşələr
qışda Günəşə
odun atmaq üçündü...
Yaydan çıxan oxlar
payıza çatmaq üçündü...

***

Bunu ancaq sənə danışıram-
Bircə balama
Kasıb evində bağlanmış
Turşu bankasıdı atan.
Ağzı hərdən açılır-
bayramdan bayrama.
Sənin dünyaya gəlişin də
Bayramdı deyə
Bir -iki sözüm olacaq
Allah eləsin oxşamasın
sağlığa,
nəsihətə,
öyüdə,
gileyə.ətin gündə, bərk ayaqda.
Quş quşla ötmür balası,
Şair şairlə dilləşmir.
Quş budaqda oxuyur,
şair varaqda.
Qadına yalan danışmazlar,
Həqiqət kişidi, səhv eləmirəmsə.
Əlbəttə, kişi lazımdı qadına.
Kişiyə gerçəyi deməzlər,
yalan qadına oxşar na görə hər kişinin
ürəyindən
baxmaq keçər yalanın dadına.
Bir də unutma,
Mən kimsəsizliyimdən
bənzərsiz oldum,
Sən deyəsən atana oxşayacaqsan.
...Bu qədər, balası.
Gecdir ,uyu.
Gör göy üzü nə qədər qayğıkeşdir,
gecənin kürəyinə
ulduzdan piltə qoyur.

***

İşdi-qəzadı
səndən əvvəl ölsəm,
məni son mənzilə aparırlar görsən,
vəsiyyətimə əməl elə:
Arxamca su at,
uğur dilə.
Saçını yolma,
köksünü ötürmə.
Allahın yanına gedirəm
ürəyinə ayrı şey gətirmə,
Borclunun qapısın döyərlər:
Yeganə borclu qaldığım
əvəzini vermədən aldığım
son nəfəsdən özgə
kimsəni qapıma yaxın qoyma.
Bir də
ta uşaq deyilsən
burnunun suyunu
gözündən axıdan
bu faniyə uyma...

***

Dağa bax...sən allah
nə gündədi
Ayağı ayağına dolaşan
beş-altı ağacdı
qozbel torpağı
balatası qaçmış kündədi...
Dili yoxdu
ildırım vuranda çığıra
pulu yoxdu
özünə lift çəkdirə,
dərəni qonaq çağıra...

***

Rəngsizdi, tamsızdı,
ətsiz-qansızdı,
Allahsız, imansızdı,
Mən çəkən dərdlər.

Nəfsi bıçaqdan iti,
içimi dağıdır, didir,
vecinə deyiləm qəti
Mən çəkən dərdlərin.

Nə ət deyil,
nə siqaret
Deyəsən çəkildi, qurtardı.
...Dünya, Tale, Tanrı deyilən
nə var hamısı günahkardı
Mən çəkən dərdlərə.

Dərdi nə çəkiləsidi,
nə qaçılacaq,
Mən çəkən dərdlərin.
...Bir gün "sərgisi" açılacaq,
Mən çəkən dərdlərin.

***

Yazırsan: "Ölürəm..."
Min şükür, alqış!
Nə yaxşı, sevgidən ölən hələ var.
Demə, kişidən də mələk olarmış,
Əzrayıl olanda axı nə olar...

Bilmirəm dünyanın xoşbəxti deyim,
Bilmirəm dünyanın bədbəxti sənə.
Düzü, istəmirəm xətrinə dəyim,
Cavab axtarıram nə vaxtdı sənə...

Kimsə ayağını qoymaz içəri -
Könlümün keşiyin balam çəkirsə.
Sevgi ötən gündür məndən ötəri,
Sən məni sevməklə dala çəkirsən.

Cavab məktubumda sözlər baş-ayaq,
Bir ucdan yazilir, pozulur elə.
Qorxuram öləsən sevgin yaşaya,
Qorxuram qalasan - məhəbbət ölə.

## Xalq artisti: “Bu görüş bir iş adamının təklifi ilə baş tutacaq...”



**Xəbər verdiyimiz kimi mayın 7-də Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası nəzdində Opera Studiyasının konsert salonunda Xalq artisti Rasim Balayevin yaradıcılıq gecəsi keçiriləcək. Adalet.az-a açıqlamasında Xalq artisti Rasim Balayev bu tədbirin bir iş adamı tərəfindən həyata keçiriləcəyini bildirib:**

”Bu il mənim 75 illik yubileyimdir. Bir iş adamı var, o dedi ki, mən sənət adamlarıyla bu cür görüşlər keçirirəm. Bir neçə nəfərlə bu görüş olub və onlardan biri də Xalq yazıçısı Çingiz Abdullayevdir. Mənə də bu təklifi etdi və qəbul etdim. Düşünürəm ki, görüş çox maraqlı keçəcək. Çəkildiyim filmlərdən fraqmentlər göstəriləcək, insanlarla söhbətimiz olacaq. Əlbəttə, bu cür görüşlərin keçirilməsi müsbət addımdır, adam çox istəyir ona diqqət göstərilsin, tamaşaçılarla canlı ünsiyyətdə olsun”.

Qeyd edək ki, 1948-ci ilin avqustun 8-də Ağsu rayonunda anadan olan Rasim Balayev elə orada orta məktəbi bitirib və 1969-cu ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun məzunu olub. Rasim Balayev ilk dəfə Bakı kinostudiyasında ”Ulduzlar sönmür” əsərində kiçik bir rolda çəkilib. Oynadığı ”Nəsimi”, ”Babək” və ”Dədə Qorqud” filmlərindəki rollarla tamaşaçıların sevgisini qazanır. O, həmçinin ”Azərbaycanfilm” kinostudiyasının nəzdində fəaliyyət göstərən kinoaktyor teatr studiyasında da çalışıb. Böyük və çətin rollardan əlavə Rasim Balayev kiçik rollarda da oynayıb. ”Bu şirin söz, azadlıq”, ”Sənin birinci saatın”, ”Xoşbəxtlik səhnəsi”, ”Mən hələ qayıdacağam”, ”Birisigün gecəyarısı” kimi filmlərdə o, epizodik rollarda çəkilib. Eyni zamanda, ”Özbəkfilm”, ”Mosfilm” və başqa studiyalarla əməkdaşlıq edərək, onların da filmlərində çəkilib.

**Vasif Əlihüseyn**

## Günay Əfəndiyeva Baxromjon Aloyev ilə görüşüb



**Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva təşkilat tərəfindən Daşkənddə keçirilən ”Şuşa Günləri” çərçivəsində Özbəkistan Respublikasının xarici işlər nazirinin müavini Baxromjon Aloyev ilə görüşüb. Görüşdə Azərbaycan Respublikasının Özbəkistan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Hüseyn Quliyev iştirak edib.**

Görüşdə bu il Özbəkistanın Türk Dövlətləri Təşkilatına sədrlik etməsinin ölkənin türk dövlətləri ilə, eləcə də Türk Əməkdaşlıq Təşkilatları ilə hərtərəfli əməkdaşlığının inkişafında mühüm rol oynayacağından söz açılıb. Türk Əməkdaşlıq Təşkilatlarından olan Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun türk ölkələri arasında dostluq və qardaşlıq münasibətlərin gücləndirilməsinə yönəlmiş geniş miqyaslı fəaliyyətindən bəhs olunub. Fondun Özbəkistan ilə qarşılıqlı əlaqələrə yüksək əhəmiyyət verdiyi, bu istiqamətdə həyata keçirdiyi layihələri vurğulanıb. Özbəkistanın mədəniyyətinin beynəlxalq səviyyədə tanıdılması ilə bağlı Fond tərəfindən yayımlanan nəşrlərin, ölkədə təşkil edilən müxtəlif tədbirlərin, konfransların önəmi qeyd olunub. Fond tərəfindən 2023-cü ilin Türk Dünyasının Mədəniyyət Paytaxtı statusunu daşıyan Şuşa şəhərinin tarixi və mədəni irsinin tanıdılması məqsədilə Daşkənddə keçirilən silsilə tədbirlər Azərbaycan ilə Özbəkistanın bir-birinə daha yaxınlaşdırılmasına yönəlmiş addım kimi dəyərləndirilib.

Görüş təşkilat ilə Özbəkistan arasında fəal əməkdaşlığın davam etdirilməsi istiqamətində birgə layihələrin keçirilməsinə dair fikir mübadilələri ilə davam edib.

## Elzanın ailəsindən xoş xəbər var



**Əməkdar artist Elza Seyidcahan üçüncü dəfə nənə olub.**

Adalet.az xəbər verir ki, müğənni bu haqda sosial şəbəkə hesabında paylaşım edib. Elza oğlu Ələkbərin oğul övladının doğulduğunu qeyd edib:

”Oğlumun oğlu, Davud balam xoş gəldi!”.

## Zümrüdlə Samir bir arada



**Bir zamanlar eyni telekanalda məşhurlaşan aparıcılar Zümrüd Bədəlova və Samir Bayramlı bir araya gəlib.**

Adalet.az xəbər verir ki, iki məşhurun görüşü barədə Bədəlova instagram hesabında açıqlama yayıb:

Bədəlova həmkarının görüntülərini paylaşaraq Bayramlının hirsləndiyini qeyd edib: ”Əsəbiləşib. Söhbətimiz hərarətlidir. Eh gündəm! Dəmlidir gündəm”.

**Əntiqə**

# İstanbula bağlı olan, lakin ondan uzaqda yerləşən: Şahzadə Adaları

**İstanbulun cənubunda, Mərmərə dənizində yerləşən Şahzadə Adaları sizə heyrətamiz mənzərə və çiçəklərin qoxusu ilə bəzədilmiş xoş meh təklif edir. Adalar füsunkar çimərlikləri, fərqli küçələri, yerli ləzzətləri və memarlığı ilə unikal təcrübələr təqdim edir.**

İstanbulun düz yanında yerləşən Şahzadə Adaları həm ada həyatının dincliyini, həm də İstanbulun parıltısını yaşamaq istəyənlər üçün ideal mühit təqdim edir. Bəzən təbiət qoynunda və malikanələrinin kölgəsində dincəlmək, bəzən də gündəlik təlaşdan uzaq həftə sonları üçün qaçış nöqtəsi olan Şahzadə Adaları ziyarətçilərə hüzur gətirən yerlərdəndir. Yaşıl və mavinin qol-qola uzandığı Mərmərə dənizinin ucsuz-bucaqsız rəngi, başgicəlləndirici mimozaların ağırlığını daşıyan zərif küləyi və Türkiyənin ən məşhur yazıçılarına ev sahibliyi edən tarixi malikanələri ilə Şahzadə Adaları özlüyündə möhtəşəm bir səyahət məkanıdır.

Şahzadə Adaları doqquz gözəl adadan ibarətdir: Büyükada, Heybeliada, Kınalıada, Burgazada, Sedef adası, Yassıada, Sivriada, Kaşık adası və Tavşan adası. İstanbulun Avropa və Asiya tərəfindən gündəlik bərə xidmətləri ilə Büyükada, Heybeliada, Kınalıada, Burgazada və Sedef adalarına asanlıqla çatmaq olar. Şahzadə adalarının ən cazibədar xüsusiyyəti küçələrinin nəqliyyat istifadəsinə bağlı olmasıdır.

İstanbula bağlı, lakin ondan uzaq

Rəvayətə görə, adalar öz adını Şərqi Roma İmperiyası dövründə şahzadələrin, imperatorların və imperatriçaların sürgün yerləri olmasından götürüb. Tarix boyu adalar ruhanilər üçün sığınacaq və monarxlar üçün yay istirahət məkanı kimi xidmət etmişdir. Adalarda məşhur türk yazıçıları və dünyanın tanınmış siyasi liderləri də məskunlaşmışdır. Yaz və yay boyu bu adalar İstanbullular üçün cənnətə çevrilir. Tarixi malikanələrin bağ evlərinə çevrildiyi Şahzadə adaları ziyarətçilərin üzmək, sərinləmək, küçələrdə velosiped sürmək, uzun gəzintilər etmək və balıqçılarla ünsiyyət qurmaq üçün üz tutduğu məkana çevrilib.

Şahzadə adalarında dörd fərqli fəsil olsa da, yaz və yay ayları öz gözəlliyi ilə seçilir. Adaların canlandırıcı mühiti, xüsusən də gün çıxmağa başladığı yaz aylarında çiçəklərin, ağacların, torpağın və dənizin cazibədar ətri ilə ziyarətçiləri valeh edir. Əsasən də dostlarınız və yaxınlarınızla isti yaz və ya yay axşamı məşhur balıq restoranında oturub mövsümə uyğun təzə balıqlar, geniş çeşiddə qəlyanaltılar, salatlar, türk rakısı və ya yerli şərablarla axşamınızı möhtəşəm keçirəcəksiniz.



### Ən böyük ada

Şahzadə adalarının ən böyüyü türk dilindən ”Böyük Ada” kimi tərcümə olunan Büyükadadır.

Ziyarətçilər yaz və yay aylarında begonvil, lavanda və mimozalarla örtülmüş ada küçələrində gəzməkdən, adanın ətrafında velosiped sürməkdən və adanın meşəlik ərazilərində piknik etməkdən həzz alırlar. Ziyarətçiləri ilk olaraq bərə limanının yaxınlığındakı məşhur saat qülləsi qarşılayır. Aya Yorgi Manastırı və Yüce Təpə adanın görməli yerləri arasındadır. 50 dəqiqəlik gəzintidən sonra sizi Yüce Təpə (Aya Yorgi təpəsi) qarşılayır. Büyükadanın fərqli tarixini və mənəvi mühitini yaşaya biləcəyiniz binalardan biri də bu təpənin üzərində yerləşən Aya Yorgi Manastırıdır. Ortodoks dindarları üçün çox vacib olan bu kilsə bu gün də istifadə olunur. Ölkədən və xaricdən gələn qonaqlar diləkləri həyata keçsin deyə ibadətgahın daxilində və xaricində and içir, dualar edirlər.

### Cəlbedici tarixi binalar

Heybeliada (türk dilindən Xurlu Ada kimi tərcümə olunur) heybəyə bənzədiyi üçün belə adlandırılmışdır və Şahzadə Adalarının ikinci ən böyük adasıdır.

Heybeliada, Büyükada kimi bir çox tarixi binaya ev sahibliyi edir. Uçurumun yanında yerləşən Aya Yorgi Uçurum Manastırı, Bet Yaakov Sinaqoqu və Aya Nikola Kilsəsi adanın keçmişində tarixi bir məkandan çıxmaq istəyənlər üçün idealdır. Adada mütləq görməli yerlərdən biri də din xadimləri yetişdirmək üçün açılan Seminariya Məktəbidir.

Bu gün məktəb adada mühüm festivallara və tədbirlərə ev sahibliyi edir. Adanın təbiətini araşdırmaq üçün Değirmenburnu Təbiət Parkını velosipedlə və ya piyada gəzə bilərsiniz.

### Məşhur nağılçı Sait Faiqin məzarı

Burgazada sahəsinə görə Şahzadə adalarının üçüncü ən böyük adasıdır. Burgazada bir çox tarixi binalara, möhtəşəm evlərə və yaz aylarında kəşf edə biləcəyiniz füsunkar təbiət gözəlliklərinə ev sahibliyi edir. Burgazada özünəməxsus çimərlikləri ilə yay aylarında istanbulluların marağını cəlb edir. Aya Yorgi Qəribi monastırı, Aya Yani kilsəsi və Sait Faiq muzeyi Burgazadada mütləq görməli yerlərdəndir. Aya Yorgi Qəribi Manastırı adaya gəmi ilə yaxınlaşarkən gördüyünüz mənzərənin əsas mərkəzidir, bina mavi və ağ rəngə boyanmış divarları və zəngi ilə diqqət çəkir. Sait Faiq Muzeyi məşhur türk şairi və nağılçısı Sait Faiq Abasyankın bir müddət Burqazadada olan keçmiş evində yerləşir. Burqaz adasının təbii gözəlliklərinə şahid olmaq üçün adanın sol tərəfində yerləşən Kalpazankayada gəzintiyə çıxa, adanın yeganə təpəsi olan Bayrak Təpədən zərif fotolar çəkə bilərsiniz.

### Qırmızı Ada

**İstanbula ən yaxın ada olduğu üçün Kınalıada gündəlik həyatın təlaşından baş götürüb qaçmaq üçün ən ideal, hüzurlu və sakit, qısa məsafəli istirahət məkanı seçimi ola bilər. Adını o dövrdə onu əhatə edən makilərdən və bu formasiyaları meydana gətirən qırmızı təsvirdən alan kiçik ada qonşu adalarla müqayisədə kiçik əraziyə malikdir. Müxtəlif mədəniyyətlərdən olan insanların birgə yaşadığı bu kiçik, sevimli adanın ən ucqar nöqtəsindən belə yarım saata çatmaq olur. Xristos Manastırı və Surp Krikor İşıqlandırıcı Kilsəsi Kınalıadadakı iki köhnə tikilidir. Kilsə incə daşoyma nümunələri ilə diqqət cəlb edir.**

# Yeni nəşrlər: "Ömrün mənası"ndan süzülüb gələn duyğular...

**Bütün müdrik şairlərin yaradıcılığında ”sirrini sirdaşa verməyən dünyanın” sirləri diqqət mərkəzində olur.**

Klassiklərdən ta bu günümüzə qədər yüzlərlə şairin, alimin, ziyalının nəzərləri hər zəman dünyanın sir boğçası olmasına yönəlib. Təsadüfən illər əvvəl belə bir şeir qarşıma çıxdı:

***Mən səndən küsmüşəm, sonum gəlməmiş,***
***Hər şeyi ömrümdən, silirsən dünya.***
***Mənə verdiyinə, əlim dəyməmiş,***
***Tələsik əlimdən, alırsan dünya...***

Demək , ”dünyanın sirri” açılmayıb və açılacaq kimi də görünmür.

Elə insanın yaradılışı, missiyası, gəlimli-gedimli dünya qədər sirrdir-sehrdir. Bu səbəbdən şairin insanla bağlı şeirlərini axtarmağa başladım:

***Tam vəhdət halında, birləşib bədən,***
***Bir yerin ağrısın, bütün can çəkir.***
***Allahdır insanı, mükəmməl edən,***
***İstəsə, daş üstə, gül-çiçək bitir.***

Əminəm , bu misraların müəllifinin kim olması artıq sizi də dərindən maraqlandırıb. Elə isə şair Asif İsmayılovu sizə də tanıdaq: Asif müəllim 1958-ci ildə Ağdam rayonunun Maqsudlu kəndində anadan olub.1975-79-cu illərdə Xankəndi Dövlət İnstitutunun fizika fakültəsində təhsil alıb.

Ömrünün böyük bir hissəsini pedaqoq kimi gənclərin maarifləndililməsinə həsr edib. El - obasının sayılıb-seçilən ziyalılarından, ağsaqqallarındandır. Şagirdlərinə övladı kimi münasibət göstərdiyi üçün hər zaman gənclər arasında xüsusi hörməti olan müəllimlərdən biri olub. Ailəlidir, 3 övlad, 5 nəvə sahibidir.

Asif müəllimin ədəbiyyata , poeziyaya sevgisi gənclik illərindən başlayıb. Sevgisini də, sevincini də, kədərini də misralara çevirərək ”eşqə düşən gənclərə” sevgilisinə özünü ifadə etmək üçün bir ”dəstək” olub.






Hətta gəncliyinə çoxdan əlvida demiş insanların qəlbində uzun illər açmadığı düşüncələri Asif müəllim misralarında açır, deyir, təssüf, nostalji, sevgi hisslərini o insanların yadına salır:

***Eyni bir partada, qoşa oturduq,***
***Birlikdə həm yazdıq, həm də oxuduq,***
***Bir yerdə oynadıq, ağladıq, güldük,***
***Səni sevdiyimi, deyə bilmədim.***

Görəsən bu vüsala çatmayan sevgi etirafı neçəmizin ürəyində keçmiş gəncliyi canlandırdı, içimizdə geriyə dönüb baxmaq ehtiyacı yaratdı? Çoxumuzun!

Bu gün həm də sizə A. İsmayılovun sonuncu çıxan kitabı haqqında da məlumat vermək imkanım oldu. ”Ömrün mənası” kitabı müəllifin müxtəlif illərdə yazdığı şeirlər toplusudur. Vətən sevgisi, el -obasına bağlılıq, xeyirxahlıq Asif müəllimin şeirlərinin əsas mövzusudur.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan bu şeirlər toplusu 2022-ci ildə ”Bakı” nəşriyyatında 114 səhifədən ibarət olaraq işıq üzü görüb. Bu kitabda möhtəşəm qələyə qədər yazılmış şeirlərdə müəllifin yurd həsrəti, vətən nisgili göyür- göyür göynəyir:

***Ağdama gələndə asta danışın,***
***Min igid yatıbdır hər qarışında,***
***Onların ruhunu ovutmaq çətin,***
***Torpağa hopdular, göz yaşlarında***

Şairin 2020-cilə qədər yazdığı ”Qarabağ” şeirində acı bir həsrətdən başqa səssiz bir üsyanda diqqəti çəkir:

***Qarabağ bizimdir!- deməklə bitməz...***
***Erməni at çapır Cıdır düzündə***
***Qürurutapdanan millətimizin***
***Qarabağ yaş olub , qaldı gözündə...***

Ürəkləri dəlib keçən bu misralar hansı soydaşımızın kədəri, dərdi olmayıb?

***Sən bir torpaqdakı əzəmətə bax***
***Torpağa su qatsan palçıq alınır,***
***Şəhidlər qanıyla yoğrulan torpaq***
***Müqəddəs bir məkan: Vətən adlanır...***

Asif İsmayılovun şeirlərində əbədi sevgiyə layiq olan Vətənin, Yurdun həsrətindən başqa , Ana həsrəti də dolğun şəkildə verilib. Ana haqqında hər hansı bir şeirə nəzər salanda orada xatirəyə dönmüş bir ömrün gözəlliyini, o ömrü məhd edən müəllifin nisgilini bütün qəlbimizlə hiss edirik:

***Ay Ana, nə olar, gəl, darıxmışam,***
***Başımı qoyduğum, dizinə həsrət.***
***Heç nə eşitmirəm, lap, kar olmuşam,***
***Mənə layla çalan, səsinə həsrət.***

”Ömrün mənası” kitabı bir neçə aydır ki, məndədir, oxuyuram, düşünürəm, şairin duyğularına yaxın olan duyğularımı o misralarda görürəm, ruhum dincəlir.

**Hər birinizə o dinclik duyğusunu diləyirəm! Bunun üçün isə ”Ömrün mənası” kitabını oxuyun! Şair Asif İsmayılovun qəlbinin dərinliklərdən süzülüb gələn, içinizi isindirən səmimi duyğuları dinləyin!**

**Əntiqə Rəşid**

# Vüqar Əhməd: "İndiyənə qədər heç bir mədəniyyət nazirindən..."

**Xəbər verdiyimiz kimi bu gün şair, ədəbiyyatşünas, alim Vüqar Əhmədin altmış illik yubileyidir. Vüqar Əhməd Adalet.az-a açıqlamasında doğum günüylə bağlı öz xoş təəssüratlarını bölüşüb:**

”Aprelin əvvəlindən indiyə kimi altmış illik yubileyimlə bağlı tədbirlər keçirilir. Bu gün ATV kanalında qonaq idim. Ağsaqqallar Şurası ”Fəxri ağsaqqal”medalıyla məni təltif etdilər. May ayında da tədbirlərim olacaq. Mən də fürsətdən istifadə edib əziz dostum, qonşum, böyük ziyalı Aqil Abbası təbrik edirəm”.

V.Əhməd mədəniyyət nazirinə də öz təşəkkürünü bildirib:

”Mədəniyyət nazirimiz hörmətli Adil Kərimli haqqımda video-süjet çəkdirdi və nazirliyin saytında yerləşdirdilər. İndiyənə qədər heç bir mədəniyyət nazirindən sənət adamlarına bu cür qayğı görməmişdim. Rasim Balayev haqda da belə video-süjet çəkdilər”.

Şair daim çap olunan kitablarının tez bir zamanda satıldığını deyib:

”Qırx ildir ki, ədəbiyyatdayam, 45 kitabım çıxıb, o kitabların 25-i elmi kitablardır. Xaricdə də, Azərbaycanda da kitablarım çap olunub. Heç vaxt oxucu nigarançılığım olmayıb. Romanlarım, şeirlərim, dərsliklərim tez satılıb. Ən çox tez satılan romanım ”Son nəfəsədək Azərbaycan” olub. Bu romanı Məhəmməd Əmin Rəsulzadəyə həsr etmişəm və 500 tiraj bir həftəyə satılıb. Demişəm ki, bu mənə olan məhəbbət yox, Rəsulzadəyə olan məhəbbətdir. O kitabı təkrar çap etdik. Bəzən gənc yazarlarımızdan şikayət edirlər. Mən onlardan çox razıyam, onları çox sevirəm, həmişə hörmət görürəm”.



V.Əhməd belə gündə öz arzularını da dilə gətirib:

”Allah dövlətimizi, dövlətçiliyimizi qorusun, Azərbaycanımızı inşallah vahid etsin. O gün olsun ki, Zəngəzur dəhlizimiz açılsın. ”Zəngəzur” mahnısı da yazmışam və Brilliant xanım Dadaşova oxuyur. Yəni İrəvana qədər böyük Azərbacan İmperiyasının bərpa olunmağını istəyirəm, arzum budur. Ömür boyu Qarabağın azadlığını arzulayırdım. Həyatımın otuz ilini də Cənubi Azərbaycana həsr etmişəm. Allah millətimizi, bütün dünyanı qorusun. O gün olsun ki, Cənab Prezidentimiz biz alimlərin də dərəcə pullarını artırsın. Yəni biz də kitablarımızı öz hesabımıza yox, dövlət hesabına buraxdıraq. Altı yüz manat maaş alırıq”.

**Vasif Əlihüseyn**

## Səhnə teatrı “ev teatrı” üslubunda hazırladığı ikinci tamaşasını təqdim etdi




**15 aprel tarixində Səhnə teatrı ”ev teatrı” üslubunda hazırladığı ikinci tamaşasını teatrsevərlərə təqdim etdi.**

Adalet.az xəbər verir ki, ”1Səhnə” prodüser mərkəzinin nəzdində fəaliyyət göstərən Səhnə teatrında Edvard Olbinin ”Zooparkda nə baş verdi?” tamaşasının premyerası baş tutub.

Tamaşanın prodüseri Elçin Hacı, quruluşçu rejissoru Elvin Mirzəyev və səs operatoru Nicat Cəbrayılovdur.

Təsadüfən parkda tanış olan iki insan heç bilməzdilər ki, bir-birinin taleyində necə əhəmiyyətli iz qoyacaqlar. Çox vaxt insan nəyə qadirdir olduğunu ağlına belə gətirmir.

Tamaşada rolları Əməkdar artist Vaqif Kərimov və artist Ramil Məmmədv ifa etdilər.

Qəhrəmanları və hadisələri çox yaxın məsafədən izləmək şansı qazanan tamaşaçılar tamaşanı alqışlarla qarşılayıblar.

## 1 yaşında uşaq serialına çəkilən qız 26 il sonra





**İlk bölümü 1997-ci ildə yayımlanan ”Telepuziklər” uşaq serialındakı ”Günəş uşaq” son halı ilə görənləri təəccübləndirib.**

Adalet.az xəbər verir ki, bu rolu Cessika Smit adlı qız cəmi 1 yaşında oynayıb.

Cessikanın özü yalnız 19 yaşı olduqda sükutu pozaraq bu barədə ”Facebook” səhifəsində paylaşım edib. Onun sözlərinə görə, hələ 1996-cı ildə doğum evində olarkən kastinq üzrə menecer palataya daxil olub və bir neçə foto çəkərək gedib. Çəkilişlərə dəvəti isə Smit ailəsi yalnız Cessika 9 aylıq olduqda alıb.

Çəkilişlər zamanı Cessika ”Günəş” kimi yuxarıdan aşağı baxması üçün hündür stula otuzdurulub, atası Bill isə yerdə oturaraq onu güldürməyə çalışıb. Bütün proses cəmi 20 dəqiqə çəkib.

Uşağın kameraya baxaraq gülməsi üçün valideynlərinə 250 funt sterliq (təxminən 530 manat) ödənilib, Cessikanın özünə isə bir qutu oyuncaq hədiyyə olunub.

Cessika yaş yarımlıq olan zaman, serialın ilk epizodu ekranlara çıxdıqda ailə çox az pul aldığını anlayıb. Qızın anası Enji Smit mətbuata açıqlamasında serialın bu dərəcədə şöhrət qazanacağı barədə düşünmədiklərini etiraf edib.

Cessikanın özü isə şöhrət dalıyca qaçmır və təvazökarlığından verilişlərə aldığı çoxsaylı dəvətləri də qəbul etmir. Hazırda o, rəqs dərsləri verməklə məşğuldur.

**Eminquey**

## Aparıcının sözləri hər kəsi təəccübləndirdi



**Aparıcı Hüsniyə Məhərrəmova təşkil olunan tədbirlə bağlı narazıçılığını bildirib.**

Adalet.az xəbər verir ki, edən aparıcı bu barədə instagram hesabnda paylaşım edib. O, işindən zövq almamağının səbəblərini qeyd edib: ”Son zamanlar aparıcılıqdan o qədər də zövq almıram. Bunun bir neçə səbəbi var. Uzun dövr eyni işlə məşqul olmağın, mənim kimi dinamik və enerjili adama həddindən artıq darıxdırıcı gəlməsi əsas səbəbdir. Aparıcı bildirib ki, başqa bir səbəb isə ölkəmizdə peşəkar tədbir təşkilatçılarının həddindən artıq az olmasıdır. O təşkilatçılar ki, texniki məsələlərdən tutmuş, ssenariyə, aparıcının mətninə qədər hər bir işi bilir, bacarır və tətbiq edir. Ta özümdən danışmayacam! Ürəyim gedir özümçün! Bu gözəlliyi bir Momoa (aktyor Ceyson Momoa) görmür, canıyanmış!”

## Bloger Həmayıl Cəfərli (Hllyblog) od püskürdü

**Bloger Həmayıl Cəfərli (Hllyblog) övladının adından istifadə edib gündəmdə olmaq istəyənlərə ismarıc göndərib.**

Adalet.az xəbər verir ki, Cəfərli bu barədə instagram hesabında izləyiciləriylə fikirlərini bölüşüb. O, qeyd edib ki, yazılan rəylər onu məyus edib və instaqramda uzaqlaşmaq istəyir:

”Bəzi şeyləri görüb instaqramdan uzaqlaşmaq istəyirəm. Nə çox qəlb qırmağa meyilli olublar. Övladına valideynlik edə bilməyənləri gözünüzdə böyüdüb müqəddəsləşdirmisiz. Çox şeyi burada bildirmirəmsə, o demək deyil ki, hər şey, göstərilən saxta münasibətdən ibarətdir. İllərdir susuram, amma danışsam, bəziləri bu sahədən yox olub gedər. Mənim və övladımın adını şəxsiyyətinə hörmət etmədiyim fərdlərin postuna yazmayın. Çox xahiş edirəm! Həmin şəxslərədə də buradan son xəbərdarlığımı edirəm. Mən və övladımla reytinq yığmaq üçünaddım atmayın, bəsdirin”.

**Əntiqə**

**Yaqubov Rəhim Adil oğlunun adına Binəqədi qəsəbə bələdiyyəsi tərəfindən verilmiş torpaq Qərarı itdiyi üçün etibarsız sayılır.**

***

**Ələsgərova Təranə Hüseyn qızının adına Binəqədi qəsəbə bələdiyyəsi tərəfindən verilmiş torpaq Qərarı itdiyi üçün etibarsız sayılır.**

***

**Texniki Universitetin Nəzdində Bakı Texniki Kolleci Tibbi Avadanlıqların Quraşdırılması və İstismarı fakültəsinin tələbəsi Qulubəkov Müslüm İlqar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**

***

**01.03.2023 cü il tarixdə “N” saylı hərbi hissə tərəfindən Allahverdiyev Vüsal Oruc oğlunun adına verilmiş “Vətən müharibəsinin iştirakçısı” vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**


Təsisçi və baş məsləhətçi: Aqil ABBAS
Baş redaktor: İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 126
Çapa imzalanmışdır: 20.04.2023